Analitik informasiya jurnalı

yanvar-fevral 2019

Milli Məclis

İlham Əliyev:

“Bizim üçün Azərbaycan vətəndaşlarının rifahı, onların dolanışığı başlıca vəzifədir”

Milli Məclis
Analitik informasiya jurnalı

Təsisçi:
Azərbaycan Respublikasının
Milli Məclisi

Redaksiya Şurası:
Oqtay Əsədov, Ziyafət Əsgərov,
Bahar Muradova, Valeh Ələsgərov,
Səfa Mirzəyev, Əli Hüseynli,
Ziyad Səmədzadə, Eldar İbrahimov,
Hadi Rəcəbli, Arif Rəhimzadə,
İsa Həbibbəyli, Rafael Hüseynov,
Əhliman Əmiraslanov, Səməd
Seyidov, Siyavuş Novruzov,
Aqiyə Naxçıvanlı, Ülvi Quliyev,
Fəttah Heydərov, Ağacan Abıyev

Baş redaktor:
Ülviyyə Abdullayeva

Baş redaktorun müavini:
Mübariz Əsgərov

Məsul redaktor:
Aidə Əhmədova

Dizayn:
Vəfadar Əliyev

"Kütləvi informasiya vasitələri
haqqında" Azərbaycan
Respublikası Qanununa
müvafiq olaraq təsis edilib.

Redaksiyanın ünvanı:
Azərbaycan 1152, Bakı,
Parlament prospekti 1.
Tel: (+99 412) 510 99 07
(+99 412) 510 67 01
(+99 412) 510 90 01

Milli Məclisin
rəsmi web səhifəsi:
www.meclis.gov.az

"Milli Məclis" jurnalının
web səhifəsi:
www.jurnal.meclis.gov.az

**Jurnal 2007-ci ilin may
ayından nəşr olunur**

Bu sayımızda

Milli Məclisin yaz sessiyası öz işinə başladı 2

Rəsmi xronika 4

Milli Məclisin nümayəndə heyəti ATƏT Parlament Assambleyasının 18-ci qış sessiyasında iştirak edib 8

Regionların 2019-2023-cü illərdə inkişafı dövlət proqramı sosial-iqtisadi tərəqqidə daha yüksək mərhələ olacaq 10

Sahibə Qafarova: "Azərbaycanın xarici siyasəti milli maraqlar üzərində qurulub" 14

Xocalı soyqırımı: təbliğat və hüquqi aspekti 20

Bir parça vətən torpağı (Musa Urud) 26

Azərbaycanın iqtisadi qüdrəti artır 28

Azərbaycan bu gün dünyada güclü dövlət və etibarlı tərəfdaş kimi tanınır 32

Yubileylər 36

"ASAN xidmət" dövlət xidmətlərinin vahid məkanına çevrilir 40

Tahir Tağızadə: "Breksit"dən sonra bu xüsusda bəzi əngəllər aradan qalxacaq 44

Tahir Mirkişili: "Əsas hədəflərdən biri də 2025-ci ilədək evsizlərin sayını minimuma endirməkdir" 52

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi: reallıqlar, imkanlar, perspektivlər 56

Bələdiyyə fəaliyyətinin 20 ili: Azərbaycanda səmərəli yerli özünüidarəetmə sisteminin formalaşması 60

Əhalinin səmərəli məşğulluğunun təmin edilməsinin ümumi strateji və sosial-demoqrafik istiqamətləri 64

Neapol Şərqşünaslıq Universitetində Azərbaycan dili tədris olunacaq 68

Seyid İmadəddin Nəsimi: "Həqq idi, həqqi dedi, həqq söylədi" 72

MİLLİ MƏCLİSİN YAZ SESSİYASI ÖZ İŞİNƏ BAŞLADI

Fevralın 1-də Milli Məclisin 2019-cu ildəki ilk plenar iclası keçirildi. Parlamentin Sədri Oqtay Əsədov yaz sessiyasını açıq elan etdi və Dövlət Himni səsləndirildi.

Gündəliyin təsdiqindən sonra spiker millət vəkillərini yaz sessiyasının başlanması münasibəti ilə təbrik etdi. Oqtay Əsədov diqqətə çatdırdı ki, parlament yaz sessiyasında da dövlət başçısının həyata keçirdiyi daxili və xarici siyasətə uyğun olaraq quruculuq işlərinin hüquqi bazasını təmin etmək üçün üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək. Qeyd olundu ki, yaz sessiyasında parlamentdə hökumətin və İnsan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinə nəzarət edən orqanın hesabatları dinlənilәcək, digər vacib sənədlərin müzakirəsi keçiriləcək.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. Əvvəlcə Milli Məclisin Hesablayıcı və İntizam komissiyalarının yenidən təş-

kil edilməsi haqqında parlamentin qərarları müzakirəyə çıxarıldı. Spiker bildirdi ki, qanunvericiliyə edilən dəyişikliyə əsasən, İntizam komissiyasının üzvlərinin sayı 7-dən 11-ə qaldırılıb. Komissiyanın tərkibinə deputatlardan Malik Həsənov, Sevinc Hüseynova, Hikmət Məmmədov, Pərvin Kazımzadə və Fəzail İbrahimli də daxil edilib və Kamran Nəbizadə komissiyanın tərkibindən çıxarılıb. Hesablayıcı komissiyanın tərkibi isə dəyişməyib, əvvəlki sədr və üzvlər olduğu kimi saxlanılır. Hər iki qərar ayrı-ayrılıqda səsə qoyularaq təsdiqləndi.

Sonra Milli Məclisin 2019-cu il yaz sessiyasının qanunvericilik işləri planına baxıldı. Qanunvericilik işlər planına Azərbaycan Respublikasının Dövlət Gerbinin və Dövlət Himninin istifadəsi qaydaları haqqında, "Peşə birlikləri haqqında", "Sosial sifarişlər haqqında", "Daxili qoşunlar haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Texniki tənzimləmə haqqında", "Standartlaşdırma haqqında", "Kabel şəbəkəsi yayımı haqqında", "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında", "Turizm haqqında", "Ümumi təhsil haqqında", "Kinematoqrafiya haqqında", "Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Yazılı abidələr haqqında", "Reproduktiv sağlamlıq haqqında", "İnsan orqanlarının donorluğu və transplantasiyası haqqında" kimi çox mühüm qanun layihələri, bəzi qanunlarda dəyişikliklər edilməsi barədə sənədlər daxil edilib.

Millət vəkilləri Əflatun Amaşov, Fazil Mustafa, Vahid Əhmədov, Fərəc Quliyev, Əli Məsimli, Sahib Alıyev, Zahid Oruc, Siyavuş Novruzov, Flora Qasımova, Elmira Axundova, Fəzail Ağamalı, Jalə Əliyeva, Qənirə Paşayeva, Azay Quliyev, İqbal Məmmədov, Əli Hüseynli sənədlə əlaqədar fikirlərini bildirdilər, təkliflərini səsləndirdilər. Qanunvericilik işləri planı səsə qoyularaq təsdiqləndi.

"Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında" qanun layihəsinə əsasən Məlahət İbrahimqızı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Şahin İsmayılov isə Gənclər və idman komitəsinin sədr müavinləri seçildilər. Sənədlər səsvermə yolu ilə təsdiqləndi.

Sonra Milli Məclisin plenar iclasına təqdim olunan qanun layihələri, qanunlara və məcəllələrə əlavə və dəyişikliklər deputatlar tərəfindən müzakirə edilərək təsdiqləndi.

Bununla da Milli Məclisin 2019-cu ilin yaz sessiyasının ilk iclası öz işini başa çatdırdı.

Martın 6-da Milli Məclisin Sədri Oqtay Əsədov Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop ilə görüşdü.

Oqtay Əsədov Mustafa Şentopu fevralın 24-də TBMM-in Sədri seçilməsi münasibəti ilə təbrik etdi, bu çətin və şərəfli işdə ona müvəffəqiyyətlər dilədi.

Spiker bu günlərdə həm ölkəmizdə, həm xaricdə növbəti ildönümünü qeyd etdiyimiz Xocalı soyqırımı ilə bağlı Mustafa Şentopun verdiyi bəyanata görə öz adından, Milli Məclisin üzvləri və bütövlükdə Azərbaycan xalqı adından dərin təşəkkürünü bildirdi. Bu bəyanatın qardaş Türkiyənin Azərbaycan xalqının hər zaman yanında olduğunu, kədərini öz kədəri bildiyini bariz şəkildə nümayiş etdirdiyini söylədi. O, Azərbaycana olan bu münasibətin Ulu öndər Heydər Əliyevin söylədiyi: "Bir millət, iki dövlət" ifadəsini bir daha təsdiqlədiyini dedi.

Sədr vurğuladı ki, ölkələrimizin ali siyasi rəhbərliyi arasında rəsmi vəzifəyə başladıqdan sonra ilk xarici səfərlərini qarşılıqlı olaraq həyata keçirmək kimi gözəl bir ənənə formalaşıb və bugünkü səfər də bu ənənəyə sadiqliyin, Azərbaycan və Türkiyənin bir-birinə dünyada tayı-bərabəri olmayan qardaşlıq münasibətlərinin təzahürüdür.

Spiker bildirdi ki, iqtisadi sahədə əməkdaşlığımız yüksək templə inkişaf edir. Əgər 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 2,6 milyard ABŞ dolları təşkil edirdisə, 2018-ci ildə bu rəqəm 3,5 milyard ABŞ dollarına qədər yüksəlmişdi. Azərbaycan-Türkiyə Hökumətlərarası Birgə İqtisadi Komissiyanın fəaliyyət göstərməsi, mütəmadi biznes forumların keçirilməsi mühüm əhəmiyyət daşıyır. Ölkələrimiz arasında bu günə kimi 230 sənəd imzalanıb, daha 30-a qədər sənəd üzərində iş davam etdirilir.

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop təbrikə və səmimi münasibətə görə təşəkkürünü ifadə etdi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını çatdırdı.

Qonaq bildirdi ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafında parlamentlərarası əlaqələr xüsusi rol oynayır. O, parlamentlərarası dostluq qruplarının fəaliyyətini yüksək qiymətləndirdi, deputatlar arasında müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın önəmli olduğunu dedi.

Milli Məclisin Sədri Oqtay Əsədov təəssüflə söylədi ki, Türkiyənin qonşuluğunda olan ölkələrdə qeyri-sabit vəziyyətin hökm sürməsi ciddi təhdidlər yaradır. O, qardaş ölkəyə bu kimi təhdidlərə qarşı inamlı mübarizəsində uğurlar arzuladı. Spiker Türkiyə xalqına qarşıdan gələn bələdiyyə seçkilərində müvəffəqiyyətlər dilədi. Əldə edilmiş siyasi sabitliyin və iqtisadi yüksəlişin növbəti illərdə Türkiyənin sıçrayışla irəliləməsinə imkan verəcəyinə əminliyini bildirdi.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, Sədrin müavinləri Bahar Muradova, Valeh Ələsgərov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral və digər rəsmi şəxslər iştirak edirdilər.

Martın 5-də Milli Məclisin Sədri Oqtay Əsədov ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiya Respublikasının Xarici İşlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.

Qəbulda spiker Miroslav Layçakla görüşlərini xatırlayaraq, qonağın ATƏT-in fəaliyyətdə olan sədri kimi ölkəmizə səfərini yüksək qiymətləndirdi. Bildirildi ki, Azərbaycan uzun illər bu nüfuzlu beynəlxalq qurumun üzvü kimi təşkilata üzv ölkələrlə əməkdaşlığın inkişafına böyük önəm verir. Sədr qeyd etdi ki, ATƏT-in səlahiyyətləri genişləndirilməli, onun maraq dairəsində olan məsələlərin həlli üçün lazımi şərait yaradılmalıdır və bu, ATƏT məkanında mövcud münaqişələrin aradan qaldırılmasında əhəmiyyətli rol oynaya bilər.

Bildirildi ki, bu gün dinamik inkişaf edən Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində, sərhədlərin toxunulmamazlığı prinsipi əsasında həlli bölgənin gələcək tərəqqisinə böyük töhfə verər. Lakin problemin həlli ilə məşğul olan ATƏT-in Minsk Qrupu hələlik bu sahədə ciddi nəticələrə nail ola bilməmişdir.

Söhbətdə Sədr müstəqil Azərbaycanın Slovakiya Respublikası ilə əlaqələrindən söz açaraq, münasibətlərimizin yüksələn xətlə inkişaf etdiyini dedi. Bildirildi ki, siyasi sahədəki dialoq iqtisadi münasibətlərə də öz müsbət təsirini göstərir. Parlamentlər səviyyəsində əməkdaşlığın genişləndirilməsi ümumi məqsədlərə xidmət edir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiya Respublikasının Xarici İşlər və Avropa naziri Miroslav Layçak ölkəmizə səfərindən və burada aparılan danışıqlardan məmnun qaldığını söylədi. O, səfərdən əsas məqsədin bölgədəki vəziyyətlə yaxından tanış olmaq, ilk mənbədən lazımi məlumatları əldə etmək olduğunu dedi. Bildirildi ki, ATƏT-in fəaliyyətdə olan sədri kimi qonaq insan amilinə və sabitliyin qorunmasına böyük önəm verir. Təşkilatın fəaliyyət istiqamətlərinin ATƏT məkanında münaqişələrin aradan qaldırılması, təhlükəsizliyin möhkəmləndirilməsi, nüfuzlu qurumlarla qarşılıqlı əməkdaşlığın genişləndirilməsi olduğunu diqqətə çatdırdı. Bildirildi ki, Azərbaycan ATƏT üçün önəmli ölkədir. Qonaq dedi ki, onun təmsil etdiyi təşkilat Qafqazın bu bölgəsi ilə gələcəkdə də əlaqələri genişləndirmək niyyətindədir.

Miroslav Layçak Dağlıq Qarabağ probleminin tezliklə aradan qaldırılması üçün təşkilatın mövcud imkanlarından maksimum istifadə edəcəklərini dilə gətirdi.

Qonaq Slovakiya ilə Azərbaycan arasında həyatın müxtəlif sahələrində əməkdaşlığın genişləndirilməsinin xalqların ümumi mənafelərinə xidmət etdiyini söylədi.

Qəbulda Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Slovakiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Şəmsəddin Hacıyev, ölkəmizin ATƏT yanında daimi nümayəndəsi Qalib İsrafilov, Slovakiyanın Azərbaycandakı səfiri Peter Priputen, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, təşkilatın fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Rudolf Miçalka və digər rəsmi şəxslər iştirak edirdilər.

Fevralın 27-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə sə-

fərdə olan Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.

Sədr ali qonağı salamlayaraq, onun Gürcüstanın Prezidenti seçilməsi münasibəti ilə təbrik edib, gələcək fəaliyyətində uğurlar diləyib. Bildirildi ki, Azərbaycan tərəfi Gürcüstanla dostluğu yüksək dəyərləndirir, qədim tarixə malik münasibətlərimizin inkişafına böyük önəm verir. Spiker Oqtay Əsədov vurğuladı ki, biz hər bir vəziyyətdə bir-birimizin yanında olmuşuq, həmişə bir-birimizi dəstəkləmişik. Qeyd edildi ki, dövlət başçılarının müxtəlif vaxtlarda həyata keçirdikləri qarşılıqlı səfərlər, aparılan danışıqlar əməkdaşlığımızı strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişdir və iki qardaş ölkənin birgə həyata keçirdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft və qaz layihələri Avropanın enerji xəritəsini yenidən cızmaqdadır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti isə bölgənin mühüm nəqliyyat qovşağına çevrilməsində əhəmiyyətli rol oynayır. Bu kimi layihələr Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığının formalaşmasına gətirib çıxarmışdır. Heç də təsadüfi deyildir ki, bu üç ölkə parlamentlərinin xarici əlaqələr komitələrinin birgə iclaslarının keçirilməsi artıq adi hal almışdır. Bu gün Gürcüstanda Azərbaycan kapitallı 1000-dən çox şirkət, ölkəmizdə isə 300-dən artıq gürcü şirkəti fəaliyyət göstərir. Təkcə ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 580 milyon ABŞ dolları həcmində olmuşdur.

Sədr hər iki ölkənin ərazi bütövlüyünün pozulması kimi oxşar probleminin olduğunu qeyd edərək vurğuladı ki, biz bu məsələlərin beynəlxalq hüquq normaları çərçivəsində, sərhədlərin pozulmaması prinsipinə uyğun olaraq ədalətli həllinə tərəfdarıq.

Spiker deputatlarımızın əməkdaşlığımıza mühüm töhfələr verdiyinə diqqət çəkdi və qeyd etdi ki, nüfuzlu beynəlxalq qurumlarda nümayəndə heyətlərimiz ümumi məqsədlər naminə vahid mövqedən çıxış etmək üçün prinsipial məsələlər ətrafında fikir mübadiləsi aparırlar.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Gürcüstan Prezidenti xanım Salome Zurabişvili bildirdi ki, parlamentlər səviyyəsində əlaqələrin daha da dərinləşməsi dövlətlərarası münasibətlərə də öz müsbət təsirini göstərir.

Gürcüstan Prezidenti Azərbaycanın təşəbbüsü və Gürcüstanın fəal iştirakı ilə reallaşmış enerji layihələrinin əhəmiyyətini xüsusi

vurğuladı. Bölgənin Avropa və Asiya üçün mühüm nəqliyyat dəhlizinə çevrilməsi barədə fikirlərini açıqladı. Gürcüstanın Azərbaycanla dostluğunun qədim tarixi kökləri olduğunu söyləyən qonaq gələcəkdə həyatın digər sahələrində, o cümlədən mədəniyyət sahəsində də əlaqələri dərinləşdirmək niyyətində olduqlarını bildirdi.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, Sədrin müavinləri Bahar Muradova, Valeh Ələsgərov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov, ölkəmizin Gürcüstandakı səfiri Dursun Həsənov, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze və digər rəsmi şəxslər iştirak edirdilər.

Fevralın 18-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyətini qəbul etdi.

Spiker qrupun rəhbəri Şamil Ayrımı salamlayaraq, onun bu vəzifədə ölkəmizə ilk rəsmi səfərini yüksək dəyərləndirdi.

Sədr bir neçə gün əvvəl İstanbulda yaşayış binasının çökməsi ilə mülki şəxslərin həyatını itirməsindən və vertolyot qəzasında hərbçilərin şəhid olmasından kədərləndiyini, onların yaxınlarına Milli Məclis üzvləri adından başsağlığı verdiyini söylədi.

Səmimi qəbul üçün minnətdarlığını bildirən TBMM-in Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım qeyd etdi ki, Türkiyə-Azərbaycan münasibətləri bu gün çox yüksək səviyyədədir. Dövlət başçıları arasındakı səmimi münasibət həyatın digər sahələrinə də öz təsirini göstərməkdədir.

Vurğulandı ki, Azərbaycanla dostluq qrupu TBMM-də ən böyük qruplardan biridir. Bu qrupa üzv olmaq üçün Türkiyə millət vəkillərindən 360 müraciət daxil olmuşdur. Türkiyəli deputatlar Cənubi Qafqazın bu bölgəsində baş verən prosesləri diqqətlə izləyir, Azərbaycanın uğurlarını öz uğurları, problemlərini öz problemləri kimi qəbul edirlər. Dağlıq Qarabağ münaqişəsi hər bir azərbaycanlı kimi, Türkiyə vətəndaşlarını da narahat edir.

Qəbulda Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov və digər rəsmi şəxslər iştirak edirdilər.

Yanvarın 21-də Milli Məclisin Sədri Oqtay Əsədov Səudiyyə Ərəbistanı Şura Məclisinin ölkəmizlə parlamentlərarası dostluq komitəsinin sədri Fayez bin Abdulla Əl-Şəhrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdü.

Spiker qonaqları salamlayaraq qeyd etdi ki, Səudiyyə Ərəbistanı bütün dünya müsəlmanlarının görüşdüyü bir məkandır. Xalqımızın qəlbində bu məkanın xüsusi yeri vardır. Müstəqil Azərbaycan Səudiyyə Ərəbistanı ilə qarşılıqlı əlaqələrin inkişafına həmişə böyük önəm vermişdir. Prezident İlham Əliyevin bu ölkəyə səfərləri zamanı aparılan danışıqlar əməkdaşlığımızın inkişafında yeni səhifə açmışdır. Bugünədək ölkələrimiz arasında 20 hüquqi sənəd imzalanmış, 11-i üzərində iş davam etdirilir. Bildirildi ki, Azərbaycanda Səudiyyə sərmayəsi ilə 16 müəssisə fəaliyyət göstərir.

Qeyd edildi ki, parlamentlər səviyyəsində münasibətlərimiz də yüksəlişdədir. Spiker bu ölkəyə səfərini və orada keçirdiyi görüşləri məmnunluqla xatırladı və Azərbaycan parlamentinin 100 illiyinə həsr olunmuş təntənəli iclasda Səudiyyə Ərəbistanı Şura Məclisinin Sədri Abdulla bin Məhəmməd bin İbrahim Əl-Şeyxin iştirakını yüksək dəyərləndirdi.

Sədr Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində dəyişməz ədalətli mövqeyinə, bu günədək işğalçı Ermənistanla diplomatik münasibətlər qurmadığına görə qarşı tərəfə minnətdarlığını ifadə etdi və Səudiyyə Ərəbistanı parlamentinin gələcəkdə Xocalı soyqırımı ilə bağlı məsələyə münasibət bildirəcəyinə ümidvar olduğunu söylədi.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Fayez bin Abdulla Əl-Şəhri ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını dedi. Qonaq Milli Məclis Sədrinin və onun başçılıq etdiyi nümayəndə heyətinin beynəlxalq təşkilatlardakı iştirakını yüksək dəyərləndirdi. Bildirildi ki, deputatların qarşılıqlı səfərləri, parlament spikerləri səviyyəsində görüşlərin keçirilməsi əlaqələrimizin daha da möhkəmlənməsinə yaxşı zəmin yaradır.

Qonaq ölkəsinin müstəqil Azərbaycanla siyasi, iqtisadi, mədəni sahələrdə münasibətlərin daha da dərinləşməsində maraqlı olduğunu söylədi. O, bölgənin ən ağrılı problemlərindən olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdar olduqlarını bir daha bəyan etdi.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Səudiyyə Ərəbistanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fəttah Heydərov, Səudiyyə Ərəbistanının ölkəmizdəki səfiri Həməd Abdullah Səud bin Xudeyr və digər rəsmi şəxslər iştirak edirdilər.

Milli Məclisin nümayəndə heyəti ATƏT Parlament Assambleyasının 18-ci qış sessiyasında iştirak edib

Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti 2019-cu il fevralın 21-22-də Avstriyanın Vyana şəhərində keçirilmiş ATƏT Parlament Assambleyasının (ATƏT PA) 18-ci qış sessiyasında iştirak edib. Sessiyada ölkəmiz Milli Məclis Sədrinin müavini Bahar Muradovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub. Nümayəndə heyətinin sıralarında Milli Məclisin deputatları Azay Quliyev, Tahir Mirkişili, Elşad Həsənov, Kamran Nəbizadə və Ülviyyə Ağayeva yer alıblar.

Sessiya çərçivəsində qurumun Siyasi məsələlər və təhlükəsizlik, İqtisadi məsələlər, elm, texnologiya və ətraf mühit, həmçinin Demokratiya, insan haqları və humanitar məsələlər komitələrinin iclasları keçirilib. Eyni zamanda, assambleyanın üç komitəsinin birgə iclası baş tutub. Daimi Komitənin iclasında ATƏT PA-nın rəhbər strukturlarının başçıları hesabatla çıxış ediblər, parlamentarilər aktual mövzularla bağlı fikir mübadiləsi aparıblar.

Tədbir çərçivəsində Vyana şəhərində ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun 5-ci iclası keçirilib. Tədbirdə ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova və ATƏT PA-nın vitse-prezidenti, İpək Yoluna Dəstək Qrupunun sədri Azay Quliyev çıxış ediblər.

ATƏT PA-nın 18-ci qış sessiyası çərçivəsində keçirilən komitə iclaslarında "Uzanan münaqişələrin həlli üçün ATƏT-in imkan və mexanizmləri", "ATƏT regionunda korrupsiya, pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizə sahəsində səmərəli idarəetmə", "Fövqəladə vəziyyətlərdə insan hüquqlarının qanuni məh-

dudlaşdırılmasının təsir sahələri" və digər mövzularda fikir mübadiləsi aparılıb. Azərbaycan nümayəndə heyətində təmsil olunan deputatlar yüksək fəallıq nümayiş etdirərək müzakirəyə çıxarılan məsələlərlə bağlı Azərbaycanın konkret və qətiyyətli mövqeyini diqqətə çatdırıblar. Müzakirələr zamanı ATƏT məkanında münaqişələrin həllinin yalnız konstruktiv dialoq sayəsində mümkün olduğu, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun mövcud metodologiyasına yenidən baxılmasının zəruriliyi, sərhəd zonalarında və təmas xətti boyu yaşayan insanların hüquqlarının qorunmasının mühüm əhəmiyyətə malik olduğu, xarici müdaxilələrin, qonşu ölkəyə qarşı işğalçılıq siyasətinin insanların yaşamaq hüququnu məhdudlaşdırdığı diqqətə çatdırılıb, Ermənistan Azərbaycanın mədəni və tarixi abidələrinin dağıdılmasını dayandırmağa çağırılıb. Bildirilib ki, ATƏT sənədlərində Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları münaqişə tərəfləri deyil, yalnız maraqlı tərəflər kimi müəyyən edilir. Eyni zamanda, korrupsiya ilə mübarizədə "ASAN xidmət" modelinin üstünlüklərindən bəhs olunub.

Bundan başqa, Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclis Sədrinin müavini Bahar Muradova səfər çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirib. Azərbaycan-ATƏT PA münasibətləri, qış sessiyasının gündəliyində duran məsələlər, o cümlədən həlli uzadılan münaqişələr, seçkilərə müşahidə missiyalarının müşahidəçiləri üçün təlimat ATƏT PA-nın prezidenti Georgi Tsereteli ilə görüşdə müzakirə edilib. ATƏT PA-nın Siyasi məsələlər və təhlükəsizlik komitəsinin sədri, İsveçrə parlamentində Azərbaycanla dostluq qrupunun rəhbəri Filippo Lombardi ilə görüşdə isə parlamentlərarası əlaqələrin perspektivləri, assambleya çərçivəsində əməkdaşlıq məsələləri müzakirəyə çıxarılıb.

Regionların 2019-2023-cü illərdə inkişafı dövlət proqramı sosial-iqtisadi tərəqqidə daha yüksək mərhələ olacaq

Arif Rəhimzadə

Milli Məclisin Regional məsələlər komitəsinin sədri

Yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda cənab Prezident regionların son beş ildə əldə etdiyi uğurlar barədə ətraflı məlumat verdi, növbəti illər üçün IV dövlət proqramının əsas göstəricilərini, istiqamətlərini və məqsədlərini müəyyənləşdirdi.

Dövlət başçısının giriş və yekun nitqlərində göstərildi ki, icra olunmuş üç dövlət proqramı nəticəsində Azərbaycan iqtisadiyyatı yeni zirvələr fəth etmiş, sənaye və kənd təsərrüfatı sahələrində yüksək nəticələr əldə olunmuş, qeyri-neft sektoru sürətlə inkişaf etmişdir. Azərbaycanın ümumi daxili məhsulu dəfələrlə artmış, əhalinin rifah halı yaxşılaşmışdır. Son 15 ildə Azərbaycanda 2 milyon yeni iş yeri yaradılmış, 100-dən çox şəhərcik tikilib məcburi köçkün ailələrinə verilmişdir. Biznes mühiti yaxşılaşdırılmış, sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox vəsait verilmişdir. Ən başlıcası, xalqımız əmin-amanlıq içində, rahat şəraitdə yaşamış, respublikamız sabit və təhlükəsiz məkana çevrilmişdir. Görülən bu tədbirlər nəticəsində ölkəmizin bütün rayon və şəhərlərinin siması kökündən dəyişmiş, abadlıq və tikinti-quraşdırma işləri geniş vüsət almış, müasir tələblərə cavab verən kommunikasiya xətlərinin əhatə dairəsi əsaslı surətdə genişlənmişdir.

Deputat seçildiyim Neftçala rayonunda da son illər bu istiqamətdə xeyli işlər görülmüşdür. Belə ki, keçən əsrin 90-cı illərinin əvvəlində bərbad hala düşmüş, uzunluğu 47 kilometr olan Neftçala-Xol yolu yenidən tikilib istifadəyə verilmiş, əhalisi 20 min nəfərə yaxın olan bu böyük bölgə ilə rayon mərkəzi arasında birbaşa avtomobil yolu yaranmışdır. Sənaye məhəlləsi tikilib istifadəyə verilmişdir. Burada hazırda minik avtomobilləri istehsal edilir. Aşağı Qaramanlı, Aşağı Surra kəndlərinin və Xol ərazisinin ümumilikdə 18 min hektar kənd təsərrüfatına yararlı torpaqlarının suvarılmasını təmin edən 67 milyon manat dəyərində Neftçala Magistral Kanalı istifadəyə verilmiş, rayon mərkəzi xəstəxanası əsaslı təmir olunaraq ən müasir tibbi avadanlıqla təchiz edilmişdir. Neftçala şəhərində geniş abadlıq işləri aparılmış, şəhərin görkəmi yenilənmiş, yeni məktəblər tikilib istifadəyə verilmiş, köhnələri isə əsaslı təmir olunmuşdur. Rayonda hazırda olimpiya mərkəzi tikilməkdədir.

Cənab Prezidentin konfransdakı yekun nitqində qarşıya qoyduğu vəzifələr və dövlət orqanlarında idarəetmənin təkmilləşdirilməsi və səmərəliliyin artırılması istiqamətində keçirilən tədbirlər hər birimizdən işə yeni təfəkkürlə, fərdi məsuliyyətlə yanaşmağı tələb edir.

Milli Məclisdə kənd rayonunu təmsil edən nümayəndə kimi aqrar sahə ilə əlaqədar düşüncələrimi bölüşmək istərdim. Son 15 ildə kənd təsərrüfatı istehsalında 1,7 dəfə artım olmuşdur. Ölkə başçısı bu vacib sahənin inkişafına bundan sonra da diqqətin artırılması və daha sürətli inkişafa nail olunması ilə əlaqədar qarşıya yeni vəzifələr qoymuşdur.

Məlumdur ki, kənd təsərrüfatı hər bir ölkədə insanların işlə təmin olunması üçün ən böyük potensiala malik iqtisadi bir sahədir və onun səmərəli, dolğun istifadəsi yeni iş yerlərinin yaradılmasında çox böyük rol oynayır. Hazırda respublikamızda kənd təsərrüfatında məhsuldarlığın artırılması məqsədi ilə 33 rayonda 51 aqropark və iri təsərrüfatlar yaradılmışdır. Onlardan 17-si artıq fəaliyyətdədir. Aqropakların hamısı işə düşəndə bölgələrdə yeni iş yerləri yaradılacaq, kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı artmaqla bu sahənin inkişafında yeni mərhələ başlanacaqdır.

Bununla belə, kənd təsərrüfatı torpaqlarının əsas hissəsi - 1 milyon 350 min hektardan çoxu fərdi sahibkarlara verilmişdir; onların hər birinə orta hesabla 1-1,5 hektar torpaq sahəsi düşür. Fermerlər arasında 20-25 hektar torpağı olanlar olsa da, bu azlıq ümumi mənzərəni dəyişmir. Əlbəttə, belə xırda sahələrdə nə texnikadan səmərəli istifadə etmək, nə də müasir texnologiyadan bəhrələnmək mümkün deyil. Bu da ölkə əhalisinin ərzağa olan tələbatının yerli istehsal hesabına tam təmin edilməsində çətinliklər yaratmaqla, rəqabətə davamlı məhsul istehsalına mane ola bilər. Vəziyyətdən çıxmaq üçün aqroparkların yaradılması ilə yanaşı, bu xırda sahələrin kooperasiya yolu ilə böyüdülməsinə ehtiyac vardır. Bu təsərrüfatların hər birinin sahəsi onun istehsal istiqamətindən asılı olaraq ən azı 50-300 hektara çatdırılmalıdır. Yalnız belə olan halda kənd təsərrüfatı istehsalını müasir, qabaqcıl səviyyəyə yüksəltmək mümkün olacaq, əhalinin ərzaq tələbatını tam ödəməklə sahənin ixrac imkanları artacaq, yeni iş yerləri yaradılacaqdır.

Düzdür, ölkəmizdə artıq 60-a yaxın kənd təsərrüfatı kooperativi mövcuddur və onların torpaq sahəsi 4000 hektardan çoxdur. Orta hesabla hər kooperativin sahəsi 60-70 hektar civarındadır. Əfsus ki, bu proses ləng gedir və kənd təsərrüfatında işləyən əməkçilərin əksəriyyəti xırda sahələrdə fəaliyyət göstərir.

Kənd təsərrüfatında kooperasiyanın inkişafı ilə əlaqədar lazımi qanunvericilik bazası yaradılmışdır. 2016-cı ildə "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və cənab Prezidentin 14 iyul 2017-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2020-ci illər üçün Dövlət Proqramı" qəbul olunmuşdur. Təəssüf ki, qarşıya qoyulan vəzifələrin icra edilməsi məqsədi ilə lazımi tədbirlər ləng həyata keçirilir. Kooperasiyanın inkişafı üçün konkret imtiyazlar sistemi yaradılmalıdır ki, insanlar kooperasiya vasitəsi ilə torpaqdan daha səmərəli istifadəyə şərait yaradıldığını, nəticədə çox gəlir əldə olunduğunu hiss etsinlər. Misal üçün, kooperativlərə imtiyazlı kreditlər, əkin-biçin və ya şum texnikası, toxum, cins mal-qara verilsə, sahənin inkişafında yaxşı stimul olardı. Kənd təsərrüfatı məhsulu istehsalçıları bilsə ki, 50-60 hektar və daha böyük torpaq sahəsi olan kooperativə dövlət hesabına traktor, yaxud digər kənd təsərrüfatı texnikası veriləcək, o da bu imkandan istifadə etmək üçün əlindən gələni edəcəkdir. Kooperativlərə məhsul istehsalı ilə bərabər onun nəqli, emalı, satışı ilə də məşğul olmaq üçün əlverişli şərait yaradılmalıdır.

Kooperasiyanın genişlənməsində şəhərlərin də böyük rolu vardır. Kənd təsərrüfatı məhsulunun böyük həcmi şəhərlərdə satılır. Bakıda, digər şəhərlərdə bayramqabağı və bazar günlərində kənd təsərrü-

fatı məhsullarının satışı yarmarkaları təşkil olunur. Bu gözəl təşəbbüs genişləndirilməlidir. Kooperativlərə istehsal etdikləri məhsulları satmaq üçün daimi yer ayrılması onların fəaliyyətinin genişlənməsinə yaxşı stimul olardı. Bununla da rayonlarda və şəhərlərdə yeni iş yerləri yaradılardı. Bu sahədə çalışan insanlar arasında kooperasiyanın üstünlüklərinin, sahəyə verilən dövlət dəstəyinin geniş təbliğinə də ciddi ehtiyac vardır.

Vacib məsələlərdən biri istehsal olunan taxılın keyfiyyətinin yüksəldilməsidir. Keçən il ölkəmizdə 3,2 milyon ton taxıl istehsal olunmuş, yüksək məhsuldarlıq əldə edilmişdir. Bu həcm Azərbaycanın çörək və çörək məmulatlarına olan tələbatını artıqlaması ilə ödəyir. Ancaq istehsal olunan məhsulun böyük hissəsi ərzaq sənayesinin tələbatına uyğun deyil. Bu səbəbdən 2018-ci ildə Azərbaycana ərzaq üçün 992 min ton buğda idxal olunmuşdur. Bunun əsas səbəblərindən biri yüksək kondisiyaya uyğun buğda toxumunun olmamasıdır.

Möhtərəm Prezidentin kənd təsərrüfatının inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrin həlli ilə əlaqədar toxumçuluğun inkişafına ciddi fikir verilməlidir. Misal üçün, taxıl toxumçuluğu ilə əlaqədar aqroparkların nəzdində toxumçuluq sahələrinin yaradılmasına ehtiyac var. Bu məsələlərin həllində də maddi imtiyazlara yer verilməlidir.

Respublikada meliorativ tədbirlərin görülməsinə diqqət artırılmışdır. Məhz bunun nəticəsidir ki, son iki ildə hər il 100 min hektar yeni torpaq sahəsinə suyun verilməsi təşkil edilmişdir. 2019-cu ildə bu tədbirlər davam etdirilməklə 80 min hektarda meliorasiya işləri aparılacaqdır. Son illərdə 4 böyük - Taxtakörpü, Şəmkirçay, Göytəpə, Tovuzçay su anbarı tikilib istifadəyə verilmişdir ki, onların tutumu 470 milyon kubmetrdir. Hər il dövlət vəsaiti ilə minimum 300 subartezian quyusu qazılır. Bununla belə, yeni istifadəyə verilmiş və bundan əvvəlki su anbarlarının ehtiyatları kənd təsərrüfatının ehtiyaclarını tam ödəmir. Suvarma suyundan indiki qaydada istifadə vəziyyəti gələcəkdə daha da gərginləşdirəcəkdir. Sudan qənaətlə istifadə olunmasının təşkili kənd təsərrüfatının inkişafında əsas məsələlərdən biridir.

Azərbaycanda bu sahədə müsbət təcrübə də vardır. Yaradılmış aqroparklarda və iri fermer təsərrüfatlarında müasir suvarma texnologiyasından - yağış yağdırma üsulundan istifadə olunur. Əlbəttə, bu texnologiyadan böyük əkin sahələrində istifadə edilir, ancaq xırda sahələrin suvarılması məqsədi ilə müasir texnologiyalar mövcuddur. Azərbaycanda şose yolların kənarlarında salınan meşə zolaqlarının suvarılmasında damcı üsulundan istifadə olunması sahəsində müsbət təcrübə mövcuddur. Bu kimi üsullardan istifadəyə imkan və şərait yaradılmalıdır. Əlbəttə, bu məsələlərdə dövlət dəstəyinə ehtiyac vardır. Sudan qənaətlə istifadə edənlərə də güzəştli texnika və kreditlərin verilməsi bu işə marağı artırmış olardı.

Möhtərəm Prezidentimiz 2019-2023-cü illərdə qarşıya qoyulan vəzifələrin həlli üçün lazım olan vəsaitin məbləğini də göstərdi. Qeyd olundu ki, regionların sosial-iqtisadi inkişafına dair IV dövlət proqramının icrası məqsədi ilə 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Bütün bunlar göstərir ki, qarşıya qoyulan məsələlər realdır, dövlətin bu istiqamətdə göstərdiyi qayğının nəticəsində yeni uğurlar əldə olunacaqdır.

Sahibə Qafarova:

“Azərbaycanın xarici siyasəti milli maraqlar üzərində qurulub”

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, Azərbaycan parlamentinin AvronestPA-da nümayəndə heyətinin rəhbəri, professor Sahibə Qafarova ilə müsahibə

- Sahibə xanım, Azərbaycanın beynəlxalq birliyin layiqli üzvü kimi dünya siyasi proseslərində rolu artır. Əvvəlcə ölkəmizin xarici siyasətdə qazandığı uğurlar barədə fikirlərinizi öyrənmək istərdik.

- Azərbaycan müasir beynəlxalq münasibətlər sisteminin müstəqil və suveren aktoru kimi regionda və ətraf coğrafiyada baş verən proseslərdə xüsusi çəkiyə və mühüm rola malikdir.

Respublikamızın beynəlxalq aləmdəki nüfuzu və mövqeyi ildən-ilə möhkəmlənir, ölkəmizin regional liderliyi dünya tərəfindən açıq şəkildə etiraf olunur. Xarici siyasətdə Azərbaycanın milli maraqlarının qorunması, beynəlxalq mövqelərimizin möhkəmləndirilməsi və ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində yüksək uğurlar qazanılıb. Azərbaycan özünün müstəqil və milli maraqlara əsaslanan xarici siyasət strategiyası ilə həm ikitərəfli, həm də çoxşaxəli əlaqələr fonunda mühüm əməkdaşlıq münasibətləri qura bilib. Prezident İlham Əliyev bu günlərdə “Real” televiziyasına müsahibəsi zamanı ölkəmizin xarici siyasət prioritetləri barədə çox aydın mesajlar verdi. Dövlətimizin başçısı bir daha vurğuladı ki, biz xarici siyasətimizlə öz milli maraqlarımızı qoruyuruq və mümkün olan riskləri azaldırıq. Cənab Prezident qeyd etdi ki, bizim xarici siyasətimiz məhz milli maraqlar üzərində qurulub. Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik. Bu amil Azərbaycanın xarici siyasətinin özəyini təşkil edir. Eyni zamanda, region dövlətləri, qonşu olkələrlə münasibətlərində də Azərbaycan məhz milli maraqlardan çıxış edir.

Bildiyiniz kimi, Ermənistan istisna olmaqla, bütün qonşu ölkələr və region dövlətləri ilə əlaqələrimiz dinamik şəkildə inkişaf edir. Bu, regionun təhlükəsizliyi və tərəqqisi üçün olduqca əhəmiyyətlidir. Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan mühüm nəqliyyat və enerji layihələri həm iştirakçı dövlətlərin, həm də bütövlükdə regionun həyatında yeni müsbət reallıqlar yaradıb.

Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı da ölkəmizin və xalqımızın milli mənafeyinə söykənir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti istənilən tribunadan çox cəsarətlə istifadə edərək ölkə reallıqlarını, Azərbaycanın baxış və mövqeyini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox müsbət rol oynayır, həm

bu təşkilata üzv olan ölkələr arasında münasibətlərin inkişafına xidmət edən addımlar atır, həm də təşkilatın beynəlxalq nüfuzunun yüksəlməsinə töhfələr verir. Eyni zamanda, Azərbaycan Avropa İttifaqı ilə sıx əlaqələr qurub. Həm bu təşkilatla əlaqələr, həm də Avropanın digər nüfuzlu təşkilatları ilə qurulmuş müsbət münasibətlər Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət edir. Azərbaycan dünyada BMT-dən sonra ən böyük təşkilat olan Qoşulmama Hərəkatının üzvüdür və bu təşkilata sədrlik edəcək. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsindən sonra bu gün belə böyük və nüfuzlu bir təşkilata sədrlik etməsi bir daha ölkəmizə olan inam və rəğbəti göstərir, Azərbaycanın müstəqil siyasətinin dünya birliyi tərəfindən dəstəkləndiyini söyləməyə dəlalət edir. Təbii ki, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan siyasi kursun nə qədər əhəmiyyətli və praqmatik olduğunu göstərir. Azərbaycan bu gün sabit, dinamik inkişaf edən, dünyada sülh və təhlükəsizliyə, mədəniyyətlər, sivilizasiyalar arasında dialoqa mühüm töhfələr verən, bir çox beynəlxalq tədbirlərə uğurlu ev sahibliyi edən dövlət kimi özünü təsdiq edib.

- Ötən ayın sonlarında Avropa Parlamentində Avronest Parlament Assambleyasının komitə iclasları keçirildi. Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi "Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələrində təhsildə innovasiyalar və təhsil islahatları: çağırışlar və fürsətlər" adlı məruzə ilə çıxış etdiniz. Bu məsələ ilə bağlı nə deyə bilərsiniz?

- Bu komitələrin iclasları may ayında keçirilməsi nəzərdə tutulan Avropa Parlamenti seçkilərindən əvvəl Avronest Parlament Assambleyasının sonuncu iclasları idi. Bu mənada iclaslar təşkilatın gələcək fəaliyyəti baxımından mühüm əhəmiyyət daşıyırdı. Həmçinin iclaslarda bir sıra məsələlər müzakirə olundu. Avronest Parlament Assambleyasının İqtisadi inteqrasiya, hüquqi yaxınlaşma və Avropa İttifaqı siyasəti ilə uyğunlaşma və Sosial məsələlər, işlə təminetmə, təhsil, mədəniyyət və vətəndaş cəmiyyəti komitələrinin birgə iclasında mənim məruzəm dinlənildi. Avropa Parlamentinin üzvü Mariya Qrapininin və mənim birgə hazırladığımız "Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələrində təhsildə innovasiyalar və təhsil islahatları: çağırışlar və fürsətlər" adlı məruzənin bu ilin sonunda Avronest Parlament Assambleyasının növbəti plenar sessiyasında qəbul edilməsi gözlənilir. Burada söhbət müasir qlobal inkişaf kontekstində təhsil sistemlərinin modernləşdirilməsi, innovasiyaların təhsildə tətbiqinin genişləndirilməsi, modern təhsil islahatları və digər məsələlərdən gedir.

Avronest Parlament Assambleyasının Siyasi məsələlər, insan hüquqları və demokratiya, eləcə də Enerji təhlükəsizliyi komitələrinin birgə iclasında isə hər bir komitə üçün hazırlanmış qətnamə layihələri Avropa Parlamenti və Şərq Tərəfdaşlığı ölkələri parlamentlərinin üzvləri, eləcə də Avropa Komissiyasının müvafiq bölmə rəhbərlərinin və ekspertlərin iştirakı ilə müzakirə edildi. İclaslar çərçivəsində deputatlarımız Avropa Parlamentindən və Şərq Tərəfdaşlığı üzrə digər ölkələrdən olan həmkarlarımızla fikir mübadiləsi apardılar, məruzələrə edilmiş vacib əlavə və dəyişikliklərlə bağlı mövqelərini bildirdilər. Xüsusilə AP tərəfindən ölkəmizlə bağlı qərəzli qətnamənin qəbul olunması müxtəlif görüşlərdə mənim tərəfimdən kəskin tənqid edildi. Ölkəmizə qarşı ikili standartlar siyasətinin münasibətlərimizin ruhuna uyğun gəlmədiyi və bunun həmin beynəlxalq təşkilatın özünün beynəlxalq nüfuzuna xələl gətirdiyi qeyd olundu.

- Bəs AŞPA-nın yanvar sessiyasında Azərbaycan ictimaiyyətini maraqlandıran hansı məsələlər müzakirəyə çıxarıldı?

- Bu sessiyanın gedişində konkret olaraq Azərbaycanla bağlı hər hansı bir məsələ müzakirə olunmasa da, Azərbaycan ictimaiyyətini maraqlandıran bir çox məsələlərin müzakirələrində nümayəndə heyətimizin üzvləri fəal iştirak etdilər. Deputatlarımızın çıxışlarında Azərbaycan həqiqətləri, ölkəmizin inkişafı, beynəlxalq münasibətlər sistemində fəal rolu və mövqeyi haqqında bir daha məlumat verildi. Eyni zamanda, sessiyada Azərbaycan nümayəndə heyətinin səlahiyyətləri tam şəkildə təsdiqləndi, həmçinin nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov AŞPA-nın vitse-prezidenti seçildi, bəzi həmkarlarımız siyasi qruplara, alt komitələrə yeni vəzifələrə seçildilər. Bunlara paralel olaraq, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, bu siyasətin region üçün yaratdığı ciddi təhlükələr, həmçinin bir sıra beynəlxalq təşkilatların ikili standartlar siyasəti və digər mühüm məsələlər nümayəndə heyətimizin üzvləri tərəfindən ətraflı diqqətə çatdırıldı.

Mən sessiya çərçivəsində yayılmış yazılı nitqimdə 2019-cu ilin ölkəmizdə "Nəsimi İli" elan olunması haqqında məlumat verdim və bunun əhəmiyyətini diqqətə çatdırdım. Qeyd etdim ki, artıq Azərbaycanda Prezident İlham Əliye-

vin təşəbbüsü ilə çox gözəl bir ənənə formalaşıb. Dövlət başçısı müxtəlif məsələlərə diqqət çəkmək, onların əhəmiyyətini qeyd etmək məqsədi ilə bu cür qərarlar qəbul edir. Məsələn, 2016-cı il Azərbaycanda "Multikulturalizm İli" elan olunmuşdu. Həmin il çərçivəsində keçirilən tədbirlərdə həm ölkəmizin zəngin multikultural mənzərəsi, tolerantlıq dəyərləri təqdim olundu, həm də bir daha dünyaya mesaj verildi ki, multikulturalizmin, birgəyaşayışın alternativi yoxdur. Həmçinin 2017-ci il "İslam Həmrəyliyi İli"ndə İslam həmrəyliyinin əhəmiyyəti, dinlər arasında dialoqun sülh və təhlükəsizliyə töhfələri diqqətə çatdırıldı. Bu il isə Azərbaycanda "Nəsimi İli" elan olunub. Bu, olduqca böyük əhəmiyyətə malik bir hadisədir. İmadəddin Nəsimi təkcə Azərbaycan xalqının yox, bütün dünyanın ən nəhəng söz adamlarından biridir. Onun əsərlərində humanizm, barış kimi ümumbəşəri ideyalar yüksək poetik şəkildə tərənnüm olunub. Onun yaradıcılığı nəinki Azərbaycan xalqının, o cümlədən bütün bəşəriyyətin fəlsəfi fikir tarixində dərin izlər qoyub. Azərbaycanda 2019-cu ilin məhz belə bir böyük sənətkarın adı ilə adlandırılması bir daha böyük mütəfəkkirin təbliğ etdiyi ümumbəşəri dəyərlərin, humanizm ideyalarının yaşadılmasına bir çağırışdır. Mən müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin bu çağırışa cavab verəcəyinə və dünya səviyyəsində humanizm və tolerantlıq ideallarının qalib gələcəyinə inanıram.

- Sahibə xanım, siz uzun müddət təhsil sahəsində çalışan bir şəxs kimi daim gənclərlə təmasda olursunuz. Ona görə də istədik ki, ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasəti və gənc nəslin inkişafına yaradılan şərait, görülən tədbirlərlə bağlı mövqeyinizi öyrənək. Sizcə, bu gün həyata keçirilən tədbirlər gənc nəslin inkişafına, milli ruhda tərbiyə olunmasına necə təsir göstərir?

- Gənc nəslin sağlam və vətənpərvər ruhda böyüməsi, intellektual inkişafı hər bir dövlət və cəmiyyət üçün strateji əhəmiyyətli məsələdir. Heç də təsadüfi deyil ki, Ulu öndər Heydər Əliyev gənclərə çox mühüm əhəmiyyət verərək onlarla işin düzgün qurulmasını, bu istiqamətdə səmərəli dövlət siyasətinin həyata keçirilməsini daim diqqətdə saxlayırdı. Hazırda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yüksək səviyyəli inkişafı gənclərimiz üçün də böyük perspektiv və imkanlar yaradır. Qeyd etmək istərdim ki, ölkə əhalisinin təxminən 35%-ni yaşı 30-a qədər olan gənclər təşkil edir. Bunun özü həm çox böyük bir göstərici, həm də ölkənin güclü inkişaf enerjisi olduğunu sübut edən məqamlardan biridir. Azərbaycan dövləti haqlı olaraq bu güclü potensialı səfərbər etmək, gənclərin imkanlarından bəhrələnmək, həm də onların dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsi istiqamətində bütün mümkün addımları atmaqdadır. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir.

Azərbaycan gənclərlə bağlı ayrıca qanun qəbul olunmuş və dövlət proqramı icra edilən azsaylı dövlətlərdən biridir. Həm qanunda, həm də proqramda gənclərin inkişaf etdirilməsi ilə əlaqədar konkret tədbirlər əksini tapmaqdadır. Dövlət gənclərin potensialını səfərbər etmək və onları təşviq etmək üçün Gənclər Fondu yaradıb. Bu fond həm gənclərin fəal yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir, onların fəaliyyətini stimullaşdırır, həm də dövlətin gəncləri idarəçiliyə cəlb etmək niyyətini ortaya qoyur.

Gənclərin sağlam ruhda böyü-

məsi və onların idmanla məşğul olmalarına şərait yaradılması üçün ölkənin hər bir regionunda ən müasir standartlara cavab verən idman və olimpiya kompleksləri tikilib. Gənclərin yüksək təhsil almaq imkanının təmin olunması

uğurlu gənclər siyasəti həyata keçirilir və bu siyasət bir çox istiqamətləri əhatə edərək onların sağlam ruhda inkişafını təmin edir. Görülən işlərin məntiqi nəticəsidir ki, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu gün Azərbaycan

- Azərbaycanda təhsil sahəsində həyata keçirilən məqsədyönlü siyasət və ardıcıl tədbirlər nəticəsində təhsil sistemində çox böyük nailiyyətlər, müsbət dinamika müşahidə olunmaqdadır. Möhtərəm Prezident İlham Əliyev təhsil sahə-

məqsədi ilə müasir tipli məktəblər tikilərək istifadəyə verilib. Həmçinin onların işlə təmin olunması məqsədi ilə son 15 ildə ölkədə 2 milyondan artıq yeni iş yeri yaradılıb ki, bunun da 80%-dən çoxu gənclər tərəfindən tutulub və daimidir. Dövlət idarəçiliyində gənclərin rolunu artırmaq üçün son dövrlər bu sahədə bütün vakansiyalar məhz gənclər tərəfindən tutulur. Bütün bunlar isə bir daha göstərir ki, Azərbaycanda çox

gəncləri cəmiyyətimizin fəal hissəsidir və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik.

- Sahibə xanım, yeri gəlmişkən, fevralın 19-da Milli Məclisin iclasında "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanun layihəsinin ikinci oxunuşda müzakirəsi keçirilib. Sizin bu qanun layihəsi ilə bağlı fikirləriniz nədən ibarətdir?

sinin inkişafını, ölkəmizdə savadlı, müasir, dünyagörüşlü və vətənpərvər gənc nəslin yetişməsini həyata keçirilən dövlət siyasətinin mühüm prioritetlərindən biri elan edib. Buna görə də bu sahənin dinamik inkişafını təmin etmək məqsədi ilə çoxşaxəli tədbirlər həyata keçirilməkdədir. Ölkəmizdə təhsil infrastrukturunun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülüb, son 15 ildə 3200-dən artıq orta məktəb tikilib və ya əsaslı tə-

mir olunub. Bu, təhsildə infrastruktur məsələlərinin yüksək səviyyədə həllini şərtləndirib. Eyni zamanda, Azərbaycan təhsilinin inteqrasiyasını sürətləndirmək, ölkəmizdə peşəkar, savadlı kadrların hazırlanması məqsədi ilə müxtəlif proqramlar icra olunub. Ali təhsil müəssisələrində çox ciddi islahatlar aparılıb, təhsilin keyfiyyəti xeyli yaxşılaşdırılıb. Bu gün Azərbaycanın ali məktəblərinin beynəlxalq reytinqi xeyli yüksəlib. Tam məsuliyyətimizlə deyə bilərik ki, respublikada müasir dövrün tələblərinə uyğun güclü təhsil sistemi formalaşıb. Təbii ki, müasir çağırışlar, eyni zamanda, dünyada yaranan yeni trendlər və tələblər, Azərbaycan təhsilinin keçdiyi inkişaf yolu və qazandığı əhəmiyyətli nailiyyətlər ölkəmizdə təhsil sahəsində qanunvericiliyin təkmilləşdirilməsini şərtləndirir. Ona görə də hesab edirəm ki, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu olduqca əhəmiyyətli bir addım olacaq.

Layihədə dövlətin təhsil sistemimizin inkişafı ilə bağlı həyata keçirəcəyi tədbirlərin istiqamətləri göstərilməklə yanaşı, öz üzərinə götürdüyü konkret öhdəliklər də var. Bu, bir daha Azərbaycan dövlətinin sosial mahiyyətini ifadə edir. Azərbaycanda təhsil siyasətinin formalaşdırılması bu sistemdə aparılan islahatların sosial-iqtisadi əhəmiyyətinin artırılmasını vacib məsələ kimi qarşıya qoyub. Azərbaycan dövləti həmişə müəllim peşəsinin nüfuzunu yüksəltmək üçün ardıcıl tədbirlər görür, bu sahədə bacarıqlı, savadlı kadrların hazırlanmasına diqqət göstərir. Atılan stimullaşdırıcı addımlar gənclərdə bu müqəddəs peşəyə marağı daha da artırıb. Azərbaycanda müəllim işləmək istəyən gənclərin sayının son illərdə 3 dəfədən çox artması özlüyündə böyük bir nailiyyətdir. Qanun layihəsində təhsil alanların və təhsil işçilərinin sosial müdafiəsinin həyata keçirilməsi ilə bağlı məsələnin ayrıca yer alması təqdirəlayiqdir.

Qanun layihəsində qeyri-dövlət təhsil müəssisələrinin fəaliyyətinin təmin edilməsi ilə bağlı məsələlər də öz əksini tapıb ki, bu da kifayət qədər aktualdır. Çünki son dövrlər ölkəmizdə qeyri-dövlət təhsil müəssisələrinin fəaliyyəti xeyli genişlənib və bu fəaliyyətin daha uğurlu olması üçün hüquqi müstəvidə görüləcək konkret tədbirlər, onların çərçivələri mütləq şəkildə müəyyənləşdirilməlidir. Sənəddə lisenziyalaşdırma və akkreditasiya, attestasiya məsələlərinin çox aydın şəkildə təsbit olunması bu sahədə şəffaf fəaliyyətin təmin edilməsinə imkan verəcək.

Bildiyimiz kimi, son illərdə təhsil sahəsində bir çox inqilabi yeniliklərə imza atılıb. Kurrikulum, müəllimlərin attestasiyası kimi məsələlər həm təhsil standartlarının yüksəldilməsinə, həm də kadr bazasının zənginləşdirilməsinə xidmət edir. Qanun layihəsində bu məsələlərin də ayrıca yer alması bir daha bu sənədin müasir çağırışlara və tələblərə cavab verdiyini göstərir.

Beləliklə, qanun layihəsində bir çox məsələlər çox dəqiq və ardıcıllıqla təsbit olunmaqla yanaşı, burada müasir çağırışlara cavab verən yeni tələblər də əksini tapmaqdadır.

XOCALI SOYQIRIMI

TƏBLİĞAT VƏ HÜQUQİ ASPEKTİ

Sevda Abdullayeva

Milli Məclis Aparatı Analitik informasiya şöbəsinin baş məsləhətçisi

Erməni millətçilərinin son yüz ildən artıq dövrdə azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım və etnik təmizləmə siyasətinin ən qanlı səhifələrindən olan Xocalı soyqırımından 27 il keçir.

Xocalı şəhərində törədilmiş cinayətlərin xarakteri və miqyası bu soyqırım aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli qətnaməsi ilə qəbul edilmiş "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyasında ifadə olunmuş tərifə tam uyğundur - qabaqcadan planlaşdırılmış kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə məhv etmək niyyəti ilə törədilmişdir.

Beləliklə, Xocalıda törədilən qətliamın beynəlxalq hüquqda soyqırım kimi təsbit olunmasının əslində sübuta ehtiyacı olmasa da, praktik baxımdan dünyada şahidi olduğumuz ikili standartlar, ermənilərin timsalında müəyyən maraqlı qüvvələrin həyata keçirdikləri sistemli təbliğat kampaniyaları bəzi hallarda Xocalı soyqırımına münasibətdə qərəzli yanaşma ilə müşayiət olunsa da, Azərbaycan dövlətinin Xocalı soyqırımına diqqəti və bu istiqamətdə davamlı və sistematik fəaliyyəti faciəyə beynəlxalq aləmdə münasibətin dəyişməsinə gətirib çıxardı.

Siyasi aspekt

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışından sonra Xocalıda ermənilərin törətdiyi vəhşiliyə mahiyyətinə görə qiymət verilmiş, 1994-cü ilin fevralında Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri təhlil edərək, ermənilərin törətdikləri əməllərin azərbaycanlılara qarşı soyqırım olduğunu beynəlxalq hüquq məsuliyyəti baxımından təsbit etmiş, 26 fevral tarixinin "Xocalı Soyqırımı Günü" kimi qeyd olunması haqqında qərar qəbul etmişdir. Məhz Heydər Əliyevin hakimiyyəti illərində Xocalı soyqırımının dünyaya bəyan edilməsi sahəsində olduqca əhəmiyyətli işlərin görülməsinə başlanmış, bu istiqamətdə mühüm sənədlər qəbul olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti illərində Xocalı soyqırımının beynəlxalq səviyyədə tanınması istiqamətində ardıcıl fəaliyyət davam etdirilmişdir.

Azərbaycan dövlətinin Xocalı soyqırımının dünyada tanıdılması məqsədi ilə gördüyü işlərin strateji əsasını Prezident İlham Əliyevin Xocalı soyqırımının mahiyyəti və onu törədən cinayətkarların mütləq mənada cəzalandırılmasının labüdlüyü və bütövlükdə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin məqsəd və hədəfləri barədə fikirləri təşkil edir: "Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir. Biz bundan sonra da çalışacağıq ki, bütün dünya Xocalı haqqında bilsin. Bizim indi imkanlarımız da artır, o cümlədən təbliğat imkanlarımız genişlənir. Biz istənilən ölkədə diaspor təşkilatlarımızın xətti ilə, dövlət xətti ilə istənilən tədbiri, konfransı keçirə bilərik. Bunu edirik və bu həqiqətləri bütün dünyaya çatdırırıq. Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər. O gün gələcəkdir".

Azərbaycan Respublikasının parlamenti də bu sahədə mühüm addımlar atmışdır. Bütövlükdə, Azərbaycan parlamenti Xocalı soyqırımı ilə bağlı bir sıra vacib sənədlər qəbul etmişdir. Milli Məclisin

Sədri Oqtay Əsədovun təklifi əsasında Xocalı soyqırımı ilə bağlı materialların toplanılması, öyrənilməsi, ümumiləşdirilməsi və yayılması məqsədi ilə Azərbaycan Respublikası Milli Məclisinin 27 fevral 2007-ci il tarixli "Xocalı soyqırımının 15 illiyi ilə əlaqədar" Qərarı ilə Azərbaycan Respublikasının Milli Məclisi yanında İnformasiya Tədqiqat Mərkəzi yaradılmışdır.

Bu prosesdə Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və digər təşkilatların, ölkənin qeyri-rəsmi orqanlarının, ictimai təşkilatların, cəmiyyətlərin və kütləvi informasiya vasitələrinin fəal iştirakı olmuşdur və bu proses fasiləsiz davam etməkdədir.

Təbliğat

2008-ci ildən etibarən Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktının və Xocalı həqiqətlərinin dünya dövlətlərində tanıdılması, cinayətkarların beynəlxalq ifşasına nail olunması məqsədi ilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüskarı və rəhbəri olduğu "Xocalıya ədalət!" adlı beynəlxalq kampaniyanın fəaliyyətə başlaması bu tədbirlərin vahid konsepsiyaya müvafiq, sistemli həyata keçirilməsi baxımından daha məqsədəuyğun addım oldu. Buna sübut kimi kampaniyanın artıq İslam Əməkdaşlıq Təşkilatının (İƏT) 35-dən çox ölkəsini, o cümlədən Avropa və Latın Amerikası ölkələrini də əhatə etdiyini qeyd etmək olar. Bu kampaniya çərçivəsində görülən işlərin nəticəsi kimi, Xocalı soyqırımının adı dünyada tanınmış digər soyqırım cinayətləri ilə birgə beynəlxalq tribunalardan mütəmadi səslənir.

İƏT-in demək olar ki, Xocalı soyqırımına dair qəbul etdiyi bütün sənədlər məhz "Xocalıya ədalət!" kampaniyasının adı ilə bağlıdır. Bu kampaniya başlandığı gündən yalnız Xocalı soyqırımının ildönümü ərəfəsində deyil, ilboyu təbliğat xarakterli mühüm tədbirlərə imza atmışdır.

Bu kimi tədbirlər hazırda da davam etməkdədir və müsbət nəticələr göz qabağındadır - artıq dünyanın 10-dan artıq ölkəsi, ABŞ-ın 20-dən çox ştatı Xocalı soyqırımını tanıyıb.

Hüquqi aspekt

Soyqırım cinayətinin siyasi-təbliği aspektlərindən başqa onun hüquqi tərəfi də çox önəmlidir. Bu cinayəti törədənlərin beynəlxalq hüquqla təsbit olunan cəzanı alması bir tərəfdən ədalətin bərpasına xidmət edirsə, digər tərəfdən analoji cinayətlərin təkrarlanmasının qarşısını almağa yönəlmiş effektli presedent rolunu oynaya bilər.

Xocalı soyqırımı nəticəsində BMT-nin Baş Məclisinin İnsan Hüquqlarının Ümumi Bəyannaməsinin aşağıdakı maddələri pozulmuşdur:

- **Maddə 2.** Hər bir şəxs dilindən, dinindən, milliyyətindən

və digər səbəbdən fərq qoyulmadan bu bəyannamədə təsbit olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır.

- **Maddə 3.** Hər kəsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ var.
- **Maddə 5.** İnsan ləyaqətini alçaldan, insaniyyətlikdən kənar və qəddar hərəkətlər qadağandır.
- **Maddə 9.** Özbaşına həbslər, saxlanılmalar və ya qovulmalar qadağandır.
- **Maddə 17:** Hər bir insanın əmlaka malik olma hüququ vardır və insanın əmlakdan özbaşına məhrum edilməsi qadağandır.

Xocalı hadisələrinin soyqırım cinayəti kimi tanınmasının hüquqi əsasları:

1. BMT Baş Assambleyası tərəfindən 260 A (III) saylı qətnamə ilə qəbul edilmiş 9 dekabr 1948-ci il tarixli "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalar" Konvensiyası.
2. Nürnberq Beynəlxalq Hərbi Tribunalının Nizamnaməsi (hərçənd nizamnamədə soyqırım cinayətinə birbaşa isnad edilməsə də, soyqırımı təşkil edən hərəkətlər onda bəşəriyyətə qarşı cinayətlər və hərbi cinayətlər kimi tövsif olunur).
3. Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (maddə 4).
4. Ruanda üzrə Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (maddə 1).
5. Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu (maddə 6).
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (maddə 103).
7. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı.

Xocalı hadisələrinin soyqırım kimi tanınmasının hüquqi nəticələri:

Beynəlxalq hüquq soyqırım cinayəti ilə bağlı bunları müəyyən etmişdir:

1. Soyqırım cinayəti törətmiş şəxslərin cinayət təqibi və cəzalandırılması qaçılmazdır.
2. Cinayət tərkibi təkcə soyqırım aktının törədilməsi deyil, həm də soyqırım törədilməsi məqsədi ilə sui-qəsd, soyqırım törədilməsinə birbaşa və açıq şəkildə təhrikçilik, soyqırım törədilməsinə qəsd və soyqırımda iştirakdır.
3. Soyqırım törətmiş şəxslərə universal yurisdiksiyanın prinsipləri tətbiq edilməlidir.
4. Soyqırım cinayəti törədilərkən əmrin icrasına istinad etmək məsuliyyətdən azad etmir.
5. Rəhbərlər soyqırım cinayətinin qarşısının alınması üzrə hərəkətləri həyata keçirmədiklərinə görə məsuliyyət daşıyırlar.
6. Cinayət məsuliyyətinin tətbiqinə cəlbetmə müddəti soyqırım cinayətlərinə tətbiq edilmir.
7. Soyqırım cinayətinə münasibətdə qanunun retroaktiv tətbiqinə yol verilir.
8. Soyqırım cinayəti törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb edilmələri üçün tələb edən ölkəyə verilməlidirlər.

Azərbaycan Respublikasının hüquq mühafizə orqanları tərəfindən beynəlxalq hüquq normalarına uyğun soyqırım, deportasiya, işğəncə və digər epizodlar üzrə hərtərəfli istintaq hərəkətləri aparılmış, nəticədə 1 yanvar 2011-ci il tarixədək sülh və insanlıq əleyhinə müharibə cinayətləri törətmiş 239 nəfər, habelə ümumi cinayətlər kateqoriyasına aid banditizm, qəsdən adamöldürmə və digər cinayətlər törətmiş 48 nəfər - cəmi 287 nəfər barəsində təqsirləndirilən şəxs qismində cəlbetmə qərarları çıxarılmışdır. Məhkəmə qərarlarına əsasən, onların barələrində həbs qətimkan tədbiri seçilmiş, axtarışları elan edilmiş, bununla bağlı müvafiq sənədlərin aidiyyəti orqanlara göndərilməsi təmin olunmuşdur.

Praktiki fəaliyyət

Soyqırımın tanınması qısa müddət ərzində mümkün deyildir. Hər şeydən əvvəl soyqırımın beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilməsi üçün ölkə daxilində və beynəlxalq hüquqda mövcud olan sənədləri toplamaq, sistemləşdirmək, ilk mərhələdə məsələyə müttəfiq dövlətlərin parlamentlərində

hüquqi-siyasi qiymətin verilməsinə nail olmaq, mütəmadi olaraq beynəlxalq təşkilatlarda soyqırım cinayəti ilə bağlı məsələləri gündəmə gətirmək, təbliğat prosesində ardıcıllığa və qərarlılığa riayət etmək zəruridir.

Soyqırım cinayəti üçün xarakterik məsələlərdən biri onun tanınması ilə bağlı beynəlxalq praktikada mövcud olan problemlərdir. Çünki heç bir dövlət özü tərəfindən və ya özündən əvvəlki nəsillərin törətdiyi cinayəti asanlıqla etiraf etmək istəmir. Soyqırım əməlinin tanınmasının dövlətin beynəlxalq aləmdəki nüfuzundan, tanıdılmanın həyata keçirilmə səviyyəsindən, digər dövlətlərdəki lobbiçilik siyasətinin effektivlik səviyyəsindən, həmçinin əsasən kiçik dövlətlər üçün müəyyən böyük dövlətin himayəsində olmasından asılılığı inkaredilməzdir. Bu baxımdan bu ciddi beynəlxalq cinayətin tanınması bir çox hallarda tarixi motivlərdən çox müasir siyasi ambisiyalardan asılı olur.

Xocalı soyqırımı baş verdiyi zaman Ermənistan soyqırım konvensiyasına üzv deyildi, yəni ilk baxışdan belə anlaşıla bilər ki, onun beynəlxalq hüquqa əsasən soyqırım törətməmək öhdəliyi yoxdur. Yuqoslaviya da məhkəmə qarşısında məhz bu amilə əsaslanaraq, etiraz edirdi. Lakin məhkəmə həmin etirazı rədd edərək bildirdi ki, soyqırım konvensiyasında nəzərdə tutulmuş müddəalar bütün müasir cəmiyyətlər tərəfindən tanınmışdır və bu müddəalar dövlətlər üçün "erga omnes" dəyərinə malikdir, yəni dövlətlər heç bir hüquqi öhdəlikləri olmadığı halda belə soyqırım törətməkdən boyun qaçırmalıdırlar. Başqa bir tərəfdən isə soyqırımın rədd edilməsi prinsipi bəşəri bir dəyərdir, o beynəlxalq hüququn ən ali prinsiplərindən olub, "jus cogens" (yəni bütün dövlətlər üçün məcburi olan) keyfiyyətinə malikdir.

Bundan əlavə, Beynəlxalq Ədalət Məhkəməsi qeyd edir ki, soyqırım cinayəti müəyyən bir qrupun məhv edilməsinə aid olduğu üçün "qrup" anlayışının hüquqi tərifini dəqiqləşdirmək vacibdir. Yəni soyqırım konvensiyasının 2-ci maddəsində nəzərdə tutulan qrup üzvlərinin öldürülməsinin hansı formalarının soyqırım cinayətinə uyğun olmasını müəyyən etmək lazımdır. Bunun üçün Beynəlxalq Ədalət Məhkəmə-

JUSTICE FOR KHOJALY

www.justiceforkhojaly.org

si aşağıdakı şərtləri təyin edir: hədəfə alınan qrupun vacib bir hissəsi məhv edilsin, yəni qrupun məhv edilən hissəsi o qədər vacib olmalıdır ki, bu hal həmin qrupun varlığına ciddi təhlükə yaratsın. Beləliklə, Xocalıda yaşayan əhalinin vacib bir hissəsinin məhv edilməsini nəzərə alaraq, bu birinci şərtin Xocalıya uyğun olmasını iddia etmək mümkündür. Başqa bir şərt kütləvi qırğının müəyyən bir coğrafi əraziyə aid olmasıdır, yəni hədəfə alınan qrupa aid olan insanların bütün dünyada məhv edilməsi vacib deyil. Müəyyən bir ərazidə həmin qrup üzvlərinin kütləvi öldürülməsi soyqırım cinayətinə uyğun gəlir. Bu şərti Xocalıda törədilən qırğınla müqayisə edəndə məlum olur ki, Beynəlxalq Ədalət Məhkəməsinin tələb etdiyi kimi, Xocalı soyqırımı müəyyən bir ərazidə baş vermişdir, yəni giriş-çıxışı məhdudlaşdırılmış Xocalı şəhərində. Bundan əlavə, soyqırım törədənin imkanlarını da nəzərə almaq lazımdır, çünki erməni silahlı qüvvələri niyyətlərini həyata keçirmək üçün bütün imkanlara malik idilər, yəni köməksiz və xilas olmağa imkanı olmayan insanlar hərbçilər tərəfindən odlu silahlarla kütləvi şəkildə qətlə yetirilmişdilər.

Beləliklə, bu nəticəyə gəlmək mümkündür ki, Xocalı qətliamına "soyqırım" ifadəsini qeyd-şərtsiz aid etmək olar. Belə ki, həmin qətliam, birincisi, Ermənistan dövlətinin əvvəlcədən düşünülmüş siyasəti nəticəsində baş vermişdir. Burada hərəkətin mənfi nəticələri ilə bağlı cinayətkar qərəzin və ya konkret niyyətin xüsusi istiqamətini üzə çıxarmaq tələb olunur. Xilas olmağa can atan azərbaycanlı mülki əhalinin əvvəlcədən xüsusi olaraq hazırlanmış pusqu yerlərindən avtomatlardan, pulemyotlardan və digər silah növlərindən atəşə tutulması soyqırım niyyətini sübut edir. Bu cinayətin məhz azərbaycanlı milli qrupuna qarşı yönəlmiş olduğu göz önündədir. İkincisi, oradakı insanlar azərbaycanlı olduqları üçün öldürülmüşdür. Bu sonuncu amil həmin qətliamın baş verməsində ayrıseçkiliyin olmasını üzə çıxarır və beynəlxalq hüquqda qadağan edilmiş aparteid, irqçilik, ksenofobiya və digər bu kimi cinayətlərə uyğun gəlir. Həmin cinayətləri qadağan edən beynəlxalq sənədlər Ermənistan Respublikasının məsuliyyətə cəlb olunmasına əsas verir. Bundan əlavə, işğal olunmuş ərazilərdə tarixi maddi-mədəniyyət abidələrinin də məhv edilməsini və terrora məruz qalmasını nəzərə alaraq Azərbaycan Ermənistana qarşı həm maddi, həm də mənəvi soyqırım iddiaları irəli sürməlidir.

Soyqırım törətmiş şəxslərin beynəlxalq məsuliyyəti

Soyqırım cinayəti baş vermişsə, onun məsuliyyəti eyni zamanda həm dövlətə, həm də həmin cinayətin baş verməsində bilavasitə iştirak etmiş şəxslərə aid edilir. Bunun üçün beynəlxalq hüquq tələb edir ki, hər bir dövlət öz daxili qanunvericiliyinə soyqırım cinayətində təqsirli bilinən şəxslərin məsuliyyətini təyin edən müddəalar daxil etsin. Bu vasitə ilə soyqırım cinayətini törədən şəxslərin məsuliyyətdən yayınmasının qarşısı alınmalıdır, çünki Nürnberq Tribunalının məşhur cümləsində də deyildiyi kimi: "Bir cinayəti qeyri-müəyyən orqanlar yox, müəyyən şəxslər törədirlər". Bu cür yanaşma Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən də qəbul edilmişdir və o, beynəlxalq hüquqda ikili məsuliyyətin, yəni eyni zamanda dövlətin və şəxsin məsuliyyətinin mümkünlüyünü qəbul edir. Beləliklə, Xocalıdakı soyqırım cinayəti üçün yalnız Ermənistan Respublikası deyil, həm də onun baş verməsində fəal iştirak etmiş erməni məmurları da məsuliyyət daşıyırlar. Amma təəssüf ki, həmin şəxslər nəinki cəzasız qalıblar, hətta onların bir qismi bu gün Ermənistan Respublikasının hakimiyyət orqanlarında məsul vəzifələr daşıyırlar. Bunun üçün Azərbaycanın diaspor və ictimai təşkilatları dünya dövlətlərindən Xocalı soyqırımında iştirak etmiş şəxslərin ərazilərinə səyahət etdikləri zaman məsuliyyətə cəlb edilməsini tələb etməlidirlər. Bu praktika artıq bir neçə Avropa ölkəsində baş tutmuşdur. Misal üçün, Belçikada, İsveçrədə və Kanadada Ruanda soyqırımında təqsirli bilinən şəxslərə qarşı cinayət işi açılmış və onlar məhkəmə qarşısında cavab verməli olmuşlar.

Beləliklə, bütün sadalananlar Xocalı soyqırımının beynəlxalq cinayət olması, bu cinayəti törədənlərin beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməsi və bu cinayətin səbəb olduğu bütün mənfi nəticələrin aradan qaldırılması mütləqliyi qarşısında heç bir maneə yaratmır. Azərbaycan dövlətinin bu istiqamətdə apardığı uğurlu, sistemli və davamlı siyasət isə Xocalı soyqırımının təbliğatının daha geniş vüsət alması və bu cinayətin səbəbkarlarının layiqli şəkildə cəzalandırılması imkanını yaradır. Bu yolda əldə edilən uğurlar hər ötən zamanın qarşıdakı amala daha da yaxınlaşdırmasının sübutudur.

Musa Urud

BİR PARÇA VƏTƏN TORPAĞI

Bir parça vətən torpağı,
Nə ölməyə qoymur bizi,
Ölsək, yağıya qalacaq.
Nə bizsiz yaşamır,
Nə bizi qoymur yaşamağa.
Bir parça vətən torpagı,
Dizimizə çırpılmaqdan yumruğumuzu,
Kilidlənməkdən qırıb dişimizi.
Bir parça vətən torpağı,
İt yuvasına, yağı qapısına apardı bizi.
Adəmi, Hatəmi gördük.
Adəmi tamah aldadıb,
Adəm bizə inanmaz.
Hatəmi hamı aldadıb,
Hatəm bizə inanmaz.
BMT-ni, ATƏT-i gördük.
Adəmin xaç suyuna salınmış uşaqları,
Bizə inanmaz.
Ümidimiz bir özümüzə qalıb, bir də Tanrıya.
Özümüz özümüzə inanmasaq,
Tanrı bizə inanmaz! Tanrı bizə inanmaz!

ÖLDÜR, SÜLH NƏĞMƏSİ YAZA BİLMƏRƏM

Torpağı tar-mar olan şairin,
Yurdu əsirlikdə qalan şairin,
Haqqı yox danışsın yalan şairin,
Öldür, sülh nəğməsi yaza bilmərəm.

Şuşa əsirlikdə, Laçın tordadı,
Zəngəzur hardadı, Göyçə hardadı?!
Nə qədər torpağım torba-torbadı,
Öldür, sülh nəğməsi yaza bilmərəm.

Qarabağ olmasa, gün qara olar,
Beynimdə hər fikir min para olar.
Ürəyim sinəmdə qumbara olar,
Öldür, sülh nəğməsi yaza bilmərəm.

Yarama bir məlhəm san bayrağımı,
Bağla, qoy qızartsın qan bayrağımı.
Xankəndi öpməsə xan bayrağımı,
Öldür, sülh nəğməsi yaza bilmərəm.

ALLAH UMUDUNA YURDMU QOYARLAR?!

Olub bir fitnənin qulu gəlmişik,
Yaralı gəlmişik, ölü gəlmişik.
Allaha tapşırıb eli gəlmişik,
Allah umuduna yurdmu qoyarlar?!

Üstünü kim örtür boranda, qarda,
Üzündən kim öpür hər ilk baharda.
Biz düzdə qalmışıq, yurdumuz darda,
Allah umuduna yurdmu qoyarlar?!

Fələk atlı oldu, qaldıq piyada,
Getdi qapılarda abır-həya da.
Şorsatan dünyada, şorgöz dünyada,
Allah umuduna yurdmu qoyarlar?!

Allah xəmirini acıtsın sənin,
Allah səbrini qaçırsın sənin.
Allah çadırını uçurtsun sənin,
Allah umuduna yurdmu qoyarlar?!

DAĞLAR YIXILMASIN

Göyü durulmadı bu baharın da,
Yarı gülər gəldi, yarı zarınca.
Kafir atlarının dırnaqlarında,
Ölən torpaqları kim qaldıracaq?

Dağları qorusaydıq - torpaq qalardı,
Kökləri qorusaydıq - budaq qalardı.
Başları qorusaydıq - papaq qalardı,
Düşən papaqları kim qaldıracaq?

Günahsız ah çəkib, vay udanların
Qan yumur, heç su da yumaz qanların.
Qoltuq ağacında qayıdanların
Şəhid ayaqların kim qaldıracaq?

Xocalı xəcalət, gözdağı, şəhid,
Vətənin övladı, torpağı şəhid,
Allahı xəbərdar, tarixi şahid,
Enən bayraqları kim qaldıracaq?

Hamımız şəhid olaq, vətən şah olsun,
Başı uca olsun, qəddi şax olsun.
Çaylar quruyarsa, dağlar sağ olsun,
Dağlar yıxılmasın, kim qaldıracaq?

BİLMƏDİM

Vətən bölük-bölük, el para-para,
Qalsın belə ömrü, qalsın ağlara.
Üzüm Allahadı, yonüm dağlara,
Aşdığım təpədi, yaldı, bilmədim.

Dürat girə keçdi, Qırat əllərə,
Yurda talan düşdü, qarət ellərə.
Fələk əl uzatdı qara tellərə,
Daradı bilmədim, yoldu bilmədim.

Silindi cığır da, kəsildi yol da,
Yaş gözdə göynədi, bayatı dildə.
Kəkotu qayada, bənövşə kolda,
Saraldı bilmədim, soldu bilmədim.

Dağlar qəsrim idi, qayalar taxtım,
Qarışdım bulanıq sellərə, axdım.
Şeytan əl uzatdı, əlini sıxdım,
Mələk libasında gəldi, bilmədim.

Adımı üzümə rübənd eylədim,
Ömrümü arzuma kəmənd eylədim.
Haqq sözü cır işə peyvənd eylədim,
İçimdə bir şair öldü, bilmədim.



Millət vəkili, tanınmış şair Musa Urudun şeirlər kitabı ingilis dilində çap olunub. "Sevgiyə aparan yol" (The Way To Love) adlanan kitaba şairin son illər qələmə aldığı 33 şeiri daxil edilib. Şeirləri ingilis dilinə filologiya üzrə fəlsəfə doktoru Kamran Nəzirli çevirib. Tərcüməçi kitaba ön söz də yazıb. Ön sözdə Musa Urudun Azərbaycan poeziyasında yeri və rolu barədə əcnəbi oxuculara qısa məlumat verilir. Qeyd edilir ki, şairin şeirlərində əsas yeri həyat lövhələri və doğma yurdunun təbiət mənzərələri tutur. Ənənəvi şeirin forma və metodlarına sadiq qalan Musa Urudun poeziyası yeni cərəyan və dəblərdən uzaqdır və o, sırf milli şairdir.

AZƏRBAYCANIN iqtisadi qüdrəti artır

Ağalar Vəliyev

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini

Hazırda iqtisadi böhran və tənəzzül meyilləri bir çox ölkələrin real mənzərəsini təşkil edir. Qlobal miqyasda ciddi maliyyə problemlərinin mövcud olduğu şəraitdə uğurlu inkişaf strategiyasına malik ölkələrin tərəqqisi isə dinamik xarakter daşıyır. Bu baxımdan, Azərbaycanın müsbət təcrübəsi xüsusilə diqqəti cəlb edir. Reallıqdır ki, respublikamız nümunəvi inkişaf modeli yaradıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər nəticəsində Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib, ölkəmizin iqtisadi, siyasi, hərbi gücü artıb. Son 15 ildə bütün sahələrdə qazanılmış möhtəşəm uğurlar müstəqil dövlətimizin inkişaf yolunda inamla irəlilədiyini göstərir. Həyata keçirilən uğurlu iqtisadi siyasətin nəticəsi kimi, ötən illər ərzində ölkəmizin valyuta ehtiyatları artıb, müxtəlif sahələri əhatə edən layihələr uğurla reallaşdırılıb, islahatlar davam etdirilib. İqtisadiyyatın diversifikasiyasına nail olmaq üçün həyata keçirilən tədbirlər və əldə edilən nailiyyətlər yeni inkişaf perspektivlərinin meydana çıxmasını şərtləndirib. 2004-cü ildən etibarən bütün dünya üzrə ÜDM istehsalının artımında rekord göstərici 3,3 dəfə olmaqla məhz Azərbaycanda qeydə alınıb. Bəhs edilən dövrdə respublikamıza 250 milyard dollar sərmayə yönəldilib,

ölkəmizin sənaye potensialı 2,6 dəfə, valyuta ehtiyatları 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Respublikamızın inkişaf göstəriciləri müxtəlif beynəlxalq reytinq institutları tərəfindən də yüksək qiymətləndirilir. Dünyada maliyyə-iqtisadi böhranın olduğu şəraitdə Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafının təmin edilməsi, nəzərdə tutulan bütün proqramların, o cümlədən infrastruktur layihələrinin müvəffəqiyyətlə icra olunması təqdirəlayiq hal kimi dəyərləndirilir. Hazırda Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, rəqabət qabiliyyətliliyin artırılması və bu sahəyə investisiya qoyuluşunun sürətləndirilməsi kimi sosial-iqtisadi inkişaf siyasətinin mühüm istiqamətlərində səmərəli tədbirlər reallaşdırılır. Bütün bunlar isə Azərbaycanın iqtisadi inkişafını daha da sürətləndirir.

Respublikamızın sürətli inkişafı, ortaya qoyduğu iqtisadi tərəqqi modelinin cəlbediciliyi beynəlxalq səviyyədə ölkəmizə olan diqqət və marağın artmasına səbəb olub. Bu gün Azərbaycanın müsbət reallıqları dünyanın ən mötəbər tribunalarından beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır və yüksək qiymətləndirilir. Bu baxımdan, cari ilin yanvar ayında Davosda keçirilmiş Dünya İqtisadi Forumunda ölkəmizin uğurla təmsil olunmasını xüsusi vurğulamaq lazımdır. Bildiyimiz kimi, hər il dünyanın 70-dən çox dövlət və hökumət başçısının, 150-dən artıq dövlətin nümayəndəsinin, 1000-dən çox dünya əhəmiyyətli şirkətin, 3000-dən artıq insanın iştirak etdiyi Davos Forumu qlobal miqyasda dünyanın gələcək inkişafını müəyyənləşdirən istiqamətlər üzrə müzakirələrin təşkil edildiyi ən böyük platformadır. Bu platformanın imkanlarından səmərəli istifadə etmək ölkəmiz üçün mühüm əhəmiyyətə malikdir. Prezident İlham Əliyev Davos İqtisadi Forumunun illik toplantısı çərçivəsində keçirdiyi məhsuldar görüşlərdə, KİV-ə verdiyi müsahibələrdə Azərbaycanın müsbət reallıqlarını dolğun şəkildə təqdim etdi. Dövlət başçısı Davosda Çinin "CGTN" (China Global Television Network – Çin Qlobal Televiziya Şəbəkəsi) televiziya kanalına müsahibəsində ölkəmizin sosial-iqtisadi inkişaf sahəsində qazandığı böyük uğurlardan, bu uğurları şərtləndirən amillərdən, eləcə də qarşıda duran vəzifələrdən ətraflı bəhs etdi. Bununla yanaşı, "Qloballaşma 4.0: 4-cü Sənaye İnqilabı dövründə yeni arxitekturanın yaradılması" devizi altında keçirilən, qloballaşan müasir dünyanın əsas problemlərinin müzakirə predmetinə çevrildiyi builki forum çərçivəsində Prezident İlham

Əliyevin Davosda transmilli şirkətlərin təsisçiləri və sədrləri ilə bir sıra mühüm görüşlər keçirməsi də Azərbaycanın əməkdaşlıq əlaqələrinin inkişafı baxımından böyük əhəmiyyətə malikdir. Şübhəsiz ki, bütün bunlar forum iştirakçılarında Azərbaycan iqtisadiyyatı və ölkəmizin iqtisadi siyasəti barədə real təsəvvür yaratmaqla əməkdaşlıq üçün yeni perspektivlərin açılacağından xəbər verir. Bir sözlə, Prezident İlham Əliyevin bir çox görüşlər keçirməsi dünyanın ölkəmizə olan diqqətinin göstəricisidir və yeni tərəfdaşlıqların əsasının qoyulmasına zəmin yaradır.

Davos Forumunda diqqət mərkəzində olan məsələlərdən biri Azərbaycanın təşəbbüsü və liderliyi ilə nəhəng enerji-nəqliyyat layihələrinin reallaşdırılması, ölkəmizin Avrasiyanın nəqliyyat mərkəzinə çevrilməsi idi. Dövlətimizin başçısı yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda keçirilən sessiyada regional və qlobal xarakterli məsələlərə diqqət yetirdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin hər ikisinin üzvü olan yeganə ölkədir. Dövlət başçısı vurğuladı ki, dəmir yolu sistemlərimizin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Avropa və Asiya arasında çatışmayan bağlantının yaradılması ilə bizi Türkiyə və Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun inşası yollarımızdan istifadə etmək istəyənlərə yaxşı şərait yaradır.

Əlbəttə, Azərbaycanın tranzit imkanlarının dünyanın diqqət mərkəzində olması təsadüfi xarakter daşımır. Azərbaycanın təşəbbüsü və maliyyə vəsaitləri hesabına Şərq-Qərb Nəqliyyat Dəhlizi üzərində yerləşən Ələt qəsəbəsində Xəzər dənizinin ən böyük limanının tikintisi reallaşdırılıb, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası baş tutub, bunlarla yanaşı, Şimal-Cənub Nəqliyyat Dəhlizi üzərində təkmil infrastruktur yaradılıb. Ən əsası, bütün bunlar nəqliyyat-logistika sahəsində regional və qlobal əməkdaşlığın dərinləşməsini şərtləndirməklə yanaşı, Azərbaycana mühüm siyasi və iqtisadi dividendlər gətirir.

Prezident İlham Əliyev "Real" televiziyasının rəhbəri Mirşahin Ağayevlə geniş müsahibəsində vurğulayıb ki, bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilib: "Yəni nəqliyyat mərkəzlərindən birinə yox, məhz nəqliyyat mərkəzinə çevrilib. Çünki Şimal-Cənub və Şərq-Qərb dəhlizləri ölkəmizin ərazisindən keçir. Biz bu coğrafi vəziyyətdən çox səmərəli istifadə etdik, güclü infrastruktur yaratdıq. Bu gün Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərində 10-dan çox ölkə əməkdaşlıq edir. Yalnız bir ölkə hər iki layihədə iştirak edir ki, o da Azərbaycandır".

Respublikamızın inkişaf modelinin mühüm xüsusiyyətlərindən biri müxtəlif sahələri əhatə edən islahatların davamlı olaraq həyata keçirilməsidir. Prezident İlham Əliyevin ölkədə biznes mühitinin optimallaşdırılması, bank-maliyyə sektorunda inklüzivliyin daha da artı-



11	United Arab Emirates	81.28	+2.37
12	Sweden	81.27	0.00
13	Taiwan, China	80.90	+0.24
14	Lithuania	80.83	+0.29
15	Malaysia	80.60	+2.57
16	Estonia	80.50	+0.01
17	Finland	80.35	+0.05
18	Australia	80.13	-0.01
19	Latvia	79.59	+0.33
20	Mauritius	79.58	+1.29
21	Iceland	79.35	+0.05
22	Canada	79.26	+0.38
23	Ireland	78.91	-0.51
24	Germany	78.90	0.00
25	Azerbaijan	78.64	+7.10
26	Austria	78.57	+0.03
27	Thailand	78.45	+1.06
28	Kazakhstan	77.89	+0.73
29	Rwanda	77.88	+4.15
30	Spain	77.68	+0.07
31	Russian Federation	77.37	+0.61
32	France	77.29	+0.99
33	Poland	76.95	-0.36
34	Portugal	76.55	-0.07
35	Czech Republic	76.10	+0.05
36	Netherlands	76.04	+0.01

rılması, daxili istehsalın qorunması, sahibkarların vergi yükünün azaldılması yolu ilə vergi bazasının genişləndirilməsi, gömrük nəzarətinin sadələşdirilməsi və şəffaflığın təmin olunması, istehsal imkanlarının genişləndirilməsi, investisiya qoyuluşunun, ixracın təşviq edilməsi, "Made in Azerbaijan" brendinin yaradılması və sosial sfera da daxil olmaqla digər sahələri əhatə edən fərman və sərəncamlar imzalaması bu baxımdan böyük əhəmiyyətə malikdir. Digər tərəfdən, ölkə başçısının müvafiq fərmanına əsasən milli iqtisadiyyat perspektivi və onun 11 əsas sektoru üzrə strateji yol xəritələri təsdiqlənib. Təsadüfi deyil ki, nüfuzlu beynəlxalq reytinq agentlikləri də ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətində əldə etdiyi uğurları yüksək qiymətləndirirlər. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, 10 ən islahatçı dövlət siyahısına daxil edilib. Bundan başqa, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı da Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı nailiyyətləri əks etdirir. Ötən il tamamilə yeni metodologiya əsasında ictimaiyyətə təqdim edilmiş hesabatın 12 əsas sütun indikatorundan 7-si üzrə ölkəmizin mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb, eyni zamanda, Azərbaycan Qlobal Rəqabətlilik Hesabatında dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi vurğulanıb. "Standard & Poor's" reytinq agentliyinin hesabatında isə Azərbaycan iqtisadiyyatının 2018-ci ildən 2021-ci ilə qədər olan dövr ərzində orta hesabla 3% artacağına dair proqnoz ifadə olunub. "Moody's" beynəlxalq reytinq agentliyi də 2019-cu ildə Azərbaycanda iqtisadi artım templərinin sürətlənəcəyini proqnozlaşdırıb.

Heç şübhəsiz, Azərbaycanın dinamik inkişafı, iqtisadi və sosial sferada əsaslı dəyişikliklərin həyata keçirilməsi, cəmiyyət həyatının bütün sahələrində müşahidə olunan yenilənmə dövlət idarəçilik sisteminin təkmilləşdirilməsini, səmərəliliyin yüksəldilməsini, yığcam, çevik və məqsədyönlü fəaliyyət göstərən yeni idarəetmə strukturunun formalaşdırılmasını zərurətə çevirib. Bu mənada, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin istər 14 yanvar 2019-cu il tarixində, istərsə də ondan sonrakı günlərdə struktur islahatları ilə bağlı imzaladığı müvafiq fərmanlar xüsusi əhəmiyyətə malikdir. Struktur islahatları birmənalı olaraq idarəetmənin optimallaşdırılmasına və səmərəliliyinin artırılmasına xidmət edir. Buna paralel olaraq Azərbaycanda 2019-cu ilin əvvəlindən isə islahatların yeni mərhələsi başlayıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu islahatlar iqtisadi və sosial əhəmiyyətə malikdir, konkret hədəflərə istiqamətlənib və Azərbaycanın iqtisadi qüdrətinin daha da artmasına xidmət edir. Dövlət başçısı vurğulayıb ki, 2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır.

Azərbaycan bu gün dünyada güclü dövlət və etibarlı tərəfdaş kimi tanınır

Müsahibimiz Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyevadır.

- Sevinc xanım, Azərbaycanın beynəlxalq nüfuzu davamlı olaraq artır, respublikamız xarici siyasətdə mühüm uğurlar qazanır. Yola saldığımız 2018-ci ildə də ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmlənib. Bütövlükdə, ötən ilin yekunları fonunda xarici siyasət sahəsində qazanılan nailiyyətlər və perspektivlərlə bağlı nə deyə bilərsiniz?

- Ümumiyyətlə, bir ölkənin daxili və xarici siyasətindəki uğuru məhz həmin ölkənin ali dövlət xadiminin fəaliyyəti ilə bağlıdır. Aristotel yazırdı ki, siyasi liderliyin ilkin şərti dövlətin gələcəyini öncədən görmək və gördüyünü həyata keçirə bilməkdir. Bu prizmadan baxılarkən, Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətini qurmuş və onun bütün istiqamətlərdə inkişaf strategiyasını müəyyən etmişdir.

Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyevin strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək Azərbaycan dövlətçiliyinin məqsədyönlü şəkildə inkişafı və inamlı gələcəyi təmin olunmuşdur. Bu kurs fonunda bir çox sahələrdə olduğu kimi, xarici siyasətin prioritetləri tamamilə nəzərə alınmış, meydana çıxan geosiyasi yeniliklər diqqətə alınaraq təkmilləşdirilmişdir və beləliklə, Azərbaycan keçən müddətdə dövlət və milli maraqlarını təmin edə bilmişdir.

Regionun lider dövləti olan Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla hərtərəfli münasibətlərin inkişaf etdirilməsinə də xüsusi önəm verir. Qeyd edim ki, ötən 27 il ərzində müstəqil Azərbaycan özünün prinsiplərinə əsaslanaraq, qonşu dövlətlərlə dostluq münasibətlərini qoruyur və onlara qarşı bitərəf siyasətini saxlayır. 2019-2022-ci illərdə respublikamız 120 ölkəni öz ətrafında birləşdirən Qoşulmama Hərəkatına sədrlik edəcəkdir. Bu il Bakı şəhərində Qoşulmama Hərəkatının zirvə görüşü keçiriləcəkdir. Təbii ki, baş tutacaq bu tarixi hadisə Azərbaycanın növbəti diplomatik uğuru kimi qiymətləndirilməlidir.

Konkret olaraq, 2018-ci ilə gəlincə, təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş çoxvektorlu xarici siyasət strategiyası ötən il də Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilmiş və səmərəliliyini bir daha nümayiş etdirmişdir. Bildiyiniz kimi, ötən il Azərbaycan bir neçə güc mərkəzi ilə səmərəli dialoq yaratdı. Ölkəmizin Prezidenti rusiyalı həmkarı ilə altı dəfə görüşmüş, Bakı ilə Brüssel arasında dialoqun əsas istiqamətlərini müəyyən edən sənəd imzalanmış, keçən il İran, İtaliya prezidentləri, Almaniyanın federal kansleri, İsrailin müdafiə naziri Azərbaycanı ziyarət etmişdir. Qardaş Türkiyə ilə dialoq və əməkdaşlığımız hər zaman olduğu kimi xüsusi önəm daşıyır. 2018-ci ildə İlham Əliyev iki dəfə qardaş ölkəyə səfər etdi, Prezident Rəcəb Tayyib Ərdoğan da Azər-

baycana gəldi. Biz Qoşulmama Hərəkatının sədri seçildik, Azərbaycan dövləti ilə türk dövlətləri arasında əməkdaşlıq formatı möhkəmləndi.

- Azərbaycan bır sıra qlobal layihələrin müəllifi kimi də dünyanın diqqət mərkəzindədir. Bu barədə nə deyə bilərsiniz?

- Xarici siyasətimizin digər prioritet istiqaməti olan beynəlxalq iqtisadi münasibətlərdə Prezident İlham Əliyev tərəfindən davamlı müstəqil və stabil siyasət yürüdülməsi nəticəsində, xüsusilə enerji resurslarının dünya bazarına çıxarılmasına, həm enerji resurslarının nəqli üzrə geostrateji əhəmiyyətə malik dəhliz, həm də Avropa ölkələrinin enerji təminatında Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul edilir. Bu gün bir çox Avropa rəsmiləri Avropa enerji təhlükəsizliyinin təmin olunması və enerji resurslarının şaxələndirilməsində Azərbaycanı vacib ölkə hesab edirlər.

Bildiyiniz kimi, beynəlxalq körpü rolu oynayan ölkəmiz üçün digər mühüm prioritet nəqliyyatdır. Avropa ilə Asiya arasında yerləşən Azərbaycan Avrasiyada aparıcı nəqliyyat qovşaqlarından birinə çevrilmək istiqamətində öz coğrafi mövqeyindən müdrikcəsinə istifadə edir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiyanı və Avropanı birləşdirəcək yeganə qısa, alternativ nəqliyyat marşrutu olmaqla yanaşı, Prezidentimizin də dediyi kimi: "İqtisadi və siyasi əhəmiyyətinə görə Afrika ilə Asiyanı birləşdirən Süveyş kanalı kimi titanik layihələrlə müqayisə oluna bilər". Avropa İttifaqı, ABŞ və Mərkəzi Asiya dövlətləri tərəfindən dəstəklənən bu layihənin reallığa çevrilməsi məhz Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi və böyük əməyi sayəsində mümkün olmuşdur. Bu əməyin nəticəsidir ki, Azərbaycan beynəlxalq səviyyəli tranzit və logistika mərkəzinə çevrilmişdir.

Xəzəryanı ölkələrin Astanada keçirilmiş sammiti zamanı Xəzərin hüquqi statusu ilə əlaqədar sənədin imzalanması ölkəmizin dünyada regional və beynəlxalq səviyyədə ticarət əlaqələrinin inkişaf etdirilməsinə zəmin yaratmış, respublikamızın qitələr və sivilizasiyalar arasındakı əhəmiyyətini daha da möhkəmləndirmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev sənədin siyasi və iqtisadi əhəmiyyətinə toxunaraq Xəzər dənizini əməkdaşlıq, sülh və dostluq dənizi adlandırmışdır.

- Azərbaycan həmçinin mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu amil ölkəmizin beynəlxalq nüfuzunun artmasına nə dərəcədə təsir göstərir?

- Təqdirəlayiq haldır ki, ölkəmizin regional və beynəlxalq əməkdaşlıq məsələlərində bir çox hallarda təşəbbüskar kimi çıxış etməsi Prezident İlham Əliyevin reallaşdırdığı vahid xarici siyasət kursunun tərkib hissələridir. Yəni hər bir təşəbbüs xarici siyasətimizin prioritet vəzifəsinə xidmət etməsi məqsədi ilə irəli sürülür. Dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində nümunəvi ölkəyə çevrilmiş Azərbaycan multikulturalizmin inkişaf etdirilməsinə, bu istiqamətdə əməkdaşlığın gücləndirilməsinə yönəlmiş çox sayda mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Ölkəmizdə multikulturalizm və islam həmrəyliyi illərinin elan edilməsini, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu, Dünya Dini Liderlər Forumunu, dörd dəfə keçirilmiş Mədəniyyətlərarası Dialoq və altı dəfə keçirilmiş Bakı Beynəlxalq Humanitar forumlarını və digər mühüm tədbirləri bunlara misal göstərmək olar. İki il ərzində Bakıda həm Avropa, həm də İslam oyunlarının keçirilməsi Azərbaycanın millətlərarası, dinlərarası multikulturalizmə verdiyi töhfənin növbəti təzahürü olmuşdur. İdman bir tərəfdən ölkə gənclərinin sağlam mənəvi-psixoloji və vətənpərvər ruhda yetişdirilməsi

istiqamətində vacib rol oynamaqla yanaşı, həm də Prezident İlham Əliyevin qeyd etdiyi kimi, insanları və xalqları birləşdirən mühüm amildir. Bu səbəbdəndir ki, Azərbaycanı regionda sabitləşdirici qüvvə kimi qəbul edirlər.

Əgər Davosda daha çox iqtisadi, Münhendə təhlükəsizlik məsələləri müzakirə olunursa, Qlobal Bakı Forumunda və digər mühüm tədbirlərdə daha çox siyasi və eyni zamanda, bütün digər məsələlər müzakirə edilir. Eynilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin, maddi və qeyri-maddi irsinin qorunması, dünyada tanıdılması və qəbul edilməsi istiqamətində həyata keçirdiyi ardı kəsilməyən nümunəvi fəaliyyəti bilinən bir həqiqətdir, ölkə mədəniyyətinin inkişafına verilən əvəzedilməz töhfədir. Məhz Heydər Əliyev Fondu tərəfindən keçirilən səmərəli işlər nəticəsində dünyanın bir çox ölkələri Azərbaycanın dahi şairləri, mütəfəkkirləri, eləcə də respublikamızın incəsənət nümunələri və ornamentləri ilə yaxından tanış olmuşlar. Bu gün Mehriban xanım Əliyeva tərəfindən həmin fenomenal fəaliyyət daha effektiv şəkildə davam etdirilir.

Azərbaycan YUNESKO ilə sıx əməkdaşlıq əlaqələri qurmuş və bu təşkilat çərçivəsində aktiv fəaliyyət göstərir. Məsələn, bunun bariz nümunəsi 2019-cu ilin 30 iyun-10 iyul tarixlərində YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü Sessiyasının Bakıda keçirilməsinə dair qəbul edilmiş qərardır.

- Məlum olduğu kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi Azərbaycanın xarici siyasət kursunun başlıca prioritetidir. Ölkəmizin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində münaqişənin həlli üçün yeni perspektivlər açılıb. Bu barədə fikirləriniz nədən ibarətdir?

- Doğrudur, bizim xarici siyasətimiz illər ərzində formalaşmış prioritetlərə əsaslanır. Dağlıq Qarabağ münaqişəsi isə Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik səyləri nəticəsində işğalçı Ermənistan dövləti küncə sıxışdırılmış halda qalmaqda davam edir. İndi bütün beynəlxalq təşkilatların sənədlərində Dağlıq Qarabağ Azərbaycanın ərazisi kimi göstərilir. Dünyanın nüfuzlu ekspertlərinin hesab etdiyi kimi, Ermənistanın mövqeyi xeyli zəifləmişdir. Hətta işğalçı dövlətə bir vaxtlar havadarlıq etmiş ölkələrin regional məsələlərdə məhz Azərbaycan Prezidenti ilə məsləhətləşməyə üstünlük vermələri və paralel olaraq Ermənistanı perspektivsiz ölkə hesab etmələri İrəvanın oyundan kənarda qalmasına və əsl təşvişə düşməsinə səbəb olmuşdur. 2016-cı ilin aprel ayında gedən döyüşlərdə verdikləri ağır itki Ermənistana böyük dərsdir. İndi işğalçı dövlət çox yaxşı dərk edir ki, Azərbaycana qarşı növbəti belə təxribat uğursuz nəticələnəcəkdir və bu, onların sonu ola bilər.

İrəvanın belə qorxu içində olması əslində başadüşüləndir. Çünki Azərbaycan Ordusu artıq peşəkar, nizamlı ordudur. O, döyüş meydanında sözünü deyə bilən və Ali Baş Komandanın bütün tapşırıqlarını layiqincə yerinə yetirməyə qadir ordudur.

Bilirsiniz ki, 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyi baş verdi. Bu ölkəni iyirmi ildən çox müddətə idarə edən cinayətkar Qarabağ klanı öz xalqı tərəfindən hakimiyyətdən qovuldu. Məhz həmin hakimiyyətin qeyri-konstruktiv mövqeyi Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müsbət irəliləyişin olmasına imkan vermirdi. İndi vəziyyət bir qədər fərqlidir. Bu gün biz yeni rəhbərliklə bu məsələlərin həlli istiqamətində addımlar atmalıyıq.

Lakin bu o demək deyil ki, yeni rəhbərlik ilə məsələnin həlli asanlaşacaq. Amma yeni hakimiyyətin əvvəlki hökumətin səhvlərindən nəticə çıxaracağını və işğal siyasətinə son qoyacağını gözləmək olar. Azərbaycan dəfələrlə konstruktiv və məhsuldar dialoqa hazır olduğunu bəyan edib. Lakin Ermənistan hər zaman mövcud status-kvo vəziyyətini saxlamaq kimi məqsədlər güdür və münaqişənin həllini bu gedişlə uzadır.

- Azərbaycanın aparıcı siyasi qüvvəsi və Cənubi Qafqazın ən böyük partiyası olan Yeni Azərbaycan Partiyasının da beynəlxalq əlaqələri yüksələn xətt üzrə inkişaf edir. Partiyanın beynəlxalq müstəvidə səmərəli fəaliyyətinin əhəmiyyəti ilə əlaqədar nə söyləmək olar?

- Əlbəttə ki, Yeni Azərbaycan Partiyası respublikamızda aparıcı siyasi partiyadır və xarici siyasətimizin strateji məqsədlərinin həyata keçirilməsi prosesində ciddi təşkilati potensiala malikdir. Ölkəmizin ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələri yüksələn xətlə inkişaf edir. Partiyanın beynəlxalq əməkdaşlığının coğrafiyası genişlənərək keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. YAP müasir qloballaşan dünyanın çağırışlarına çevik reaksiya verərək, əməkdaşlıq imkanlarından maksimum faydalanır və Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq istiqamətində geniş fəaliyyət göstərir.

Ümumiyyətlə, YAP-ın müxtəlif ölkələrin siyasi partiyaları və demokratik təsisatları ilə qurduğu işgüzar və səmimi münasibətlər ardıcıl olaraq inkişaf edir. Partiyanın beynəlxalq əlaqələrində dost və qardaş Türkiyənin, MDB üzvü olan ölkələrin, Avropa və Asiyanın bir sıra aparıcı siyasi partiyaları və qurumları ilə münasibətləri prioritet istiqamət kimi əsas götürülüb. Yeni Azərbaycan Partiyası Türkiyə, Rusiya, Rumıniya, Macarıstan, Ukrayna, Gürcüstan, Qazaxıstan, Serbiya, Çin, Yaponiya, Vyetnam və digər ölkələrin aparıcı siyasi partiyaları ilə uzun müddətdir sıx və qarşılıqlı münasibətlərə malikdir, partiyalar arasında intensiv görüşlər keçirilir, fikir və təcrübə mübadilələri aparılır.

Bununla yanaşı, YAP Avroatlantik məkanda siyasi təşkilatlarla əməkdaşlığını genişləndirib. Bu mənada, Avropa Parlamentində çoxluğa sahib olan Avropa Xalqları Partiyasının (EPP) bir qolunu təşkil edən Mərkəzçi Demokrat İnternasionalı ilə münasibətlər də inkişaf etməkdədir. YAP Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransı (İCAPP) çərçivəsində də aktiv fəaliyyət göstərir. Eyni zamanda, Latın Amerikası Siyasi Partiyalarının Təşkilatı (COPPAL) ilə də əməkdaşlığımız mövcuddur. Bir sözlə, Yeni Azərbaycan Partiyası sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki avanqard yerinə görə nəinki ölkə daxilində aparıcı, lider institutdur, eyni zamanda, geniş beynəlxalq əlaqələrə malik olan, beynəlxalq müstəvidə güclü və nüfuzlu siyasi qüvvə kimi tanınır.

Yeni Azərbaycan Partiyası 2018-ci ildə də xarici ölkələrin siyasi partiyaları, eləcə də beynəlxalq təşkilatlarla əlaqələrini genişləndirmiş, bu çərçivədə partiyanın nümayəndələri müxtəlif beynəlxalq konfrans və forumlarda iştirak etmiş, qarşılıqlı səfərlər və görüşlər keçirilmiş, əməkdaşlığın inkişaf etdirilməsinə dair qərarlar və sənədlər qəbul olunmuşdur. Beləliklə, ötən il ərzində Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində fəal iş aparılmış, yeni əməkdaşlıq əlaqələrinin yaradılmasına zəmin hazırlanmışdır.

YAQUB MAHMUDOV

80

Hörmətli Yaqub müəllim!

Sizi – Milli Məclisin deputatını, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvünü, Əməkdar elm xadimini, Dövlət mükafatı laureatını, Azərbaycanda tarix elminin tədqiqi və tədrisində böyük xidmətlərinə görə "Şöhrət" və "Şərəf" ordenlərinə layiq görülmüş alimi anadan olmağınızın 80 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Yaqub müəllim, Siz xalq arasında ömrünün yarım əsrdən çoxunu tarix elminin inkişafına həsr etmiş fədakar alim kimi tanınırsınız. 15 ildən bəri direktoru olduğunuz AMEA-nın Tarix İnstitutunda Sizin rəhbərliyiniz altında aparılan araşdırmalar və buraxılan yüzlərlə dəyərli kitab, İrəvan xanlığının, Qarabağın, Naxçıvanın tarixinə dair silsilə əsərlər azərbaycançılıq ideologiyasına sadiqliyin bariz sübutudur. Həmin əsərlər əcnəbi dillərə tərcümə edilərək Azərbaycan həqiqətlərini dünyaya yaymaqda ən etibarlı elmi-tarixi mənbələrə çevrilmiş, beynəlxalq aləmdə xalqımız və ölkəmiz barədə doğru-dürüst rəy formalaşmasında mühüm rol oynamışdır.

İlk gənclik illərində qədəm qoyduğunuz elm və təhsil yolunda atdığınız qətiyyətli addımlar Sizi bugünkü zirvələrə ucaldıb. Tarix elmi sahəsindəki xidmətləriniz əvəzsizdir. Vətənpərvər alim kimi hər zaman ölkəmizin təəssübünü çəkmiş, Azərbaycanın

məruz qaldığı haqsızlıq və ədalətsizliklərin tarixi faktlara istinadən dünya ictimaiyyətinə çatdırılmasına çalışmış, ictimai-siyasi proseslərin önündə getmişsiniz.

Azərbaycanın orta əsrlər və diplomatiya tarixinə dair sanballı tədqiqatlar, monoqrafiyalar, müasir dövr dövlətçilik tariximizin güzgüsünə çevrilən, Ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş "Azərbaycan dövlətinin xilaskarı", "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti", "İlham Əliyev və Azərbaycan tarix elmi" adlı kitablar, 1000-dən çox elmi əsər Sizi yalnız ölkəmizdə deyil, vətənimizin hüdudlarından kənarda da yaxşı tanıdıb. Dünyanın nüfuzlu elm mərkəzlərində keçirilən beynəlxalq konfrans və forumlarda Azərbaycanı ləyaqətlə təmsil edibsiniz. "Best Enterprises" diplomu, "The Name in Science" fəxri titulu, "Kraliça Viktoriya" diplomu və medalı elmi nailiyyətlərinizin etirafıdır.

Yaqub müəllim, milli ensiklopediyaların yaranmasındakı xidmətləriniz, Ali Attestasiya Komissiyası və Bakı Dövlət Universitetindəki elmi-pedaqoji fəaliyyətiniz də əmək salnamənizə yaddaqalan səhifələr yazıb.

Xalq arasında qazandığınız etimad dörd çağırış dalbadal Milli Məclisə deputat seçilməyinizə vəsilə olub. Hazırda parlamentin Əmək və sosial siyasət komitəsinin üzvü kimi qanun yaradıcılığına layiqli töhfə verir, Xorvatiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri, İspaniya, Macarıstan və Özbəkistanla analoji qrupların üzvü kimi beynəlxalq əlaqələrimizin genişlənməsində yaxından iştirak edirsiniz.

YAP Siyasi Şurasının üzvü olaraq ölkənin ictimai-siyasi həyatındakı iştirakınız da təqdirəlayiqdir. Əminəm ki, Azərbaycan elminin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi yolunda bundan sonra da akademik zəkanızın işığını əsirgəməyəcəksiniz.

Hörmətli Yaqub müəllim!

Sizi 80 illik yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, yaşınızın bu müdrik çağında Sizə möhkəm can sağlığı, ailənizdə xoşbəxtlik, elmi axtarışlarınızda yeni-yeni uğurlar arzulayıram.

Hörmətlə,

OQTAY ƏSƏDOV

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 10 fevral 2019-cu il

SİYAVUŞ NOVRUZOV

50

Hörmətli Siyavuş müəllim!

Sizi - Milli Məclisin deputatını, tanınmış ictimai-siyasi xadimi anadan olmağınızın 50 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, Sizə dəyərli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Siz Azərbaycanımızın dilbər guşəsi - Naxçıvanın Cəhri kəndində dünyaya göz açmış, burada orta təhsilinizi başa vurmusunuz. Doğma el-obanızda zəhmət adamı kimi ilk əmək fəaliyyətinə başlamış, Naxçıvan Təmir-Tikinti İdarəsində fəhlə, sovxozda idman təlimatçısı, "Əlincə" Xeyriyyə Cəmiyyətində şöbə rəisi, məsul katib kimi çalışmısınız. Gənc yaşlarınızdan xəyalınıza hakim kəsilmiş hüquqşünas olmaq arzusu ilə Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olunaraq, bu qocaman təhsil ocağını uğurla bitirmisiniz.

Sonralar dövlət idarəçiliyi sahəsində biliklərinizi daha da təkmilləşdirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsini müvəffəqiyyətlə bitirmisiniz.

Siz elm sahəsinə də daim böyük maraq göstərirsiniz. Hüquq elmləri üzrə fəlsəfə doktoru kimi siyasi proseslərlə bağlı monoqrafiyalarınız və digər əsərləriniz elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.

Siz ölkəmizin ağır günlərində, mənfur qonşularımızın torpaqlarımıza göz dikdiyi zamanda silahlanaraq müsəlləh bir əsgər kimi cəbhəyə yollanmış, düşmən qüvvələrə qarşı rəşadətlə vuruşmuş, Qarabağ müharibəsi veteranı kimi ordu sıralarından tərxis olunmusunuz.

İctimaiyyət Sizi dərin ideoloji biliklərə, güclü dövlətçilik məfkurəsinə malik bir siyasətçi kimi tanıyır. Ulu öndər Heydər Əliyevin şərəfli adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının yarandığı ilk günlərdən onun sıralarında olmusunuz. Fəaliyyətinizin böyük bir hissəsi bu siyasi ocaqla bağlıdır. 1994-cü ildən etibarən partiyanın Mərkəzi Aparatının İşlər müdiri, Təşkilat şöbəsinin müdiri vəzifələrində çalışmış, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri olmuş, hazırda partiyanın Siyasi Şurasının və İdarə Heyətinin üzvü, partiyanın icra katibinin müavinisiniz. Partiyanın ideoloji təşkilatlanmasında və inkişafında böyük zəhmətiniz vardır. Ölkənin ictimai-siyasi həyatında fəal iştirakınıza görə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmusunuz.

Heç də təsadüfi deyildir ki, bu kimi keyfiyyətləriniz sayəsində Siz seçicilərin böyük dəstəyini qazanaraq II, III, IV, V çağırış müstəqil Azərbaycan parlamentinə deputat seçilirsiniz. Uzun müddət Milli Məclisin İntizam komissiyasının sədri olmuş, bu gün Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri kimi ölkəmizdə həyata keçirilən islahatların hüquqi bazasının təkmilləşdirilməsində təqdirəlayiq fəaliyyət göstərirsiniz. Seçicilərinizlə mütəmadi olaraq görüşür, onların qayğı və problemlərinin həllində səylərinizi əsirgəmirsiniz.

Milli Məclisdə Çin Xalq Respublikası ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri, Amerika, Bolqarıstan, İtaliya, Latviya, Mərakeş ilə parlamentlərarası işçi qrupların üzvü, NATO Parlament Assambleyasında parlament nümayəndə heyətinin üzvü kimi parlamentin beynəlxalq əlaqələrinin inkişafında səylərinizi əsirgəmirsiniz.

Hörmətli Siyavuş müəllim!

Sizi yarım əsrlik yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə yaşınızın bu kamillik çağında uzun ömür, can sağlığı və yeni-yeni uğurlar diləyirəm.

Hörmətlə,

OQTAY ƏSƏDOV

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 17 fevral 2019-cu il

“ASAN xidmət” dövlət xidmətlərinin vahid məkanına çevrilir

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevlə müsahibə

- Ülvi müəllim, Azərbaycanın mütərəqqi və nümunəvi inkişaf modelinin formalaşmasında mühüm rol oynayan amillərdən biri institusional islahatların həyata keçirilməsidir. “ASAN xidmət” modelinin Azərbaycanda idarəetmənin təkmilləşdirilməsi baxımından əhəmiyyəti nədən ibarətdir?

- Bu gün dövlət siyasətinin prioritet istiqamətlərindən biri idarəetmədə şəffaflığın gücləndirilməsi, operativliyin təmin edilməsi, elektron xidmətlərin inkişafıdır.

2012-ci il iyulun 13-də cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində “ASAN xidmət” mərkəzləri yaradıldı.

“ASAN xidmət” vətəndaşlara dövlət və özəl xidmətlərin vahid məkandan göstərilməsini təmin edən unikal, innovativ modeldir və e-hökumətin əhəmiyyətli tərkib hissələrindən biridir. Qurumun bu formada təşkil edilməsi dövlət xidmətlərinin operativliyini və çevikliyini təmin edir. “ASAN xidmət” mərkəzlərində bu gün artıq 12 dövlət orqanı tərəfindən göstərilən xidmətlərlə yanaşı, özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox müxtəlif xidmət göstərilir. Bu model dövlət-özəl tərəfdaşlığının (Public-Private Partnerships - PPP) uğurlu nümunəsidir.

Burada yalnız bir qapıdan daxil olmaqla bir mərkəzdə müxtəlif xidmətlərdən eyni məkanda və eyni vaxtda istifadə etmək mümkündür. Bu isə məsrəflərin azalmasına, vaxt itkisinin aradan qaldırılmasına, şəffaflığa və rahatlığa şərait yaradır.

Hazırda Azərbaycanda 15 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxt Bakı şəhərində olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli və Şəkidədir. Bu il Tovuz, Ağcabədi, Şamaxı, Kürdəmir və Balakəndə “ASAN xidmət” mərkəzlərinin istifadəyə verilməsi nəzərdə tutulur.

Fəaliyyət göstərdiyi ilk 1 il ərzində 1 milyon vətəndaş müraciətini qeydə alan “ASAN xidmət”ə müraciət edənlərin sayı bu gün 27 milyondan çoxdur. “ASAN xidmət”ə gün ərzində ümumilikdə 20 000-ə yaxın müraciət qeydə alınır.

“ASAN xidmət”in əhatə dairəsi təkcə statik mərkəzlərlə məhdudlaşmır. Həmçinin səyyar avtobuslar və “ASAN qatar” vasitəsi ilə də vətəndaşlara xidmət göstərilir.

Vətəndaşların dövlət xidmətləri sahəsində maarifləndirilməsi “ASAN xidmət” mərkəzlərinin əsas vəzifələrindən biridir. Vətəndaşları dövlət xidmətləri, tələb olunan sənədlər, ödəniləcək rüsumlar haqqında məlumatlandırmaq istiqamətində fəaliyyət göstərən “Çağrı mərkəzi” bu günədək 3 milyona yaxın müraciəti cavablandırıb və bu müraciətlər mütəmadi olaraq təhlil edilməkdədir.

- Azərbaycan brendi olan "ASAN xidmət"in təcrübəsi dünyada böyük maraqla izlənilir. Artıq ayrı-ayrı ölkələrdə "ASAN xidmət" modelinin yaradılmasına başlanılıb. Dünya ölkələrinin Azərbaycanın bu sahədə qabaqcıl təcrübəsini öyrənməsini şərtləndirən amillər hansılardır?

- Dövlət agentliyi fəaliyyətə başladığı vaxtdan səmərəli və faydalı beynəlxalq əlaqələrin qurulmasına xüsusi diqqət ayırmışdır. Bu istiqamətdə əsas vəzifələrimizdən biri "ASAN xidmət" konsepsiyasının beynəlxalq aləmdə təşviqi və tanınmasından ibarətdir.

Dövlət agentliyinin xarici ölkələrin partnyor qurumları ilə əlaqələri əməkdaşlığın hüquqi bazasının yaradılması, qarşılıqlı təcrübə səfərlərinin, məsləhətləşmələrin həyata keçirilməsi istiqamətində davam etdirilir. Belə ki, əməkdaşlıq etdiyimiz bir sıra xarici ölkələrin dövlət xidmətləri sahəsində çalışan əməkdaşlarına "ASAN xidmət" modeli əsasında dövlət xidmətlərinin təşkili və göstərilməsi üzrə təlimlər və ekspert dəstəyi vasitəsi ilə dövlət xidmətlərinin təqdim edilməsinin yeni konsepsiyaları və menecment mexanizmlərinə yiyələnməsində dəstək verilmişdir.

Dövlət agentliyi öz fəaliyyəti çərçivəsində İtaliya, Fransa, Əfqanıstan, Koreya, İndoneziya, Monteneqro, Mərakeş, Uqanda kimi ölkələrin müvafiq qurumları ilə anlaşma memorandumları imzalamışdır.

2016-cı il iyulun 12-də Kabil şəhərində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Əfqanıstan İslam Respublikasının Maliyyə Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin mütərəqqi mexanizminin yaradılmasına dair əməkdaşlıq haqqında" Anlaşma Memorandumu imzalanmışdır. 2019-cu il yanvarın 2-də Əfqanıstanda ilk "ASAN xidmət" mərkəzinin açılışı baş tutmuşdur.

Dövlət agentliyi ilə Monteneqronun Dövlət İdarəçiliyi Nazirliyi arasında imzalanmış anlaşma memorandumunun implementasiyası və Monteneqroda "ASAN xidmət" modeli əsasında dövlət və özəl xidmətlər göstərən "one stop shop" (müxtəlif xidmətlərin bir mərkəzdə cəmlənməsi – red.) mərkəzlərinin təşəkkül tapması prosesi çərçivəsində Monteneqroda dövlət xidmətlərinin göstərilməsi sahəsində cari vəziyyətin qiymətləndirilməsi və nəticədə xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində fəaliyyət planı hazırlanmışdır.

Ötən il 4-6 iyul tarixində İndoneziya Respublikasının müxtəlif regionlarını təmsil edən nümayəndə heyəti ölkəmizə səfər edib. Məqsəd "ASAN xidmət" mərkəzləri ilə tanış olmaq və dövlət agentliyi tərəfindən onlar üçün təşkil edilən təlimlərdə iştirak etmək olub.

2017-ci il noyabrın 10-da dövlət agentliyi ilə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) arasında anlaşma memorandumu imzalanmışdır. Sözügedən anlaşma memorandumunun implementasiyası çərçivəsində 2018-ci il oktyabrın 25-də agentlik ilə İSESKO arasında birgə əməkdaşlıq proqramı imzalanıb. Əməkdaşlıq proqramına əsasən qabaqcıl idarəetmə üzrə "İSESKO-nun ASAN mükafatı" təsis olunur. Mükafat dövlət xidmətləri sahəsində innovasiyaları və qabaqcıl təcrübələri əks etdirən İSESKO təşkilatına üzv olan ölkələrdə təqdim olunacaqdır.

Bundan başqa, Özbəkistan, Tacikistan və bir sıra digər ölkələr tərəfindən "ASAN xidmət" təcrübəsinin öyrənilməsi ilə bağlı müraciətlər daxil olmuşdur.

Ümumilikdə bu günə qədər 60-a yaxın ölkədə "ASAN xidmət"in təqdimatı həyata keçirilmiş, 700-dən çox nümayəndə heyəti mərkəzlərə səfər etmiş və 100-dən artıq xarici kütləvi informasiya vasitəsində "ASAN xidmət"lə bağlı məlumatlar dərc olunmuş və proqramlar hazırlanmışdır.

- Bu gün "ASAN xidmət"in fəaliyyəti Avropa İttifaqı, Avropa Parlamenti kimi qurumlarda, həmçinin Böyük Britaniya, Fransa, Almaniya və digər Avropa ölkələrində yüksək qiymətləndirilir. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin beynəlxalq əlaqələrinin dinamikası barədə nə deyə bilərsiniz?

- Bu günə qədər bir neçə beynəlxalq təşkilatların rəhbərləri, xarici ölkələrin yüksək vəzifəli rəsmiləri, parlament nümayəndələri "ASAN xidmət" mərkəzlərində olmuş, eyni zamanda, müxtəlif beynəlxalq təşkilatlarda və xarici ölkələrin parlamentlərində "ASAN xidmət" barədə təqdimatlar edilmişdir.

2014-cü il fevralın 19-da Belçika Krallığının Brüssel şəhərində Avropa Parlamentinin mənzil qərargahında Azərbaycan nümayəndə heyətinin, Avropa Parlamentinin üzvlərinin və digər qonaqların iştirakı ilə "İnnovasiya və mobil imza - Avropa ilə yeni rəqəmsal inteqrasiya vasitəsi kimi" mövzusunda geniş konfrans keçirilmişdir. Burada "ASAN xidmət"in yaradılması tarixi, inkişafı, həyata keçirilən xidmət növləri və vətəndaş məmnunluğunun əldə olunması istiqamətində qazanılmış nailiyyətlər barədə qonaqlara ətraflı məlumat verilmişdir.

2014-cü ilin iyul ayında Böyük Britaniya parlamentində "ASAN xidmət" haqqında xüsusi təqdimat keçirilmişdir.

2017-ci il yanvarın 26-da Fransa Milli Assambleyasında "Dövlət xidmətlərinə çıxış və vətəndaşlıq" mövzusunda konfransda dövlət xidmətlərinin göstərilməsində ölkəmizin qabaqcıl təcrübəsi hesab olunan "ASAN xidmət" barədə geniş təqdimat həyata keçirilmişdir. Tədbirə Fransa Senatının üzvləri ilə yanaşı, yerli və regional orqanların yüksək vəzifəli şəxsləri, diplomatik korpusun, akademik dairələrin nümayəndələri də qatılıblar.

Bundan əlavə, Avropa Şurasının baş katibi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının rəhbəri, BMT baş katibinin müavini, Avropa Şurası Parlament Assambleyası Monitorinq Komitəsinin həmməruzəçiləri, Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, Slovakiya Milli Şurasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri, İndoneziya Respublikasının Nümayəndələr Palatasının Sədr müavini, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyəti, Türkmənistan Məclisi Sədrinin müavini, eyni zamanda, Fransadan, İtaliyadan, Almaniyadan olan deputatlar və digərləri ötən illər ərzində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət"

mərkəzlərinin fəaliyyəti ilə tanış olmuşlar.

"ASAN xidmət" əldə etdiyi yüksək nailiyyətlərinə görə Birləşmiş Millətlər Təşkilatının 2015-ci il Dövlət Xidmətləri Mükafatına layiq görülmüşdür. "ASAN xidmət" seçim prosesinin bütün mərhələlərindən 800 namizəd arasından uğurla keçmiş və 2015-ci il 20-24 aprel tarixində BMT-nin Dövlət İdarəçiliyi üzrə Ekspertlər Komitəsinin illik sessiyasında qalib seçilmişdir. "ASAN xidmət" "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında 1-ci yerə layiq görülmüşdür.

2018-ci il martın 22-də BMT-nin İnsan Hüquqları Şurasının Cenevrədə keçirilən 37-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə "Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi" adlı qətnamə yekdilliklə qəbul edilib. Bu qətnamə dünyanın qlobal inkişaf proqramını müəyyən edən BMT-nin Davamlı İnkişaf Məqsədlərinin 2015-ci ildə qəbul olunmasından keçən vaxt ərzində İnsan Hüquqları Şurası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə qəbul edilmiş ilk sənəddir. Qətnamənin irəli sürülməsində məqsəd ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində mühüm nailiyyətlərindən biri hesab edilən "ASAN xidmət" konsepsiyasına əsaslanan "dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması" üzrə qabaqcıl təcrübənin BMT sistemi daxilində təşviq edilməsidir.

- Məlumdur ki, ölkəmizdə könüllülük hərəkatının kütləvi xarakter almasında gənclərin "ASAN xidmət" mərkəzlərində vətəndaşlara könüllü xidmət etməsinin rolu böyükdür. Bununla bağlı fikirləriniz nədən ibarətdir?

- Nəzərə alsaq ki, "ASAN könüllülük" hərəkatına cəmi 15 nəfər ilə başlamışdıq və bu gün bu sayın 17 min nəfəri aşması dediyinizə bariz nümunədir. Hər bir könüllü vətənpərvər, intellektual, yardımsevər, özünü inkişaf etdirməyi sevən və öz milli-mənəvi dəyərlərinə sadiq olan müasir gəncdir. Cənab Prezident də gənclərlə görüşlərində könüllülərə bu dəyərləri rəhbər tutmağı tövsiyə edir. Sevindirici haldır ki, Azərbaycan gəncliyi bu dəyərlərin mahiyyətini anlayır və cənab Prezidentin apardığı islahatların həyata keçirilməsində bilavasitə iştirak edir.

- Ülvi müəllim, Prezident İlham Əliyevin bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərmanı əsasında "ASAN xidmət" mərkəzləri müvafiq dövlət xidmətlərinin alternativsiz formada həyata keçirildiyi vahid məkana çevrilir, rəhbərlik etdiyiniz qurumun fəaliyyət və səlahiyyət dairəsi genişlənir. Bu məsələ ilə bağlı təfərrüatları diqqətə çatdırmağınızı istərdik.

- 2019-cu il yanvarın 17-də cənab Prezident "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Fərmana əsasən Bakı şəhərində, habelə "ASAN xidmət" mərkəzlərinin yerləşdiyi Azərbaycan Respublikasının digər inzibati ərazi vahidlərində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətlərinin yalnız "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsi tapşırılıb. Bununla da, müvafiq dövlət xidmətlərinin alternativ formada deyil, vahid məkandan - yalnız "ASAN xidmət" mərkəzlərindən həyata keçirilməsi təmin ediləcək.

Hazırda müvafiq proseslərin daha səmərəli formada tənzimlənməsi məqsədi ilə işçi qrup formalaşdırılıb. Həmçinin aidiyyəti qurumlarla birgə tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Tahir Tağızadə:

"Breksit"dən sonra bu xüsusda bəzi əngəllər aradan qalxacaq

Azərbaycan Respublikası Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı üçün əhəmiyyətli tərəfdaşdır. İki ölkə arasında yaxşı əlaqələr mövcuddur. Birləşmiş Krallıq artıq uzun illərdir ki, Azərbaycanda ən böyük xarici investordur. Ona görə də "Səfir" rubrikamızın budəfəki qonağı Azərbaycanın Birləşmiş Krallıqdakı fövqəladə və səlahiyyətli səfiri Tahir Tağızadədir.

- Azərbaycan ilə Birləşmiş Krallıq uzun illərdir ki, enerji layihələrində uğurlu əməkdaşlıq edir. Bir səfir kimi Böyük Britaniya və Azərbaycan arasında daha hansı əməkdaşlıq imkanlarını qeyd etmək istərdiniz?

- Böyük Britaniya ilə Azərbaycan arasındakı münasibətləri nümunəvi münasibətlər hesab etmək olar. 2017-ci ildə Azərbaycan və Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü qeyd edilmişdir. Ənənəvi haldır ki, Azərbaycan Respublikasının Prezidenti andiçmə mərasimindən sonra ilk xarici səfərini Türkiyəyə edir. Ancaq cənab İlham Əliyev bu dəfə Türkiyə səfərindən Azərbaycana qayıtmayaraq, növbəti gün Böyük Britaniyanın Baş naziri Tereza Meyin dəvəti ilə Londona səfər etdi. Bu, əlaqələrin səviyyəsinin və dinamikasının çox gözəl göstəricisidir. Bu səfər çərçivəsində ölkə başçısı Britaniyanın Baş naziri, Britaniya XİN-in Avropa və Amerika üzrə dövlət naziri, Beynəlxalq Ticarət və İnvestisiyanın Təşviqi üzrə dövlət naziri, Britaniya parlamentinin Lordlar və İcmalar Palatasının çoxsaylı nümayəndələri, BP (Britiş Petrolium) şirkətinin rəhbərliyi, eləcə də Bukingem Sarayında York hersoqu ilə görüşlər keçirdi. Bu görüşlərin istər mahiyyəti, istərsə də ruhu, məncə, strateji tərəfdaşlığın düzgün istiqamətdə və lazımi sürətlə inkişaf etdirildiyinin sübutu idi.

Sözsüz ki, Britaniya tərəfi də Azərbaycanla münasibətlərinə çox yüksək dəyər verir və biz bunu qarşı tərəflə bütün səviyyələrdəki təmaslarımız zamanı hiss edirik. Təkcə son onillik ərzində Britaniya Azərbaycana 23 milyard funt-sterlinq sərmayə yatırmışdır və ümumilikdə bu sahədə Britaniya birinciliyi qoruyub saxlayır. 2018-ci il mayın 24-də Azərbaycanın Britaniyadakı səfirliyinin təşkilatçılığı ilə Londonda Azərbaycan Demokratik Respublikasının 100 illiyi münasibəti ilə keçirilən ziyafətdəki çıxışı zamanı Britaniya XİN-in Avropa və Amerika üzrə dövlət naziri Alan Dankan Britaniyanın Azərbaycana dost ölkə olmaqdan qürur duyduğunu və 25 illik əməkdaşlı-

ğa əsaslanaraq hər iki xalqın rifahı və təhlükəsizliyi üçün iki ölkənin birgə çalışmağa davam edəcəyinə ümidvar olduğunu bildirmişdir.

Bəli, bu, danılmaz faktdır ki, Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin özəyini enerji üzrə əməkdaşlıq təşkil edir. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandıqdan bugünədək bu sahədə əməkdaşlıq hər iki ölkəyə qarşılıqlı fayda gətirməklə yanaşı, münasibətlərin müntəzəm inkişafı üçün etibarlı zəmin yaratmışdır. Bildiyiniz kimi, 2017-ci il sentyabrın 14-də Azəri-Çıraq-Günəşli yatağının işlənməsinin 2050-ci ilədək uzadılması üzrə Böyük Britaniyaya məxsus Britiş Petrolium (BP) və ARDNŞ (SOCAR) arasında növbəti saziş imzalandı. Həmin mərasimdəki çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bildirmişdir ki, "Əsrin müqaviləsi"nin müddəti bitdikdən sonra Azərbaycan başqa tərəfdaşla yeni müqavilə imzalaya bilərdi və bu imkanlar bizdə var idi.

BP tərəfi də öz növbəsində Azərbaycanla tərəfdaşlığa sadiq qalır və Azərbaycanın gələcək rifahında, xüsusən energetika sahəsindəki uğurların ardıcıllığının təminində, eləcə də Azərbaycanda fəaliyyətinin gələcək perspektivlərində maraqlı olduğunu hər zaman nümayiş etdirir. Misal üçün, boru kəmərlərinin tikilməsi zamanı BP həm də yerli icmalara dəstək vermiş və bu istiqamətdə bir sıra sosial layihələr həyata keçirmişdir. Həmçinin şirkət Azərbaycanla bağlı fəaliyyətində yerli heyət məsələsini daim nəzərdə saxlamış və öz strukturlarında daha çox azərbaycanlı kadrların işə götürülməsi prinsipinə sadiq qalmışdır. Son olaraq, 2018-ci ildə ADR-in 100 illiyi münasibəti ilə BP şirkəti Bakı Media Mərkəzinin Heydər Əliyev Mərkəzi ilə birlikdə istehsal etdiyi "Sonuncu iclas" filminin çəkilişinə sponsorluq etmişdir. Filmin Londonda 2018-ci il oktyabrın 30-da baş tutan premyerası zamanı BP şirkətinin regional vitse-prezidenti Bəxtiyar Aslanbəyli BP-nin məhz 25 ildən artıq qarşılıqlı-faydalı əməkdaşlıqdan irəli gələrək, Azərbaycanın tarixində önəmli yeri olan ADR-in tarixinə həsr olunmuş filmin çəkilişinə dəstək verməkdən şərəf duyduğunu nəzərə çatdırmışdır.

Bütün bunlara baxmayaraq, bildirmək istərdim ki, iki ölkə arasında qeyri-enerji sahəsində də əməkdaşlıq üçün böyük potensial mövcuddur. Bu istiqamətdə təhsil, kənd təsərrüfatı, turizm, mədəniyyət və bir sıra digər sahələri misal göstərmək olar.

Bildiyiniz kimi, 2015-ci ildə Azərbaycanla Britaniya arasında məhz qeyri-neft sektorunda əmək-

daşlığı inkişaf etdirmək məqsədi ilə hökumətlərarası birgə komissiya yaradılmışdır. Komissiyanın üçüncü iclasının cari ilin may ayında keçirilməsi planlaşdırılır.

Britaniya tərəfi də bütün təmaslar zamanı təsdiq edir ki, iki ölkə arasında təhsil sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün kifayət qədər imkanlar var. Azərbaycanda ingilis dilinin tədrisinə maraq, eləcə də azərbaycanlı tələbələrin məhz Britaniya universitetlərində təhsil almağa üstünlük verməsi, Britaniya hökumətinin azərbaycanlı tələbələr üçün ayırdığı təqaüdlər və sairə təhsil əlaqələrinə təkan verən göstəricilərdən sadəcə bir neçəsidir. Azərbaycan Respublikasının təhsil naziri Ceyhun Bayramov 2019-cu il 20-23 yanvar tarixində Londonda keçirilən Dünya Təhsil Forumunda iştirak üçün Londona səfəri çərçivəsində bir sıra qurumlarda görüşlər keçirmiş və əməkdaşlıq imkanlarını müzakirə etmişdir.

Oxşar imkanlar mədəniyyət sahəsində də mövcuddur. 2019-cu ilin 13-14 fevral tarixində Londonda işgüzar səfərdə olan Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev bir sıra görüşlər keçirərək mədəniyyət sferasında əməkdaşlıq imkanlarını qeyd etmişdir. "Britiş Konsul"la görüş zamanı Azərbaycan Mədəniyyət Nazirliyi ilə qurum arasında beşillik əməkdaşlığın müvafiq aspektlərini müəyyən edən sənəd imzalanmışdır. Qeyd etmək istərdim ki, belə səfərlər çox faydalıdır və qısa müddətdə nəticələri görməyə imkan verir.

Britaniyalılar arasında Azərbaycanın turizm potensialına da maraq ilbəil artmaqdadır. Çox tez-tez Azərbaycanın Britaniyadakı səfirliyinə ölkəmizdə çəkiliş aparmaq üçün istər nüfuzlu, istərsə də digər Britaniya telekanallarının nümayəndələri müraciət edirlər. 2017-ci ildə BBC 2 televiziya kanalının geniş auditoriyaya malik "Böyük Qitə Dəmiryolu Səyahətləri" ("Great Continental Railway Journeys") adlı sənədli filmlər seriyasının, 2018-ci ildə isə britaniyalı məşhur aktrisa Coanna Lumleyin aparıcılığı ilə "Coanna Lumleyin İpək Yolu" adlı sənədli filmin Azərbaycana aid çəkilişlərinin ölkəmizdə aparılması üçün səfirliyə müraciətlər etməsi bunlardan sadəcə bir neçəsidir. Bu yaxınlarda biz Londonda ənənəvi olaraq hər il keçirilən "Dünya Səyahət Bazarı" sərgisinin rəhbərliyi ilə görüş keçirdik və həmin görüşdə qarşı tərəf Azərbaycanda mövcud olan turizm potensialının istehlakçılar və turizm şirkətləri üçün çox maraqlı istiqamət olduğunu söylədi. Kənd təsərrüfatı sahəsində əməkdaşlıq üçün də imkanlar mövcuddur və ümid edirik ki, xüsusən "Breksit"dən sonra bu xüsusda bəzi əngəllər aradan qalxacaq.

Birinci vitse-prezident Mehriban Əliyevanın Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonla görüşü

- Cənab səfir, Azərbaycanın müxtəlif bölgələrinə səfər edir, ölkə ilə yaxından tanış olursunuz. Maraqlı müşahidələriniz və Azərbaycanın Londondan necə görünməsi ilə bağlı fikirlərinizi bizimlə bölüşərdiniz.

- Böyük qürur hissi ilə bildirmək istərdim ki, Azərbaycan gündən-günə sürətlə inkişaf edir və bunu bizim ölkəmizə səyahət edən xaricilər də təsdiqləyirlər. Ən sevindirici hal isə ondan ibarətdir ki, artıq biz ölkəmizi xaricdə tanıtmaq üçün 90-cı illərdə olduğu kimi böyük səylər göstərmirik. Əksinə, yuxarıda da bildirdiyim kimi kənardan bizim ölkəmizə maraq çox güclüdür. Yaxşı xatırlayıram ki, 1997-2005-ci illərdə respublikamızın ABŞ-dakı səfirliyində işlədiyim müddətdə Azərbaycanın adının tez-tez Abican və ya Abuca şəhərləri ilə səhv salınması ilə qarşılaşır-

Səfirliyin ADR-in 100 illiyi ilə bağlı keçirdiyi ziyafət. Azərbaycanın Britaniyadakı səfiri və Britaniya XİN-in Avropa və Amerika üzrə dövlət naziri

dım. Çox sevinirəm ki, artıq bu cür hallara rast gəlinmir və ölkəmiz dünya dövlətləri arasında öz sözünü deyə bilən, güclü bir dövlət kimi tanınır.

Təmasda olduğum xaricilərə ölkəmizin spesifik xüsusiyyətlərini sadalayarkən həmişə iki əsas məsələyə diqqət çəkirəm: Azərbaycan çox nadir ölkələrdən biridir ki, eyni fəsildə həm çimərlik istirahəti, həm də xizək sürmək üçün imkanlar təklif edə bilir. Həmçinin bizim xalqımız çox qonaqpərvərdir və Azərbaycanın zəngin və rəngarəng mətbəxi var. Lakin bir xırda sirri də sizinlə bölüşmək istərdim ki, ilk öncə təhsilim, sonra isə məhz diplomatik fəaliyyətimlə əlaqədar olaraq, təəssüflər olsun ki, ölkəmizin bütün bölgələrinə səfər etməyə və Azərbaycanın coğrafiyası ilə yaxından tanış olmağa imkanım olmayıb. Bu səbəbdən də çalışıram ki, əmək məzuniyyətlərim zamanı, eləcə də xarici qonaqları Azərbaycana səfərləri zamanı müşayiət edərkən mümkün qədər bölgələrimizi ziyarət edim. Hələ də siyahımda Azərbaycanın ziyarət edə bilmədiyim bir neçə bölgəsi qalıb və növbəti gəlişimdə Qax rayonuna səfər etməyi planlaşdırıram. Hesab edirəm ki, diplomatın ölkəsinin coğrafiyası və maraqlı xüsusiyyətlərinə ilk növbədə özünün yaxından bələd olması çox önəmlidir.

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ danışıqlarının uzanması, Ermənistanın hazırkı status-kvonu davam etdirməyə çalışması, siz də razılaşarsınız ki, regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi tərəqqi və əməkdaşlığın inkişafına böyük maneə yaradır. Siz belə bir fikri müdafiə edirsiniz ki, dünya ictimaiyyəti bu münaqişənin həllinə kömək etməlidir. Bu köməyi konkret olaraq necə formulə edərdiniz?

- İstər coğrafi mövqeyi, istər təbii resursları, istərsə də infrastruktur baxımdan Cənubi Qafqaz regionu böyük iqtisadi potensiala malikdir. Təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı davam edən işğal siyasəti ölkəmizin ərazi bütövlüyünü pozmaqla yanaşı, regionun iqtisadi potensialını tam şəkildə reallaşdırmağa imkan vermir. Bu, həmçinin regionda sülh və təhlükəsizliyə qarşı da hədə təşkil edir. Məlum olduğu kimi, artıq 25 ildən çoxdur ki ATƏT-in Minsk Qrupu münaqişənin həlli istiqamətində çalışır. Sözsüz ki, vasitəçilik münaqişələrin həlli üsullarından biridir. Lakin mən elə hesab edirəm ki, münaqişənin həll edilməsi üçün ilk növbədə münaqişəni törədən səbəb aradan qalxmalıdır: Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını azad etməli, qaçqın və məcburi köçkünlər öz torpaqlarına geri dönməlidir. Bununla yanaşı, Ermənistanın status-kvonu rahatlıqla davam etdirməsində, təbii ki, beynəlxalq cəmiyyətin etinasızlığı və bəzi hallarda işğal siyasətinə bu və ya digər yollarla

Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Britaniya parlamentinin İcmalar Palatasında keçirilmiş dəyirmi masa

dəstək verməsinin də rolu böyükdür. Hələ də dövlətlər öz vətəndaşlarını işğal olunmuş Azərbaycan torpaqlarına səfər etməkdən, öz şirkətlərini işğal olunmuş ərazilərdə qeyri-qanuni iqtisadi fəaliyyət aparmaqdan bəzi hallarda çəkindirə bilmirlər. Düşünürəm ki, bu kimi halların qarşısını almaqla, eləcə də klassik "faş et və utandır" ("name and shame") metodundan istifadə etməklə, yəni mümkün olan bütün platformalarda Ermənistanın işğal və təcavüz siyasətini pisləməklə dünya ictimaiyyəti münaqişənin həllinə töhfə verə bilər.

Bugünlərdə biz Xocalı soyqırımının 27-ci ildönümünü qeyd etdik. Elə hesab edirəm ki, mümkün qədər çox dünya dövlətlərinin Xocalı faciəsini soyqırım kimi tanıması Azərbaycanın ədalətli mövqeyini dəstəkləməklə yanaşı, münaqişənin həlli istiqamətində lazımi addımları atması üçün Ermənistan tərəfi üzərində tələb olunan təzyiqi yarada bilər. Biz daim çalışırıq ki, Qarabağ münaqişəsi, o cümlədən Xocalı faciəsi dünya ictimaiyyətinin diqqət mərkəzində qalsın. Çexiyada səfir kimi çalışdığım zaman - 2013-cü ildə Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar Çexiya parlamentinin Deputatlar Palatasının Xarici əlaqələr komitəsinin yekdilliklə müvafiq qərar qəbul etməsi, 2017-ci ildə soyqırımın 25-ci ildönümü ərəfəsində Şotlandiya parlamentində müvafiq sənədin yekdilliklə qəbul olunması bu xüsusda səylərimizin nəticələri kimi qeyd edilə bilər. Xocalı soyqırımının 27-ci ildönümü münasibəti ilə 2019-cu il fevralın 26-da Britaniya parlamentinin İcmalar Palatasında dəyirmi masa keçirildi. Digər tərəfdən, beynəlxalq ictimaiyyətin mövqeyi ilə yanaşı, ölkəmizin poten-

sialının daim gücləndirilməsi də münaqişənin Azərbaycanın xeyrinə həllinin tapması üçün çox vacib amildir. Belə ki, Azərbaycanın siyasi və iqtisadi çəkisinin artması münaqişəni istər diplomatik, istərsə də digər yollarla həlli üçün geniş imkanlar yaradır. Bu gün ölkə başçısının yürütdüyü daxili və xarici siyasət də məhz bu istiqamətdədir.

- Azərbaycan və Birləşmiş Krallığın qanunverici orqanlarında qarşılıqlı əlaqələrə dair işçi qrupları fəaliyyət göstərir. Bu işçi qruplarının ölkələrimiz və xalqlarımız arasında münasibətlərin inkişafındakı əhəmiyyəti və rolu barədə sizin fikirləriniz necədir?

- Məlum olduğu kimi, parlamentlərarası əməkdaşlıq hökumətlərarası əlaqələrdə müsbət nəticələrin əldə olunması və dəstəklənməsində böyük rol oynayır. Britaniya parlamentində fəaliyyət göstərən Azərbaycan üzrə dostluq qrupu Britaniya parlamentinin diqqətinin ölkəmiz üçün xüsusi önəm kəsb edən məsələlərə və parlamentdə keçirilən müzakirə və debatlarda Azərbaycanın mövqeyinin müdafiəsinə yönəldilməsinə dəstək verir. Təsadüfi deyil ki, 2018-ci il aprelin 26-da Azərbaycan Prezidenti cənab İlham Əliyev Londona işgüzar səfəri zamanı Britaniya parlamentindəki Azərbaycanla dostluq qrupunun sədri və bir sıra digər üzvləri ilə görüş keçirmişdir.

Azərbaycan Milli Məclisində də Britaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Xüsusi vurğulamaq istərdim ki, qrupun fəaliyyəti Azərbaycan Respublikasının Britaniyadakı səfirliyinin Britaniya parlamenti ilə apardığı işə yaxından dəstək verir. Qrupun sədri Cavanşir Feyziyev tez-tez Londona səfərlər edir, britaniyalı həmkarları ilə görüşlər keçirir və Britaniya parlamentində Azərbaycan üzrə keçirilən müxtəlif dinləmələrdə mövqeyin ölkəmizin xeyrinə əks olunması istiqamətində britaniyalı həmkarları ilə müzakirələr aparır. Məhz dostluq qrupunun yaxından dəstəyi və Azərbaycanın Britaniyadakı səfirliyinin səyləri nəticəsində Britaniya parlamentindəki Azərbaycan qrupunun üzvləri ənənəvi olaraq hər il Xocalı soyqırımı ərəfəsində Azərbaycan Prezidentinə başsağlığı məktubları göndərir və Britaniya parlamentində vaxtaşırı mövzu üzrə sənəd irəli sürülür. Həmin təcrübə bu il də davam etdirildi.

Bir məqamı da qeyd etmək istərdim ki, Britaniya parlamenti ilə təmaslarda əsas vacib məqamlardan biri qarşı tərəfin sizi tərəfdaş kimi qəbul etməsinə nail olmaqdır. Əminliklə deyə bilərəm ki, britaniyalı həmkarları ilə münasibətdə Cavanşir Feyziyev məhz buna müvəffəq olub.

Bu cür qruplar qarşılıqlı səfərlərin həyata keçirilməsində də böyük rol oynayır və hər iki ölkənin parlamentariləri arasında müvafiq olaraq Azərbaycana və Britaniyaya səfər mübadilələri həyata keçirilir.

Müşahidələrimiz onu göstərir ki, Britaniya parlamentində müxtəlif ölkə və mövzular üzrə qrupların fəaliyyəti həmin ölkə və mövzular üzrə ümumi fikrin formalaşması baxımından yüksək əhəmiyyətə malikdir və parlamentarilər bir çox hallarda məhz müvafiq qruplara üzvlüklərindən irəli gələrək Britaniyada və digər dövlətlərdə keçirilən müxtəlif tədbir və görüşlərə dəvət alırlar. Bu mənada, həm səfirlik, həm də Milli Məclisin Britaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu tərəfindən Britaniya parlamentində Azərbaycanla dostluq qrupunun sıralarının artması istiqamətində fəaliyyət davam etdirilir.

İlham Əliyev: “Prezident kimi həmişə çalışmışam ki, xalqıma ləyaqətlə xidmət edim”

Tahir Mirkişili:

“Əsas hədəflərdən biri də 2025-ci ilədək evsizlərin sayını minimuma endirməkdir”

Milli Məclisin deputatı Tahir Mirkişili jurnalımızın suallarını cavablandırır.

- Tahir müəllim, Azərbaycanda sosial təminat sisteminin gücləndirilməsi və əhatə dairəsinin genişləndirilməsi istiqamətində görülən işlərin nəticələri nədən ibarətdir?

- Müasir dövrdə hər bir cəmiyyətin inkişafı bilavasitə insanın fəaliyyəti, onun fiziki və intellektual əməyinin məhsuldarlığı ilə bağlı olduğundan insana yatırılan investisiya - insan kapitalı xüsusi əhəmiyyətə malikdir. İnsan kapitalı təhsil, elm, səhiyyə, mədəniyyət, incəsənət, informasiya xidmətinə əsaslanmaqla formalaşır və kompleks sahələri əhatə etməklə istər iqtisadi, istər sosial, istərsə də siyasi-hüquqi sahəyə geniş təsir imkanlarına malikdir. Sadalanan amillər insanın cəmiyyətdəki mövqeyini müəyyənləşdirməklə, onun həyat səviyyəsini xarakterizə edir. Bu baxımdan son zamanlar beynəlxalq qurumlar bir çox ölkələrdə insan kapitalını həmin parametrlərə görə ölçərək milli sərvətin tərkibində istehsal və təbii resurslarla yanaşı, insan kapitalını da hesablayırlar.

İnsan kapitalının inkişafı hesabına davamlı iqtisadi tərəqqinin təmin edilməsi müasir dövrdə Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin əsasını təşkil edir. Ötən illər ərzində bu sahədə kompleks tədbirlər həyata keçirilmiş, yüksək nailiyyətlər əldə olunmuşdur.

Ölkədə əmək ehtiyatlarından səmərəli istifadə, əhalinin məşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi, layiqli əməyin dəstəklənməsi, işçi qüvvəsinin rəqabət qabiliyyətliliyinin artırılması və əmək məhsuldarlığının yüksəldilməsi hesabına iqtisadi inkişafın təmin edilməsi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində başlıca məqsədlər olaraq müəyyən edilmişdir.

Azərbaycan Prezidentinin sosial siyasətinin əsas xəttini insan kapitalının inkişafı sahəsində ölkədə əhalinin keyfiyyətli sosial xidmətlər ilə təmin edilməsi və bu xidmətlərin müxtəlif sosial qruplar, o cümlədən aztəminatlı ailələr və sosial qayğıya ehtiyacı olan vətəndaşlar üçün əlçatanlığı təşkil edir. Bununla bərabər əhalinin etibarlı sosial müdafiəsinin təmin edilməsi məqsədi ilə ardıcıl olaraq müxtəlif tədbirlər görülür və bu məqsədlə dövlət büdcəsindən xeyli vəsait ayrılır. 2019-cu ilin dövlət büdcəsi xərclərində hər 100 manatdan 34 manatı məhz sosial xərclərə ayrılmışdır. Məcburi köçkünlər, şəhid ailələri, fiziki imkanları məhdud olan insanlar üçün dövlət dəstəyinin bütün formalarından istifadə edilməsi bu kateqoriyalardan olan şəxslərin rifah halının ildən-ilə yaxşılaşmasında mühüm rol oynayır.

Ölkəmizdə son 15 il ərzində yoxsulluğun səviyyəsi 49%-dən

5%-ə düşmüşdür. Ölkədə minlərlə yeni müəssisə yaradılmaqla 2 milyona yaxın yeni iş yeri açılmışdır. 3 mindən çox məktəb, 600-dən artıq tibb ocağı tikilmiş və ya əsaslı şəkildə təmir edilmişdir. Bölgələrdə 40-dan çox olimpiya idman kompleksi, sosial və mədəniyyət obyektləri inşa edilmiş, gənclər evi, tarix-diyarşünaslıq muzeyləri, digər çoxsaylı sosial və mədəni obyektlər tikilərək əhalinin istifadəsinə verilmiş, yeni parklar, istirahət mərkəzləri yaradılmış və s. tədbirlər həyata keçirilmişdir.

Bu illər ərzində maaşlar, pensiyalar və digər sosial ödənişlər dəfələrlə artırılmış, ölkədə sosial mənzillərin inşası, ipoteka kreditlərinin verilməsi ilə bağlı böyük layihələrin icrasına başlanmışdır. Eyni zamanda, sosial siyasətin ən önəmli istiqaməti olan müharibə iştirakçılarının, şəhid ailələrinin, əlillərin, hərbçilərin, alimlərin, KİV işçilərinin sosial təminatının yüksəldilməsi, mənzil-məişət problemlərinin həlli ilə bağlı çoxsaylı tədbirlər həyata keçirilmişdir. Ümumiyyətlə, bu gün qarşıya qoyulan əsas hədəflərdən biri də 2025-ci iləDək evsizlərin sayını minimuma endirməkdir.

Ölkəmizdə çalışan əhalinin 60%-ə yaxını özünüməşğulluqla məşğuldur. Dövlətin bu sahədə də dəstək proqramı daim genişlənir. Belə ki, təkcə 2018-ci ildə özünüməşğulluq proqramının əhatə dairəsi 6,5 dəfə genişləndirilərək 7,3 minə yaxın şəxsi əhatə edib. Onlardan artıq 5800-ü aktivlərlə (mal və materiallarla) təmin olunaraq kiçik ailə təsərrüfatlarını yaradıb. 2019-cu ildə daha 7-8 min şəxsin bu proqrama cəlb olunması planlaşdırılır. Eyni zamanda, "İşsizin DOST"u proqramı ödənişli ictimai işlərin sistemli və şəffaf təşkilinə imkan verməklə, bu il 30 min işsiz və işaxtaran şəxsin əmək müqaviləsi əsasında belə işlərlə təmin edilməsinə şərait yaradıb ki, onlardan da artıq 25 mindən çoxu ödənişli ictimai işlərlə təmin olunublar.

Sosial məsələlərin həlli ilə bağlı ölkədə çoxsaylı dövlət proqramları, böyük layihələr həyata keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı, həmin sənədlərə çoxsaylı əlavələr qəbul olunmuş və icra edilmişdir. Çox önəmli faktdır ki, hər il ölkəmizin başçısının imzaladığı fərman və sərəncamların 65%-i məhz sosial yönümlüdür.

Ərazilərimizin işğalı nəticəsində məcburi köçkün düşmüş insanlara dövlət qayğısı hər zaman diqqət mərkəzində olmuşdur. Məcburi köçkünlər üçün son illərdə 100-ə yaxın qəsəbə salınıb. 300 minə yaxın məcburi köçkün evlərlə, mənzillərlə təmin edilmişdir. Onların yaşayış şəraitinin yaxşılaşdırılması məqsədi ilə dövlət tərəfindən görülən bu tədbirlər dünyada digər ölkələrə nümunə kimi göstərilir.

- Heç şübhəsiz, Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən minimum aylıq əmək haqqının və minimum əmək pensiyalarının məbləğinin artırılması vətəndaşların rifahının yüksəldilməsi üçün daha bir mühüm addımdır...

- Ümumiyyətlə, son 15 ildə Azərbaycanda əmək haqları 7 dəfə, eləcə də minimum əmək haqları 6,5 dəfə artırılıb. Bu ilin martın 1-dən minimum əmək haqqının 38,5% (50 manat) artırılaraq 180 manata çatdırılmasının mühüm sosial və iqtisadi əhəmiyyəti var. Qeyd etmək lazımdır ki, ilk dəfə olaraq minimum əmək haqqının məbləği ilə minimum yaşayış həddinin məbləği eyniləşdirilib.

Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və özəl sektorda işləyən azı 600 min işçinin əmək haqqının artmasına bu qərarın mühüm təsiri olacaq. Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan və əmək haqları 19 pillədən ibarət Vahid Tarif Cədvəli ilə tənzimlənən işçilərin əmək haqlarında artım olacaq və bu artım orta hesabla 30% təşkil edəcək.

Əmək haqlarının artımının həm də mühüm iqtisadi əhəmiyyəti vardır. Belə ki, əmək haqlarının artımı ölkədə istehsalın və istehlakın həcmini yüksəltməklə iqtisadi aktivliyə dəstək verərək sahibkarlıq fəaliyyətini daha da canlandıracaq və yeni iş yerlərinin açılması ilə əhaliyə dolayısı ilə də sosial dəstək olacaqdır.

Prezident İlham Əliyevin xüsusi qayğısı hazırda sayı 1,3 milyon nəfərdən və ya əhalinin 13%-dən ibarət olan pensiyaçıları da əhatə edir. Belə ki, cari ilin əvvəlindən pensiyaların növbəti dəfə indeksləşdirilərək artırılması təmin olunub. İndeksləşmə ilk dəfədir ki, tam pensiya məbləğinə tətbiq edilir. Dövlət başçısının təşəbbüsü ilə əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılmasına dair qanunvericilik layihəsi hazırda Milli Məclisdə müzakirə olunur. Bu təşəbbüs nəticəsində əmək pensiyasının minimum məbləği 116 manatdan 160 manata çatdırılacaq.

Minimum pensiya məbləğinin artırılması ümumilikdə 233 min pensiyaçını (o cümlədən 140 min nəfər əlilliyə görə pensiya alan şəxsi) əhatə edəcək. Onlardan 9 min nəfərin pensiyasında 93% (75 manat), 26 min nəfərin pensiyasında 30% (37 manat), 74 min nəfərin pensiyasında 16% (27 manat) və s. artım özünü göstərəcək. Bu qərar əhalinin pensiya təminatının daha da yaxşılaşmasına əhəmiyyətli təsir göstərəcəkdir.

- "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) yaradılmasının əhalinin sosial müdafiəsinin gücləndirilməsi baxımından əhəmiyyəti nədir?

- Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsi dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırmaqdadır. Bu ilin birinci rübündə ilk DOST mərkəzi, il ərzində Bakıda ümumən 4, 2019-2025-ci illərdə isə Bakı və respublikamızın regionları üzrə 31 belə mərkəz yaradılacaq.

Layihənin əsas məqsədi əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılmasıdır. Bundan başqa agentlik innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi, habelə sürüşdürməçilik hallarının qarşısının alınması və

vətəndaş məmnunluğunun artırılmasının hədəflərinə çatmağı da qarşıya məqsəd qoymuşdur. Mərkəzlərdə xidmətlər "bir pəncərə", həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçiriləcəkdir. E-sosial, e-pensiya, e-məşğulluq və digər sistemlər üzrə təqdim olunacaq xidmətlər əyani müraciət edən vətəndaşlarla yanaşı, səyyar formada da əhaliyə xidmət edəcək ki, bu da insanlara daha çevik sosial xidmətlər göstərməyə imkan verəcək. Sosial xidmətlərin çevikliyi və əlçatanlığı isə sosial təminatın səviyyəsinin yüksəlməsinə birbaşa təsir edən əsas amillərdəndir.

- Tahir müəllim, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədi ilə həyata keçirilən tədbirlər barədə nə deyə bilərsiniz?

- Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə iştirak etmiş insanların, müharibə əlillərinin və bu döyüşlərdə şəhid olanların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir.

Təkcə son bir ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil, ümumilikdə isə 6654 mənzil şəhid ailələri və müharibə əlillərinə təqdim edilmiş və cari ildə azı 800 mənzilin verilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, müharibə əlillərinə 265 ədəd, ümumilikdə isə 6144 avtomobil təqdim edilmişdir.

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın şəhid ailələri ilə görüşlərində dövlət başçısı onlara qayğı göstərilməsini onun fəaliyyətində daim prioritet təşkil etdiyini bildirmişdir.

Dövlət başçısının müvafiq fərmanları ilə 12268 şəhidin vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsi nəzərdə tutulmuş və onlardan artıq 3758 şəhid üzrə 5144 vərəsəyə həmin ödənişlər həyata keçirilmişdir. Bu məqsəd üçün ümumilikdə 135 milyon manat vəsait ayrılıb.

Qeyd etmək istərdim ki, əmək pensiyası almaq hüququ olmayan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı adı almış şəxslərə kommunal və digər xidmətlərin ödənilməsi üçün müavinət verilir. Hazırda müavinətin məbləği 55 manat təşkil edir. Bu gün 52 000 nəfər şəxsə aylıq əsaslarla belə müavinət ödənilməkdədir.

Əlavə olaraq qeyd edirik ki, müharibə əlilləri və şəhid ailələri pensiya və ya sosial müavinətlə bərabər Prezidentin aylıq təqaüdləri ilə də təmin olunmaqdadırlar. Ötən dövrdə bu sosial ödənişlərin məbləği mütəmadi olaraq artırılıb və dövlət başçısının son fərmanı ilə şəhid ailəsi üçün Prezident təqaüdünün aylıq məbləği 58 manat artırılaraq 300 manat məbləğinə çatdırılmışdır. Hazırda 12 mindən çox şəhid ailəsini əhatə edən bu təqaüdlər cənab Prezidentin müvafiq tapşırıqları əsasında ötən dövrdə 3 dəfə artırılmışdır.

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi:

reallıqlar, imkanlar, perspektivlər

Azərbaycan Respublikası ötən il müstəqilliyinin 27 illiyini qeyd etdi. Bu 27 il ərzində ölkəmiz böyük, şərəfli və eyni zamanda, mürəkkəb bir inkişaf yolu keçmişdir. Bu yazıda həmin yolun beynəlxalq aləmlə əməkdaşlıq kontekstində təhlükəsizlik məsələləri ilə bağlı hissəsi haqqında təhlillər aparmaq, elmi nəticə və qənaətlərimizi paylaşmaq niyyətindəyik.

90 il çar Rusiyası (1828-1918) və 71 il (1920-1991) sovet imperiyası tərkibində mövcud olmuş Azərbaycan müstəqillik əldə etdikdən sonra 161 illik işğal rejimindən miras qalmış çoxsaylı problemlərlə üzləşməli oldu. Siyasi, iqtisadi və sosial yönümlü mürəkkəb problemlərin həlli axtarışında olan Azərbaycan dövləti daha bir imtahanla da sınağa çəkildi. Bu, Ermənistanın Azərbaycana genişlənməkdə olan təcavüzü və etnik təmizləmə siyasəti ilə bağlı idi.

Bundan savayı, hakimiyyətdə olan Müsavat-AXC cütlüyünün mövcud şəraitə adekvat olmayan məqamda "Cənubi Azərbaycan" problemini qaldırması nəticəsində İranla da münasibətlər son dərəcə kəskinləşdi. Faktiki olaraq Azərbaycan həm şimaldan, həm də cənubdan ağır təzyiq altına düşdü. ABŞ Konqresi isə Azərbaycanı dövlət səviyyəsində hər cür yardımdan məhrum edən "907-ci düzəliş"i qəbul etdi.

Bu şəraitdə dövlətçiliyimiz üçün ən təhlükəli proses separatizm və onun nəticəsində ərazi bütövlüyümüzün növbəti dəfə pozulması təhlükəsi ilə bağlı idi. Erməni işğalçılarının aramsız hücumları, cənubda "Talış Muğan Respublikası"nın elan edilməsi, şimalda "Sadval" təşkilatının ərazi iddiaları və Gəncədə Surət Hüseynova tabe olan hərbi hissənin üsyan etməsi həmin dövrdə ölkəmizin dəhşətli siyasi kataklizmlər mərhələsində olduğunu bir daha təsdiqləyir. Yalnız Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli xahişi və tələbi ilə hakimiyyətə tarixi qayıdışından sonra hədəfinə çevrildiyimiz bu ağır problemlər öz həllini tapmağa başladı.

Mürəkkəb problemlərin həlli məqsədi ilə Heydər Əliyev təkcə düzgün daxili siyasət kursunu deyil, həm də onun davamı və tamamlanması olan uğurlu xarici siyasət strategiyasını müəyyənləşdirdi.

Elman Nəsirov

Milli Məclisin deputatı,
siyasi elmlər doktoru, professor

Bu bir həqiqətdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Heydər Əliyevin memarı olduğu xarici siyasət kursunda başlıca yer tuturdu. Bu məqsədlə Ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə tarixi qayıdışından sonra münaqişənin həllinə nail olmaq üçün ikitərəfli formatda keçirdiyi çoxsaylı görüşlərdə, beynəlxalq forumlarda, ATƏT-in zirvə tədbirlərində, Minsk Qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, həmçinin Ermənistan prezidenti ilə təkbətək danışıqlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi və mahiyyəti, onun törətdiyi nəticələr haqqında təkzibedilməz faktları və arqumentləri ortaya qoymuş, münaqişənin əzəli və tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağı ilhaq edib özünə birləşdirməyə çalışan Ermənistanın Azərbaycana ərazi iddiaları nəticəsində yarandığını bəyan etmişdi. Həmin dövrdə keçmiş Sovet İttifaqı rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz və qərəzli mövqeyi nəticəsində münaqişə dərinləşərək müharibəyə çevrildi. Aqressiv siyasətinə münasibətdə cəzasızlıq mühitindən şirniklənən və beynəlxalq ictimaiyyətin seyrçi mövqeyindən ruhlanan erməni silahlı birləşmələri ən müasir silahlardan istifadə edərək 1992-ci ilin fevral ayında Xocalı soyqırımını həyata keçirdi. 1992-ci ilin mayında isə bu hücumlar Şuşanın, sonra da Laçının işğalı ilə nəticələndi. Nəticə etibarilə erməni silahlı qüvvələri təkcə Dağlıq Qarabağı deyil, ətrafındakı rayonları da işğal etməyə başladı. BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrində erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması və qaçqınların öz doğma yerlərinə qaytarılması tələb olunsa da, bu sahədə beynəlxalq ictimaiyyətin səylərinə və çağırışlarına məhəl qoymayan erməni silahlı birləşmələri Azərbaycan ərazilərinin işğalını davam etdirirdi. 1993-cü ilin aprelindən başlayaraq bir neçə ay ərzində Kəlbəcər, Ağdam, Cəbrayıl, Qubadlı, Füzuli, Zəngilan işğal olundu. Onu da xüsusi qeyd edək ki, işğal prosesi dövründə Ermənistan faktiki olaraq heç bir dövlət tərəfindən təcavüzkar kimi tanınmadı. Yalnız 1993-cü ilin aprel ayında Pakistanın Kəraçi şəhərində İslam Konfransı Təşkilatının 21-ci Konfransında Ermənistanın təcavüzkar dövlət olduğu bəyan edildi. O zamankı Azərbaycan rəhbərliyinin antimilli siyasətindən, ölkədə baş verən hərc-mərclik və xaosdan istifadə edən Ermənistan Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağda qeyri-qanuni hakimiyyət strukturlarını yaratmağa başladı. Nəticədə, Dağlıq Qarabağ separatçıların və Ermənistan silahlı qüvvələrinin tam hərbi nəzarəti altına düşdü. Bu acı reallıqlar fonunda, yuxarıda qeyd etdiyimiz kimi, xalqın təkidli xahişi və tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev ölkədə baş qaldırmış separatçı qüvvələri, Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər törədən cinayətkar qrupları zərərsizləşdirdi və ölkədaxili ictimai-siyasi sabitliyi, dövlət ilə xalqın birliyini, yekdilliyini təmin etdi. Nizami ordu quruculuğu prosesi dönməz xarakter aldı. Nəticələr çox da özünü gözlətmədi. Nizami Azərbaycan Ordusunun cəbhə boyu həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar münaqişənin tənzimlənməsi prosesində Ermənistanın tutduğu ənənəvi güzəştsiz mövqeni sarsıtdı. Ermənistan cəbhədə atəşkəsin elan edilməsinə razılıq verməyə məcbur oldu. Məhz Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin may ayının 12-də atəşkəs haqqında tarixi razılaşma əldə olundu, münaqişənin sülh yolu ilə tənzimlənməsi

üçün ilkin şərait yarandı. Nəticədə, 1992-ci ilin mart ayında 11 dövlətin iştirakı ilə yaradılmış və missiyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində vasitəçilik olan ATƏT-in Minsk Qrupu çərçivəsində sülh danışıqları intensiv xarakter aldı. Konkret qərarlar qəbul edildi. 1994-cü ilin dekabrında ATƏM-in Budapeştdə keçirilən zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi barədə qərar qəbul olundu. ATƏM dövlətlərinin başçıları nizamlamanın mərhələli xarakterini müəyyən edərək ATƏM-in Minsk Konfransının həmsədrlərinə silahlı münaqişənin dayandırılması barədə saziş hazırlamağı tapşırdılar. Saziş bütün tərəflər üçün münaqişənin əsas nəticələrinin aradan qaldırılmasını özündə əks etdirməli və Minsk Konfransının çağırılmasının səbəbi olmalı idi. Münaqişə zonasında sülhün təmin edilməsi üçün ATƏM-in çoxmillətli qüvvələrinin yerləşdirilməsi barəsində də ayrıca qərar qəbul olundu. ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində bir sıra mühüm təkliflər irəli sürüldü. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon Zirvə Görüşü zamanı Heydər Əliyevin siyasi uzaqgörənliyi və qətiyyəti sayəsində Azərbaycanın mövqeyi Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən qəbul edildi, tanındı və müdafiə olundu. Ümummilli lider Heydər Əliyevin münaqişənin aradan qaldırılması sayəsindəki titanik fəaliyyətinin göstəricisi olaraq bəzi faktlara istinad etmək yerinə düşərdi. Belə ki, 1993-2000-ci illər ərzində Ulu öndər ATƏT rəhbərliyi və Minsk Qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir. Heydər Əliyev 1993-cü ildən 2001-ci ilədək 68 ölkənin dövlət başçısı ilə 485 dəfə görüşmüşdür. Bu görüşlərin hamısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur.

Bu bir həqiqətdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu coxvektorlu və balanslı xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi

reallığı ilə bağlıdır. Bu gün dünyada "güclü haqlıdır" məntiqinin işlədiyini nəzərə alaraq, Prezident İlham Əliyev davamlı şəkildə güclənmək xəttini daha da möhkəmləndirmişdir. Yalnız bu halda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli missiyasını üzərinə götürən ATƏT-in Minsk Qrupunun ədalətin bərpasına yönəlik siyasətinin formalaşmasına ümid bəsləmək olar. Hazırda isə bu qurumun fəaliyyəti sanki münaqişəni həll etməyə deyil, onun müharibəyə çevrilməsinin qarşısını almağa yönəlmişdir. Elə Minsk Qrupu bu fəaliyyəti ilə də məlum Aprel döyüşlərinədək öyünürdü. Aprel döyüşləri bu illüziyanı alt-üst etdi. Məlum olduğu kimi, Azərbaycan Ordusu Aprel döyüşlərində Ermənistan silahlı qüvvələrinin növbəti hərbi avantürasının qarşısını əks-həmlə ilə aldı və düşmənə sarsıdıcı zərbələr endirdi. Ermənistan silahlı qüvvələrinin cəbhə bölgəsində atəşkəsi mütəmadi olaraq pozması, aprel ayının əvvəlində geniş hərbi insident törətməsi müharibənin istənilən anda başlanmasının mümkünlüyünün göstəricisidir. 1992-ci ilin mart ayında yaradılmış və münaqişənin tənzimlənməsində vasitəçi missiyasını yerinə yetirən ATƏT-in Minsk Qrupu isə permanent atəşkəsdə israrlıdır. Ermənistan da eyni müvəffəqiyyətlə həmin israrları davamlı olaraq qulaqardına vurur.

Münaqişənin tənzimlənməsində maraqlı olduğunun görüntüsünü yaratmaq və növbəti dəfə beynəlxalq ictimai fikri aldatmaq məqsədi ilə Ermənistanın eks-prezidenti Serj Sarkisyan Azərbaycan Prezidenti İlham Əliyevlə 2008-ci ilin iyun ayında Sankt-Peterburqda, noyabr ayında Moskvada, 2009-cu ilin yanvar ayında Sürixdə, may ayında Praqada, iyun ayında Sankt-Peterburqda, iyul ayında Moskvada, oktyabr ayında Kişinyovda, noyabr ayında Münhendə, 2010-cu ilin yanvar ayında Soçidə, iyun ayında Sankt-Peterburqda, oktyabr ayında Həştərxanda, 2011-ci ilin mart və 2012-ci ilin yanvar aylarında yenidən Soçidə, 2013-cü ilin noyabr ayında Vyanada, 2014-cü ilin avqust ayında Soçidə və sentyabr ayında Nyuportda, oktyabr ayında Parisdə, 2015-ci ilin dekabr ayında Berndə, 2016-cı ilin may ayında Vyanada, iyun ayında isə Sankt-Peterburqda görüşsə də, tutduğu ənənəvi qeyri-konstruktiv mövqe ucbatından problemin həllində real nəticə hasil olmamışdır. Lakin bu davranış onun siyasi taleyi üçün olduqca acınacaqlı nəticələr doğurmuşdur.

Serj Sarkisyanın məhz işğal siyasətini davam etdirməsi nəticə etibarilə onun "taxt-tacı"nı laxlatmış, ölkədə siyasi kataklizmləri labüd etmiş, Ermənistanda inqilab baş vermiş və onun nəticəsində Serj Sarkisyan tarixin qaranlıq arxivinə atılmışdır.

Ermənistanın siyasi tarixində Nikol Paşinyan dövrü başlamışdır. Onun nə qədər davamlı olması Ermənistanın yeni rəhbərinin öz sələflərinin səhvlərindən nə dərəcədə ibrət dərsi almasından asılı olacaq. Əgər Nikol Paşinyan dərk etsə ki, işğalçılıq siyasəti Ermənistanın üzləşdiyi bütün böhran və kataklizmlərin əsas fundamental səbəbidir və o, aradan qaldırılmalıdır; bu halda Nikol Paşinyan rəhbərlik etdiyi dövlət və xalqın qaranlıq tunelden çıxışını təmin edə biləcək.

Ən azı bu eniş və onun məlum ünvanı qorxusu Nikol Paşinyanı konstruktiv mövqe axtarışına sövq etməlidir. Zənnimizcə, hazırda bu istiqamətdə müəyyən meyillər diqqətdən yayınmır. Onlar hansılardır? Birincisi, hakimiyyətinin ilk aylarında qondarma "Dağlıq Qarabağ rejimi"nin münaqişənin tənzimlənməsi prosesində bir tərəf kimi iştirakında israrlı olan Nikol Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevin prinsipial və qətiyyətli mövqeyi qarşısında geri çəkilməli oldu. Həmin mövqeyə görə, münaqişənin yalnız iki tərəfi vardır. Bunlar Ermənistan və Azərbaycandır. Bundan fərqli yanaşma qəbuledilməzdir. Hadisələrin sonrakı gedişi göstərdi ki, Ermənistanın yeni rəhbərliyi Azərbaycan Prezidentinin polad iradəsi qarşısında geri çəkilərək 2018-ci ilin sentyabr ayında Düşənbədə, dekabr ayında Sankt-Peterburqda və cari ilin yanvar ayında Davosda qondarma "Dağlıq Qarabağ rejimi"nin iştirakı olmadan danışıqlar aparmaq məcburiyyətində qalmışdır. Eyni məntiqlə də artıq dörd dəfə Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşmüşdür. Xüsusilə cari ilin 16 yanvar tarixində hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində Parisdə aparılan danışıqlarda konkret olaraq hər iki tərəfin əhalisinin sülhə, təhlükəsizliyə və dayanıqlı regional inkişafa hazırlanması yolları müzakirə edilmişdir. Tərəflər bu istiqamətdə əməli addımların atılmasının zəruriliyi ilə bağlı ortaq mövqeyə malik olduqlarını bildirmişlər.

İkincisi, Nikol Paşinyanın timsalında Ermənistanda hakimiyyətə gəlmiş və onu daha da möhkəmləndirməkdə olan qüvvələrlə ona qarşı dayanan müxalif tərəflər arasında ziddiyyətlər yeni məzmun kəsb etməyə başlayır. Onu da nəzərdən qaçırmayaq ki, Nikol Paşinyana müxalif radikal qüvvələrin başında Dağlıq Qarabağın erməni klanı dayanır. Əslində onlar arasında "kim-kimi" prinsipi üzrə açıq mübarizəyə start verilib. Bu mübarizənin kompromissiz olacağını proqnozlaşdırmaq elə də çətin deyil. Bu mübarizədə Nikol Paşinyan Dağlıq Qarabağ klanını siyasi səhnədən tam uzaqlaşdıra bilsə, bu, onun ikinci inqilabı olacaq. Bu hadisənin regionun təhlükəsizliyi üçün faydalı ola biləcəyini ehtimal etmək mümkündür.

Azərbaycan tərəfinin münaqişənin həlli yolları ilə bağlı mövqeyi dəyişməzdir. Azərbaycan dövləti münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində və Dağlıq Qarabağın ermənilərinə respublikamızın hüdudları daxilində ən yüksək muxtariyyət statusu verilməsi yolu ilə həllini dəstəkləyir. Azərbaycan üçün bu çərçivədən kənarda hər hansı bir həll yolu qəbuledilməzdir.

Bələdiyyə fəaliyyətinin 20 ili:

Azərbaycanda səmərəli yerli özünüidarəetmə sisteminin formalaşması

Kamran Bayramov
Milli Məclisin deputatı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son on beş ildə gələcəyə hesablanmış əhatəli dövlət proqramlarının, genişmiqyaslı sosial və infrastruktur layihələrinin həyata keçirilməsi ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş, demokratik proseslərə güclü təkan vermiş, onun beynəlxalq aləmdə nüfuzunu gücləndirmişdir.

Bələdiyyələr artıq 20 ildir ki, fəaliyyət göstərir, Azərbaycanda aparılan köklü islahatlar və yaşanan dinamik tərəqqi dövründə özünün inkişaf yolunu keçir, vətəndaşların maraq və mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində iştirak edir, onların etibarını qazanmağa, cəmiyyətimizdə özünəməxsus yer tutmağa səy göstərir, fəallıqlarını artırır, öz səlahiyyətləri çərçivəsində konkret işlər görür.

Bələdiyyələrin hüquqi statusunun qanun çərçivəsində müəyyənləşdirilməsi ilk dəfə olaraq məhz Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapdı. Dövlətçilik tarixinə mühüm hadisə kimi daxil olan bu tarixi gündən sonra 1999-cu ilin dekabrında ilk bələdiyyə seçkilərinin keçirilməsi ilə bələdiyyələr formalaşmağa və onların hüquqi bazasını təşkil edən normativ aktlar qəbul edilməyə başlandı. Bu aktlarda bələdiyyələrin bir qurum olaraq hüquqi statuslarının müəyyən edilməsi, onların fəaliyyətinin əsas prinsipləri, maliyyə-iqtisadi təminatları və digər məqamlar öz əksini tapdı.

Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində dövlətin idarəetmə sistemi daha da təkmilləşdirilmiş, bununla yanaşı yerli özünüidarəetmənin səmərəliliyinin artırılması, bələdiyyələrin səlahiyyət və fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilmişdir.

Nəticədə, respublikamızda bələdiyyə institutu tam olaraq formalaşmış, ölkənin şəhər, qəsəbə və kəndlərində vətəndaşlarımızın rifahı naminə sosial-iqtisadi inkişafın təmin olunmasında fəal iştirak edən yerli özünüidarəetmə sistemi bərqərar edilmişdir.

Ölkədə yerli özünüidarəetmə siyasətini həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsində Bələdiyyələrlə iş sektoru, qanunvericilik bazasının yardılması və təkmilləşdirilməsi üçün Milli Məclisdə Regional məsələlər komitəsi, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirmək, onlara metodoloji yardım göstərmək və maarifləndirilməsini təmin etmək məqsədi ilə Ədliyyə Nazirliyində Bələdiyyələrlə İş Mərkəzi, onların fəaliyyətinin əlaqələndirilməsinə, həmin fəaliyyətin beynəlxalq hüquq normalarına və mövcud qanunvericiliyə uyğun qurulmasına və ortaya çıxan problemlərin birgə həll edilməsinə köməklik göstərmək yolu ilə yerli özünüidarənin möhkəmlənməsi və

inkişaf etdirilməsi üçün Azərbaycan şəhər, qəsəbə və kənd bələdiyyələrinin milli assosiasiyaları yaradılmışdır. Bələdiyyələrin səlahiyyətlərinə aid məsələlərin həllində onlara kömək etmək məqsədi ilə vətəndaşların yaşayış yerləri üzrə əksər şəhər və qəsəbə bələdiyyələrində məhəllə komitələri təsis edilmişdir.

1999-cu ildə ilk bələdiyyə seçkiləri keçirilmiş, ölkəmizdə bələdiyyə institutunun inkişaf etdirilməsi məqsədi ilə mühüm qanunvericilik bazası formalaşdırılmış, bələdiyyələrin statusu, qulluğunun təşkili, maliyyəsinin əsasları və digər sahələri əhatə edən çoxsaylı qanunlar qəbul olunaraq onların səmərəli fəaliyyəti üçün dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Belə ki, bələdiyyələrin fəaliyyətini tənzimləyən "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə üzvünün statusu haqqında", "Bələdiyyələrin nümunəvi Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyələrin əraziləri və torpaqları haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Yerli (bələdiyyə) vergi və ödənişlər haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" və digər əhəmiyyətli qanunlar qəbul olunmuş, Azərbaycan Respublikasının Torpaq, Su, Mülki, Seçki, Vergilər, İnzibati Xətalar məcəllələrinə bələdiyyələrlə bağlı müvafiq müddəalar daxil edilmişdir.

Qəbul olunmuş qanunlarda yerli özünüidarəetmənin çox mühüm məsələləri - yerli büdcənin formalaşdırılması, təsdiqi və icrası, yerli vergi və ödənişlərin müəyyən edilməsi, yerli sosial müdafiə, yerli iqtisadi, ekoloji proqramların işlənib hazırlanması və reallaşdırılması, mülkiyyət münasibətlərinin formalaşdırılması, ərazi və digər məsələlər öz əksini tapmışdır.

Eyni zamanda, ölkəmiz yerli özünüidarəetmə ilə bağlı hüquqi münasibətləri tənzimləyən bir sıra beynəlxalq sənədlərə qoşulmuş, o cümlədən bələdiyyələr üçün başlıca beynəlxalq normativ hüquqi akt hesab edilən "Yerli özünüidarə haqqında" Avropa Xartiyası Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixli qanunu ilə təsdiq edilmişdir. Ümumilikdə, bələdiyyələrin fəaliyyətini tənzimləyən 30-dan çox qanun, 500-dən çox normativ hüquqi akt qəbul edilmiş, bir çox qanunlara əlavə və dəyişikliklər olunmuşdur.

Son illərdə bələdiyyə qanunvericiliyi daha da təkmilləşdirimiş, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, "Yerli (bələdiyyə) vergi və ödənişlər haqqında", "Bələdiyyə qulluğu haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası qanunlarında dəyişikliklər edilmiş, "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında" və "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" qanunlar qəbul olunmuşdur ki, bu da bələdiyyələrin cəmiyyətdə nüfuzunun artırılmasına, fəaliyyətinin təkmilləşdirilməsinə, maliyyə, iqtisadi və kadr potensialının gücləndirilməsinə, bələdiyyələrin dövlət və vətəndaşlar qarşısında məsuliyyətinin artırılmasına xidmət etmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yerli özünüidarəetmə orqanlarına dövlət dəstəyi gücləndirilmiş, bələdiyyələrin gəlir və xərclərinin tənzimlənməsi, yerli büdcə kəsirinin örtülməsi məqsədi ilə hər

Milli Məclisdə bələdiyyələrin fəaliyyəti ilə bağlı tədbir

il dövlət büdcəsindən bələdiyyələrə dotasiyalar ayrılmış, yarandığı vaxtdan bu günə qədər onlara 70 milyon manatdan çox dotasiya verilmişdir. Qanunvericilikdə edilmiş dəyişikliklərə əsasən dotasiyalarla yanaşı, bələdiyyələrə subvensiyaların, yəni məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən maliyyə vəsaitinin ayrılması nəzərdə tutulmuş, bununla əlaqədar bələdiyyələr tərəfindən gəlir gətirəcək layihələrin reallaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2019-cu il üçün dövlət büdcəsindən 1 milyon manat məbləğində subvensiyalar ayrılmışdır.

Özünüidarəetmənin institusional inkişafına, bələdiyyələrin fəaliyyətlərinin təkmilləşdirilməsinə, yerli əhəmiyyətli sosial məsələlərin həllinin sürətləndirilməsinə xüsusi önəm verilərək bələdiyyələrin işi vətəndaş cəmiyyətinin qurulmasında və demokratik prinsiplərin tətbiqində rolunun artırılması istiqamətləri üzrə qurulmuş, bu sahədə geniş və əhatəli proqramlar hazırlanmış, bələdiyyələrin qabaqcıl təcrübəsi öyrənilərək yayılmış, yerli özünüidarəetmə orqanları ilə dövlət, qeyri-hökumət və donor təşkilatları arasında əlaqələr qurulmuş, maarifləndirmə işləri aparılmışdır.

Bu fəaliyyətdə bələdiyyələrin milli assosiasiyaları böyük rol oynamış, bələdiyyələrlə bir sıra görüşlər təşkil edərək onların problemləri ilə yerlərdə tanış olunmuş, müraciət və təklifləri dinlənilmiş, müvafiq təhlillər aparılmışdır. Bakı şəhərində və respublikanın bütün rayonlarında keçirilmiş bu görüşlərdə bələdiyyələrlə əlaqələrin səmərəliliyini və çevikliyini təmin etmək məqsədi ilə bələdiyyə sədrlərinin şəhər və rayon şuraları formalaşdırılmışdır.

Milli assosiasiyaların təşəbbüsü ilə 2007-ci ildə regionların sosial-iqtisadi inkişafında, 2008-ci ildə vətəndaş cəmiyyətinin qurulmasında və demokratik prinsiplərin tətbiqində bələdiyyələrin roluna, 2014-cü ildə isə yerli əhəmiyyətli sosial məsələlərin həllində fəaliyyətin təşkili və qarşıda duran vəzifələrə həsr olunmuş bələdiyyə sədrlərinin I, II və III ümumrespublika toplantıları keçirilmişdir.

Dünya təcrübəsi onu göstərir ki, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması, iqtisadi və maliyyə potensialının gücləndirilməsi yollarından biri də onların birləşməsidir. Qeyd edilməlidir ki, yarandığı dövrdə ölkəmizdə 2700-dən çox bələdiyyə fəaliyyət göstərirdi. Bununla əlaqədar bələdiyyələrin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasına, onların iqtisadi resurslarından istifadənin səmərəsinin yüksəldilməsinə, yerli əhəmiyyətli məsələlərin həllində rolunun artırılmasına və kadr potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilərək "Bələdiyyələrin birləşməsi, ayrılması və birgə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 2009-cu ildə bələdiyyələr birləşərək sayı 1718-ə endirilmiş, 2014-cü ildə isə növbəti birləşmə prosesi nəticəsində onların sayı 1607-yə qədər azalmışdır.

Yerli özünüidarəetmə orqanlarında xidmət, bələdiyyəyə rəhbərlik, onun fəaliyyətinin təşkili idarəçilik bacarığı, bilik, yüksək intellekt və ixtisas tələb edir. Bu səbəbdən də bələdiyyə üzvlərinin və sədrlərin keyfiyyət tərkibi daim aktual olan məsələdir. Bələdiyyələrin qarşısında duran vəzifələrin icrası, onların fəaliyyətinin səmərəliliyinin artırılması, mövcud resursların yerli səviyyədə müəyyən edilmiş hədəflərə, sosial yönümlü məsələlərin həllinə yönəldilməsi bələdiyyə kadrlarından birbaşa asılıdır. İlk iki bələdiyyə seçkilərinə nəzər salsaq görərik ki, bələdiyyə üzvlərinin əksəriyyəti yerli özünüidarəetmə haqqında kifayət qədər təsəvvürə malik olmamışlar.

Bələdiyyələrin həmin dövrdə olan durumu, bələdiyyə üzvlərinin zəif fəaliyyətləri ilə razılaşmayan seçicilər 2009-cu ildə müvafiq nüfuza və təcrübəyə malik olan şəxslərə etimad göstərmişlər. Nəticə olaraq, seçilmiş üzvlər arasında ali təhsillilərin sayı 29,7%, qadınların sayı 22%, gənclərin sayı isə 25% artmışdır. Keyfiyyət tərkibinin gücləndirilməsi bələdiyyələrin fəaliyyətinin məzmunca yeni mərhələsinin əsasını qoymuşdur.

Cəmiyyətdə bələdiyyə institutuna marağın artması müşahidə olunmuşdur. Belə ki, bələdiyyələrin və bələdiyyə üzvlərinin sayının azalmasına baxmayaraq, 2014-cü il bələdiyyə seçkilərində iştirak etmək üçün ölkə üzrə 38064 nəfər müraciət etmiş (2009-cu illə müqayisədə +2674 nəfər, +7,5%), 37077 nəfər qeydə alınmışdır (+6123, +19,8%). Orta hesabla 2009-cu ildə bir bələdiyyə üzvü yerinə 1,9 nəfər düşdüyü halda, 2014-cü ildə bu göstərici 2,5 nəfər olmuşdur. Namizədlər arasında mənsubiyyətə görə təmsil olunan partiyaların sayı 2009-cu ildə 29 olduğu halda, bu seçkilərdə 30-a çatmışdır.

2009-cu il bələdiyyə seçkilərində seçici fəallığı 31,86% olduğu halda, 2014-cü ilin dekabr ayının 23-də keçirilmiş seçkilərdə seçici fəallığı yüksəlmiş, onların 38,93%-i (+7,07%) seçkilərdə iştirak etmiş, bu da əhalinin yerli özünüidarəetmə orqanlarına olan marağının artdığını bir daha göstərmişdir.

2014-cü ildə keçirilmiş bələdiyyə seçkiləri nəticəsində 2009-cu illə müqayisədə ali təhsillilərin sayı 25,8%, qadınların sayı 8,9%, gənclərin sayı isə 9,2% yüksəlmişdir.

2015-ci ilin yanvar ayında bələdiyyələrdə yeni seçilmiş tərkiblərin birinci iclasları keçirilərək bələdiyyə sədrləri seçilmiş, onlar arasında ali təhsillilərin sayı 2009-cu ildə 88,2% olduğu halda, 99,9%, qadınların sayı 2009-cu ildə 19,1% olduğu halda, 32,6%, gənclərin sayı isə 2009-cu ildə 19,6% olduğu halda, 30% təşkil etmişdir.

Göstərilən rəqəmləri nəzərə alaraq belə qənaətə gəlmək olar ki, 2019-cu il bələdiyyə seçkilərində seçici fəallığı və bələdiyyələrin keyfiyyət tərkibi üzrə seçki hüququna malik olan vətəndaşların fəallığı artacaq ki, bu da bələdiyyələrin fəaliyyətinin növbəti illərdə daha səmərəli olacağına, onların vətəndaşlara göstərdikləri xidmət səviyyəsinin daha yüksək və keyfiyyətli olmasına xidmət edəcəkdir.

Yerli əhəmiyyətli məsələlərin həlli üçün görülmüş işlərin genişləndirilməsində bələdiyyələr xarici həmkarların təcrübə və imkanlarından da səmərəli istifadə edirlər. Son illər ərzində beynəlxalq təşkilatlarla əlaqələrin qurulması və möhkəmləndirilməsi işi də gündəmdə saxlanılmışdır. Əməkdaşlıq çərçivəsində Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi, Avropa İttifaqının Şərq Tərəfdaşlığı Ölkələrinin Regional və Yerli Hakimiyyətlər Nümayəndələrinin Konfransı və digər nüfuzlu beynəlxalq təşkilatlarla işgüzar münasibətlər qurulmuşdur. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin üzvləri, milli assosiasiyaların sədrləri, bələdiyyə sədr və üzvlərindən ibarət nümayəndə heyətləri həmin təşkilatların müxtəlif xarakterli tədbirlərində, o cümlədən plenar sessiyalarda və müvafiq komitələrin iclaslarında iştirak edir, xarici dövlətlərin yerli özünüidarəetmə orqanları ilə təmaslar yaradaraq təcrübə mübadiləsi aparır, ölkəmizi layiqincə təmsil edirlər.

2008-ci ildən başlayaraq artıq 10 ildir ki, Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyələrinə uyğun olaraq ölkənin bütün bələdiyyələrində "Azərbaycanda Yerli Demokratiya Həftəsi" təbirləri keçirilir. Həftələrin keçirilməsində əsas məqsəd bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi, yerli özünüidarəetmə proseslərində əhalinin rolunun, imkanlarının, eləcə də həmrəyliyinin artırılmasıdır. Artıq ənənəyə çevrilmiş bu həftələr ərzində bələdiyyələr tərəfindən sakinlərlə hesabat xarakterli görüşlər keçirilir, "açıq qapı günləri" və "qaynar telefon xətləri" təşkil edilir, ərazilərdə "bələdiyyə poçt qutuları" quraşdırılır. Vətəndaşların böyük aktivliyi ilə müşahidə olunan bu həftələr bələdiyyələrin vətəndaşlarla əlaqələrinin möhkəmlənməsinə də birbaşa xidmət edir.

Azərbaycan bələdiyyələrinin Türkiyə, Gürcüstan, Almaniya, Avstriya, Latviya, Litva, Estoniya, Rusiya kimi ölkələrin bələdiyyə orqanları və onların yaratdıqları milli ittifaq və birlikləri ilə də sıx əməkdaşlıq əlaqələri qurulub, qardaşlaşma haqqında 30-a yaxın protokol və saziş imzalanıb, qarşılıqlı səfərlər təşkil edilib, qardaşlaşmış bələdiyyələr arasında təcrübə mübadiləsi həyata keçirilir.

Yekun olaraq belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasında yerli özünüidarəetmə orqanlarının səmərəli fəaliyyəti üçün dövlət tərəfindən sistemli tədbirlər həyata keçirilmiş, mükəmməl qanunvericilik bazası və institusional təsisatlar yaradılmış, bələdiyyə institutu tam formalaşmışdır. Əminliklə demək olar ki, ölkəmizin sürətli sosial-iqtisadi inkişafı fonunda gələcəkdə də bələdiyyə sisteminin təkmilləşdirilməsi, bələdiyyə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, maliyyə və iqtisadi potensialının gücləndirilməsi, həmin qurumlarda çalışan kadrların keyfiyyət tərkibinin daha da yaxşılaşdırılması prosesi davam etdiriləcəkdir.

Əhalinin səmərəli məşğulluğunun təmin edilməsinin ümumi strateji və sosial-demoqrafik istiqamətləri

Rövşən Muradov

Milli Məclis Aparatı İqtisadi qanunvericilik şöbəsi müdirinin müavini, 3-cü dərəcə dövlət müşaviri, iqtisad elmləri doktoru

Prezident İlham Əliyev cənablarının siyasi kursunun ana xətlərindən birini əhalinin səmərəli məşğulluğunun təminatı, kadr hazırlığı, o cümlədən peşə hazırlığının dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılması ilə rəqabət qabiliyyətli iqtisadi sistemin bərqərar edilməsi təşkil edir. Çünki məşğulluq və işsizlik probleminin həllinin təkcə ölkənin sosial-iqtisadi inkişafı, onun əhalisinin yaşayış səviyyəsinin və gəlir mənbələrinin artırılması üçün deyil, həm də milli maraqlarının və təhlükəsizliyinin qorunub saxlanması üçün böyük əhəmiyyəti var.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev cənabları 2003-cü ilin oktyabr ayında ölkəmizə Prezident seçildikdən sonra noyabr ayının 17-də keçirdiyi Nazirlər Kabinetinin ilk iclasında demişdir: "Azərbaycan üçün ən böyük problem işsizlik problemidir. Bu istiqamətdə görüləcək tədbirlər nəticəsində əminəm ki, həmin problem də aradan qaldırılacaqdır. Məqsədimiz odur ki, növbəti beş ildə Azərbaycanda 600 min iş yeri açılsın...". Bu məqsədə nail olmaq üçün cənab İlham Əliyevin iradəsi və rəhbərliyi ilə 2004-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı, demoqrafiya və əhali sakinliyinin inkişafı, Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi və digər sahələr üzrə reallaşdırılan dövlət proqramları və bu kimi dövlət tədbirləri Azərbaycanda yeni iş yerlərinin açılmasına, məşğulluğun artmasına və əmək bazarının inkişafına gətirib çıxarmışdır. Bu dövlət proqramlarında ölkədə və onun regionlarında əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə köməklik göstərən yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərin aradan qaldırılması və məşğulluğun artırılmasını stimullaşdıran şəraitin yaradılması; əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun gücləndirilməsinə yönəldilmiş infrastrukturun təkmilləşdirilməsi; kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığının dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılması və rəqabət qabiliyyətli iqtisadi sistemin təmin edilməsi baxımından müasir tələblərə cavab verən ixtisaslı kadrların hazırlanması ilə bağlı bir sıra tədbirlər öz əksini tapmışdır. Həmin tədbirlərin həyata keçirilməsi nəticəsində son 14 il ərzində (2003-2017-ci illər) ölkəmizdə 2 milyonadək yeni iş yeri açılmış, hansı ki, onların da 73,3%-i daimi iş yerlərinin payına düşmüşdür (1-ci cədvələ bax).

Müqayisə edilən dövrdə ölkə iqtisadiyyatında məşğul olanlar arasında dövlət sektorunda məşğul olanların xüsusi çəkisi 7,5 faiz bənd azalaraq 31,5%-dən 24%-ə düşmüş, qeyri-dövlət sektorunda məşğul olanların xüsusi çəkisi isə müvafiq surətdə 68,5%-dən 76%-ə qalxmışdır (2-ci cədvələ bax).

2-ci cədvəlin məlumatlarından görünür ki, respublikamızda 2003-2017-ci illərdə əmək qabiliyyətli yaşda olan iqtisadi fəal əhalinin məşğulluq səviyyəsi 5,8 faiz bənd yüksələrək 89,1%-dən 94,9%-ə, o cümlədən şəhər yerlərində 8,2 faiz bənd artaraq 85,7%-dən 93,9%-ə, kənd yerlərində isə 3 faiz bənd artaraq 92,9%-dən 95,9%-ə qalxmışdır. Eyni vəziyyəti əmək qabiliyyətli iqtisadi fəal əhalinin işsizlik səviyyəsinin azalmasında da görmək olar. Belə ki, qeyd edilən dövrdə ölkə üzrə əmək qabiliyyətli iqtisadi fəal əhalinin işsizlik səviyyəsi 5,4 faiz bənd azalaraq 10,5%-dən 5,1%-ə; o cümlədən şəhər yerlərində 8,4 faiz bənd azalaraq 14,3%-dən 6,1%-ə, kənd yerlərində isə 3 faiz bənd azalaraq 7,1%-dən 4,1%-ə düşmüşdür. Bu dəyişikliklər müəyyən dərəcədə bir-birindən fərqlənməklə əmək qabiliyyətli yaşında iqtisadi fəal kişi və qadınlar arasında da özünü təzahür etdirir. Ancaq ölkədə, onun şəhər və kənd yerlərində qadınların işsizlik səviyyəsi kişilərlə müqayisədə yüksəkdir. 2017-ci ilin məlumatlarına əsasən respublikamızda işsizlərin 57,8%-i qadınların payına düşmüşdür. Onu da qeyd edək ki, 2017-ci ildə ölkəmizdə mövcud olmuş əmək qabiliyyətli yaşda olan iqtisadi fəal əhalinin 1362,3 min nəfəri və ya 26,8%-i 15-29 yaşda olan iqtisadi fəal gənclərdir. Apardığımız araşdırmalar göstərir ki, respublikamızda, onun ayrı-ayrı ərazilərində və müxtəlif sosial-demoqrafik qruplarından olan əhali arasında məşğulluq və işsizlik səviyyəsində yaranmış vəziyyət və fərqli cəhətlər bir sıra sosial-iqtisadi, demoqrafik, milli, mənəvi-psixoloji və digər amillərlə, ilk növbədə isə məhsuldar qüvvələrin inkişaf səviyyəsi və ölkə ərazisində düzgün yerləşdirilməsi; iqtisadiyyatın inkişaf səviyyəsi, sahə və ərazi quruluşu, sosial-infrastruktur sahələrinin inkişaf səviyyəsi və quruluşu; əhalinin təhsil səviyyəsi, peşə-ixtisas quruluşu; məşğulluq sahəsindəki milli adət-ənənələr və sairlə izah edilir. Təkcə bunu demək kifayətdir ki, rəsmi statistik məlumatlara əsasən 2017-ci ildə respublikamızda real işsiz əhalinin (251,7 min nəfər) cəmi 33,4%-nin, o cümlədən qadınların 31,7%-nin ali, orta ixtisas

1-ci cədvəl

Azərbaycan Respublikasında yeni yaradılmış iş yerlərinin iqtisadi rayonlar üzrə bölünməsi və quruluşunun vəziyyəti

("01" oktyabr 2003-cü il – "31" dekabr 2017-ci illərdə - min vahid)					
Regionların adları	**İş yerlərinin sayı (min vahid)**		**Onlardan daimi iş yerləri**		**Bütün iş yerlərindən daimi iş yerləri %-lə**
	Cəmi	**Yekuna nisbətən %-lə**	**Cəmi**	Yekuna nisbətən %-lə	
Azərbaycan Respublikası	1958,4	100	1436,2	100	73,3
O cümlədən: Bakı şəhəri	483,9	24,7	476,9	33,2	98,6
Abşeron	126,2	6,4	101,4	7,1	80,3
Gəncə-Qazax	251,8	12,8	153,9	10,7	61,1
Şəki-Zaqatala	96,9	5	75,3	5,2	77,7
Lənkəran	162,3	8,3	103,8	7,2	64
Quba-Xaçmaz	98,6	5	62,4	4,4	63,8
Aran	458,7	23,4	273,7	19,1	59,7
Yuxarı Qarabağ	63,4	3,2	32,3	2,2	51
Kəlbəcər-Laçın	13,9	0,7	12,2	0,9	87,8
Dağlıq Şirvan	66,5	3,4	39,4	2,7	59,2
Naxçıvan MR	71,5	3,8	54,8	3,8	76,6
Nazirlik, komitə, şirkət, səhmdar cəmiyyət və digər mərkəzi təşkilatlar (iqtisadi rayonlar və regionlar üzrə)	64,7	3,3	49,6	3,5	76,7

və ilk peşə-ixtisas təhsili olduğu halda, müvafiq surətdə 66,6 və 68,3%-nin xüsusi peşə-ixtisas təhsili olmamışdır. Ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili olan işsiz əhalinin 54,2%-ni, xüsusi peşə-ixtisas təhsili olmayan işsiz əhalinin isə 59,7%-ni qadınlar təşkil etmişlər.

Son illərdə məşğulluq xidməti orqanları tərəfindən işə düzəldilən şəxslərin cins və yaş tərkibini xarakterizə edən məlumatların təhlili və apardığımız araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, ən çox işə düzəltmə halları ilk peşə-ixtisas təhsili olan, tam orta və orta ixtisas məktəblərini bitirən şəxslər arasında, ən az işə düzəltmə halları isə ali məktəblərin məzunları arasında qeydə alınmışdır. Nəzərə alsaq ki, 2017-ci ildə məşğulluq xidməti orqanlarında rəsmi işsizlik statusu almış 24,5 min nəfər kişinin 60,9%-ni; 14 min nəfər qadının isə 50,2%-ni ali təhsili olan şəxslər; müvafiq surətdə 28,4% və 8,4%-ni orta ixtisas təhsili olanlar; 38,7% və 7,4%-ni ilk peşə-ixtisas təhsili olanlar və cəmi 1,9% və 3,6%-ni isə tam orta təhsili olan şəxslər təşkil etmişlər, onda bütün bu şəxslərin işə düzəldilməsinin nə qədər mürəkkəb bir məsələ olduğunu təsəvvür

2-ci cədvəl

Azərbaycan Respublikasında, onun şəhər və kənd yerlərində əmək qabiliyyətli yaşda iqtisadi fəal əhalinin cins tərkibi üzrə məşğulluq və işsizlik səviyyəsinin dinamikası (min nəfər və faizlə)

	2003			2010			2017		
	Cəmi	Onlardan		Cəmi	Onlardan		Cəmi	Onlardan	
		Kişilər	Qadınlar		Kişilər	Qadınlar		Kişilər	Qadınlar
Şəhər və kənd yerlərində									
İqtisadi fəal əhali	3690,1	2133,4	1566,7	4552,3	2287,7	2164,6	4953,1	2563,1	2390
İqtisadiyyatda məşğul olanlar	3286,4	1923,7	1362,7	4195,1	2185,2	2009,9	4701,4	2456,9	2244,6
Məşğulluq səviyyəsi %-lə	89,1	90,2	87	94,2	92,5	92,9	94,9	95,9	93,9
İşsizlər	403,7	209,7	204	257,2	102,5	154,7	251,7	106,2	145,3
İşsizlik səviyyəsi %-lə	10,9	9,8	13	5,8	4,5	7,1	5,1	4,1	6,1
Şəhər yerlərində									
İqtisadi fəal əhali	1998,5	1137,5	811	2389,8	1226,7	1163,1	2523,4	1302,8	1220,6
İqtisadiyyatda məşğul olanlar	1669,2	998,8	670,4	2247,2	1167,4	1079,8	2370,6	1236,9	1133,2
Məşğulluq səviyyəsi %-lə	85,7	87,8	82,7	94	95,2	92,8	93,9	94,9	92,9
İşsizlər	279,3	138,7	140,6	142,6	59,3	83,3	152,8	65,9	86,9
İşsizlik səviyyəsi %-lə	14,3	12,7	17,3	6	4,8	7,2	6,1	5,1	7,1
Kənd yerlərində									
İqtisadi fəal əhali	1741,6	996	745,6	2062,5	1061	1001,5	2429,7	1260,3	1169,4
İqtisadiyyatda məşğul olanlar	1617,2	925	692,2	1947,9	1017,8	930,1	2330,8	1220	1110,8
Məşğulluq səviyyəsi %-lə	92,9	92,9	92,8	94,4	95,9	92,9	95,9	96,8	95
İşsizlər	124,4	71	53,4	114,6	43,1	71,5	98,9	40,3	58,6
İşsizlik səviyyəsi %-lə	7,1	7,1	7,2	5,6	4,1	7,1	4,1	3,2	5

etmək o qədər çətin olmaz. Onu da nəzərə almaq lazımdır ki, hələlik respublikamızda demoqrafik vəziyyət müsbət xarakter daşıyır və son illərdə əhalinin illik ümumi artımı orta hesabla 112,5 min nəfəri ötüb keçmiş və ya 1,21% yüksəlmişdir. Bu isə heç şübhəsiz ki, yaxın gələcəkdə ölkənin əmək potensialının həcminin xeyli artmasına səbəb olacaqdır. Yaxın 5 il ərzində ölkənin əmək bazarına təqribən 444,6 min nəfər şəxsin daxil olacağı gözlənilir. Buna görə də hazırda ölkəmizdə əmək potensialının səmərəli məşğulluğunun təmin edilməsinin mühüm strateji istiqamətlərindən biri ixtisaslı iş qüvvəsinin hazırlanmasından ibarət olmalıdır. Ancaq apardığımız araşdırmaların əsasında müəyyən edilmişdir ki, hazırda ölkənin orta ixtisas və ali təhsil müəssisələrində hazırlanan kadrların təqribən 30%-i humanitar və sosial; 16,4%-i iqtisadiyyat və idarəetmə; 14%-i maarif ixtisası qruplarında təhsil alanların payına düşdüyü halda, cəmi 12-13%-i texniki ixtisas qruplarında təhsil alanlardır. Buna görə də kadr hazırlığı sistemi, o cümlədən peşə hazırlığı və ixtisasartırma şəbəkələri dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılmalı; rəqabət qabiliyyətli iqtisadi sistemin təmin edilməsi baxımından müasir tələblərə cavab verən ixtisaslı kadrlar hazırlanmalı; o cümlədən sənaye, kənd təsərrüfatı, rabitə və informasiya texnologiyaları, turizm və digər sahələr üçün kadr hazırlığına diqqət artırılmalıdır.

Ölkədə əhalinin səmərəli məşğulluğunun təşkil edilməsinin mühüm sosial-demoqrafik istiqamətlərindən biri də qadın əmək potensialından səmərəli istifadə edilməsi və məşğulluq sahəsində gender bərabərliyinin təminindən ibarətdir.

Hazırda bütün dünyada olduğu kimi ölkəmizdə də məşğulluq sahəsində gender bərabərsizliyi mövcuddur və onun tədricən və dönmədən aradan qaldırılması sahəsində tədbirlər görülüb həyata keçirilməkdədir. Bundan sonra da ölkəmizdə məşğulluq sahəsində elə tədbirlər

işlənib hazırlanmalı və həyata keçirilməlidir ki, iqtisadiyyatın ayrı-ayrı sahələrində qadın və kişi əməyinin tətbiqi arasında müəyyən optimal nisbət yaratmaq mümkün olsun. Ancaq məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsinə bütün iqtisadi fəaliyyət növlərində qadın və kişi əməyinin tətbiqinin süni şəkildə bərabərləşdirilməsi kimi deyil, onların orqanizmlərinin fizioloji və psixoloji xüsusiyyətləri, təhsil, peşə-ixtisas səviyyələri, məşğulluq ənənələri və başqa keyfiyyət göstəriciləri nəzərə alınmaqla hər bir konkret halda elə seçim etməklə yanaşmağı tələb edir ki, bu, gələcəkdə qadın əməyinin tətbiqi üçün daha münasib və əlverişli olan və nisbətən yüngül və eyni zamanda, yüksək əmək haqqı verilən iş yerlərində çalışmalarına imkan versin.

Hazırda ölkəmizdə əhalinin səmərəli məşğulluğunun təmin edilməsinin mühüm istiqamətlərindən biri də 15-29 yaşda olan gənclərin respublikanın sosial-iqtisadi, siyasi, elmi-mədəni və digər sahələrindəki iştiraklarının daha da artırılmasından və onların innovativ potensialından geniş istifadə edilməsindən ibarətdir. Qeyd edilən yaş qrupuna daxil olan gənclər malik olduqları özünəməxsus xüsusiyyətlərinə görə bütünlükdə əmək ehtiyatlarından fərqlənirlər. Bu, özünü hər şeydən əvvəl onların daha uzunmüddətli əmək fəaliyyəti dövrünə və nisbətən yüksək təhsil səviyyəsinə malik olduqları üçün daha mürəkkəb peşə və ixtisaslarda işləmək imkanlarının olmasında; ikincisi, ərazi, sahə və sosial cəhətdən daha çevik və mobil olduqları üçün iş qüvvəsinin ərazilər və sahələr üzrə yenidən bölüşdürülməsində daha fəal iştirak etmələrində; üçüncüsü, demoqrafik cəhətdən əhalinin ən fəal və çevik qrupuna daxil olduqları üçün özlərini əhalinin təbii təkrar istehsalı prosesinin ahəngdar surətdə həyata keçirilməsində və miqrasiyasında əks etdirirlər. Dördüncüsü, gənclər həm də yaşlı insanlara nisbətən özlərinə ailə-məişət şəraiti yaratmaq dövründə olduqları üçün onların işə düzəlməyə daha çox ehtiyacları və iqtisadi tələbatları vardır. Həm də başqa yaş qruplarından olan əhaliyə nisbətən gənclər əmək bazarı iş qüvvəsinin rəqabət qabiliyyətliliyi baxımından nisbətən aşağı səviyyədə olması ilə də fərqlənirlər. Belə ki, onlar hər an daha çox işlərini itirmək və yaxud da işə düzələ bilməmək təhlükəsi ilə üzləşə bilirlər. Əmək bazarında təklifin məhdud olması təhsil müəssisələrini bitirənlərin işə düzəlməsi imkanlarının xeyli azalmasına gətirib çıxarır. Ali, orta ixtisas və texniki peşə məktəblərini bitirənlərin mərkəzləşdirilmiş şəkildə bölüşdürülməsi qaydasının ləğv edilməsi isə ona gətirib çıxarmışdır ki, ümumtəhsil müəssisəsini, ali, orta ixtisas və peşə məktəblərini bitirənlərin çoxu yiyələndikləri peşə və ixtisaslara uyğun işə düzələ bilmirlər. Nəhayət, beşincisi, gənclərin əmək bazarı çox variantlığı ilə səciyyələnir və bu da onunla izah edilir ki, həmin bazara imkanı olan bütün peşələr üzrə mütəxəssislər hazırlayan təhsil müəssisələrini bitirənlər daxil olurlar. Ayrı-ayrı regional əmək bazarlarında iş qüvvəsinə təklifin aşağı olması, bəzi hallarda isə belə təklifin heç olmaması iş axtaranları, o cümlədən də yenicə təhsil müəssisələrini bitirənlərin əksəriyyətini baza təhsillərinə uyğun olmayan işlərə düzəlmək məcburiyyətində qoyur və hər il ölkənin təhsil müəssisələrini bitirən gənclərin xeyli bir qismi isə işə düzəlmək üçün yenidən hazırlaşmaq və ikinci peşə almaq üçün potensial namizədə çevrilirlər.

Ölkədə fəaliyyət göstərən ilk peşə-ixtisas təhsili məktəblərində həyata keçirilən kadr hazırlığı isə işə götürənlərin tələblərinə tam cavab vermir. Buna görə də həm ilk peşə-ixtisas təhsili müəssisələrində, həm də ali və orta ixtisas təhsili müəssisələrində həyata keçirilən kadr hazırlığının əmək bazarının tələblərinə və ölkə iqtisadiyyatının ümumi inkişafına uzlaşdırılmasına ehtiyac vardır. Təsadüfi deyildir ki, bu məsələdən bəhs edərkən ölkə başçısı İlham Əliyev cənabları demişdir: "Növbəti illərdə peşə hazırlığı Azərbaycanda geniş vüsət almalıdır və buna böyük ehtiyac var. Peşə məktəblərinin yaradılması prosesi gedir, daha da sürətlə getməlidir. Bu proses iqtisadiyyatın ümumi inkişafı ilə uzlaşmalıdır".

Bu da bir həqiqətdir ki, hazırda ölkəmizdə minlərlə gənc mütəxəssis əmək bazarında özlərinə ilk peşə-ixtisas, orta ixtisas və ali məktəblərdə yiyələndikləri peşə ixtisaslarına uyğun iş tapa bilmir və onların xeyli qismi başqa peşə və ixtisaslarda işləməli olurlar. Bu vəziyyət xüsusi peşə və ixtisas təhsili olmayan gənclər arasında özünü daha qabarıq şəkildə büruzə verir. Məhz bu sonuncular ölkəmizdəki işsizlərin əhəmiyyətli hissəsini təşkil edirlər. Bir çox hallarda gənc mütəxəssislərin əmək bazarında öz peşə və ixtisaslarına uyğun iş tapa bilməmələrinin əsas səbəblərindən biri də onların yiyələndikləri ixtisasların keyfiyyət səviyyəsi və rəqabət qabiliyyətli olub-olmaması ilə bağlıdır. Bir çox hallarda isə bəzi ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil müəssisələri əmək bazarının tələblərinə cavab verən bilik və qabiliyyətə malik ixtisaslı işçi qüvvəsi hazırlamaq iqtidarında olmurlar.

Hazırda gənclərin xeyli bir qisminin sosial təcrübələri az olduğundan onlar yiyələndikləri bilikləri həyata tətbiq etməkdə, cəmiyyətdə öz yerlərini tutmaqda çətinlik çəkirlər. Gənc mütəxəssislər isə peşə vərdişlərinə malik olmadıqlarından çox hallarda əmək bazarında qəbul edilmirlər və bu səbəbdən də işsizlər arasında onlar üstünlük təşkil edirlər. Buna görə də gələcəkdə ölkəmizdə gənclərin məşğulluq səviyyəsinin yüksəldilməsi və onların əməyindən səmərəli istifadə edilməsi məqsədi ilə peşə hazırlığı keçmiş gənclərin daimi iş yerləri ilə; işsizlik təhlükəsi ilə üzləşə biləcək gənclərin isə işdən azad edilməsindən əvvəl əmək bazarında tələbat olan peşə və ya ixtisas üzrə yenidən hazırlıq keçmələri üçün müvafiq şəraitin olması; gənclərin şəhər yerlərinə və başqa ölkələrə axınının qarşısını almaq məqsədi ilə sərhədyanı və dağ rayonlarında yeni iş yerlərinin və ailə qurması üçün lazımi şəraitin yaradılması; ordudan tərxis olunan gənclərin məşğulluğunun təmin edilməsi, onların peşə hazırlığı və yenidən hazırlıq işinin gücləndirilməsi; gənc sahibkarlara, fermerlərə və işsiz gənclərə dəstək üçün rayon və şəhərlərdə biznes mərkəzləri şəbəkəsinin yaradılması zərurət təşkil edir və bütün bunlar müvafiq dövlət orqanları tərəfindən nizama salınmalıdır.

Neapol Şərqşünaslıq Universitetində Azərbaycan dili tədris olunacaq

Neapol-Bakı Assosiasiyası zamanla itirilmiş əlaqələrin çağdaş dövrün tələblərinə uyğun qurulması, həmçinin iki ölkə arasında mədəni və dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi məqsədi ilə 2014-cü ildə İtaliyada təsis olunub. Qeyd edək ki, Neapol və Bakı şəhərləri hələ sovet dönəmindən - 1972-ci ildən qardaşlaşmış şəhərlərdir. Lakin sovet imperiyası süqut etdikdən sonra bu dostluq əlaqələri səngimişdi. Müsahibimiz Neapol-Bakı Assosiasiyasının vitse-prezidenti Elnur Camalxanov "Milli Məclis" jurnalının suallarına cavab verir.

- Dekabr ayında İtaliyanın Neapol şəhərində Ulu öndərin anım günü ilə bağlı böyük bir tədbir keçirmisiniz. Bu tədbir barədə məlumat vermənizi xahiş edirik. Bildiyimiz qədər bu layihənin təşəbbüskarı və təşkilatçısı həmsədri olduğunuz Neapol-Bakı Assosiasiyasıdır.

- Bəli, ötən il ən yaddaqalan işlərimizdən biri dekabr ayında Neapolda Ulu öndər Heydər Əliyevin anım günü ilə bağlı keçirdiyimiz tədbir oldu. Qeyd edim ki, 2018-ci ildə Ümummilli liderin anadan olmasının 95 illiyi ilə bağlı ölkəmizdə və xaricdə bir sıra tədbirlər təşkil olundu. Biz də bunu bir tezis kimi götürərək üzərimizə düşən vəzifəni bacardığımız qədər yerinə yetirməyə çalışdıq. Rejissor Aydan Əhmədovanın ekranlaşdırdığı və Ulu öndərin həyat və yaradıcılığından bəhs edən "Xilaskar ömrü" sənədli filminin italyan dilində nümayişinə müvəffəq olduq. Film Neapol Şərqşünaslıq Universitetində göstərildi. Tədbirdə universitetin rektoru, professor Elda Morlikio, elm xadimləri, diplomatik korpusun nümayəndələri, tələbələr də iştirak etdilər. Eyni zamanda, Azərbaycanın İtaliyadakı fövqəladə və səlahiyyətli səfiri Məmməd Əhmədzadə də öz iştirakı ilə bizə dəstək oldu. Tədbirdə Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsini qurumun nümayəndəsi Elvin Əsgərov təmsil edirdi. Dahi şəxsiyyət haqqında məlumatları italyanlara onların öz doğma dillərində çatdırdıq və film auditoriya tərəfindən böyük maraqla qarşılandı.

Elə həmin gün Ulu öndərin xatirəsinə həsr olunmuş daha bir mötəbər layihənin bünövrəsini qoyduq. Çoxdan arzusunda olduğumuz bir ideyanın formalaşması üçün ilk addımlar atdıq. Assosiasiyamızın təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycan Dillər Universiteti və Neapol Şərqşünaslıq Universi-

teti arasında qarşılıqlı anlaşma memorandumu imzalandı. Uzun müddət idi ki, bu mərasimin baş tutması üçün səylə çalışırdıq. Şükürlər olsun ki, layihəni uğurla həyata keçirdik. Azərbaycan Dillər Universitetinin səlahiyyətli nümayəndəsi Nərgiz Cəfərova və Neapol Şərqşünaslıq Universitetinin rektoru, professor Elda Morlikio arasında memorandum imzalandı. Bu anlaşma memorandumundan irəli gələn bəndləri sadalamaq istərdim. Belə ki, yaxın zamanlarda Şərqşünaslıq Universitetində Azərbaycan Mərkəzi yaradılmaqla yanaşı, Azərbaycan dilinin tədrisinə də başlanılacaq. İtaliyada Azərbaycan dilinin tədrisi bizim böyük arzumuz idi. Bilirsiniz ki, hər bir dil mənsub olduğu xalqın xarakterinin, tarixinin, mədəniyyətinin daşıyıcısıdır. Dilimiz nə qədər təbliğ olunsa, bir o qədər mədəniyyətimiz, tariximiz təbliğ olunmuş sayılır. Eyni zamanda, dilimizi öyrənən əcnəbi vətəndaşın ölkəmizə sevgisi artacaq və informasiya mübarizəsində də, təbii ki, bizi dəstəkləməkdə israrlı olacaq. Bu da bizim gələcəyə hesablanmış strateji baxışımız, informasiya mübarizəsində, təbliğat-təşviqat işlərində üstün mövqeyimizi qorumaqdan ibarətdir.

İmzalanma mərasimindən sonra Azərbaycan dilinin öyrənilməsi üçün tədbirə apardığım ilk əyani vəsaiti lotereya uduşu kimi universitetin tələbəsinə təqdim etdim. Həmin tələbəyə bu dərs vəsaitini öyrənib başa çatdırdıqdan sonra assosiasiyamız tərəfindən bütün xərcləri qarşılanmaqla ölkəmizə səfərinin təşkil olunacağını bildirdik. Azərbaycana səfər çərçivəsində o, regionlar daxil olmaqla ölkəmizin bir çox səfalı guşələrini səyahət edəcək. Biz mütəmadi izləyirik, lakin hələ ki, ora müəllim təyin olunmayıb. Bu, Azərbaycan Dillər Universitetinin səlahiyyətindədir. Düşünürəm ki, yaxın zamanlarda bu məsələ öz müsbət həllini tapacaq və biz ilk tələbənin ölkəmizə səfərini təşkil edəcəyik.

Belə bir modeli başqa ölkələrdə də tətbiq etmək lazımdır ki, xaricdə Azərbaycan dilini öyrənənlər çox olsun. Bu, gələcək fəaliyyətimizdə bizim üçün xüsusi önəm daşıyacaq.

- Sizin assosiasiya mütəmadi olaraq həm Azərbaycanda, həm də İtaliyada tədbirlər keçirir. Burada hər iki ölkənin ictimai-siyasi xadimləri iştirak edirlər. Təbii ki, sizin gələcəyə ünvanlanmış planlarınız mövcuddur. Bu barədə məlumat verməyinizi xahiş edərdik.

- Biz 2017-ci il sentyabrın 25-də Azərbaycan ilə İtaliya arasında diplomatik əlaqələrin qurulmasının 25, iqtisadi əlaqələrin 20, Neapol-Bakı qardaşlaşmasının 45 illiyinə həsr olunmuş tədbir keçirdik. Tədbirdə İtaliyanın ölkəmizdəki fövqəladə səfirinin müavini cənab Umberto Boeri, italiyalı iş adamları, BMT-nin Qaçqınlar üzrə ali komissarlığının rəhbəri Furio Anceles iştirak edirdi.

Bizim assosiasiya həm də bir sıra filmlərin italyan dilinə tərcüməsində maraqlıdır. Bu marağın kökündə isə italiyalı tamaşaçıya tariximiz və mədəniyyətimiz haqqında məlumatları elə öz dilində çatdırmaq dayanır. Rejissor Tahir Əliyevin "Qafqazdan Apenninə" filmi həmin vaxt nümayiş olundu və bu filmlə Azərbaycan partizanlarının - Mehdi Hüseynzadənin, Xançoban Cəfərovun və digərlərinin Böyük Vətən müharibəsində İtaliyanın müqavimət hərəkatına qoşularaq alman faşistlərinə qarşı necə mübarizə apardıqlarını və bizim dostluq əlaqələrimizin heç də təsadüfi olmadığını, məşəqqətli yollardan keçən tarixə söykəndiyini önə çəkdik.

İtaliya Azərbaycanın müstəqilliyini tanıyan ilk Avropa ölkələrindən biridir. Bu gün İtaliya həm strateji və ən böyük iqtisadi tərəfdaşımızdır. 1992-ci il yanvarın 1-də bizim müstəqilliyimizi tanıyıb və dost mövqedə olduğunu hər zaman nümayiş etdirib. Bu münasibətlər bu gün də davam edir. Tədbirin sentyabrın 25-də keçirilməsinin xüsusi bir səbəbi var idi. Bildiyiniz kimi, 1997-ci il sentyabrın 25-də Ulu öndər Heydər Əliyevin İtaliyaya ilk rəsmi səfəri baş tutub. Məhz bundan sonra iqtisadi əlaqələrin təməli qoyulub. Bu gün də bu əlaqələr yüksələn xətlə inkişaf edir. 2018-ci il sentyabrın 25-də Azər-

baycan Dillər Universitetində eyniadlı tədbir keçirdik. Bu tarıxi əbədiləşdirmək və mahiyyətini önə çəkmək üçün biz məhz sentyabrın 25-ni seçmişdik. Azərbaycan Dillər Universitetindəki İtalyan Mərkəzində keçirilən tədbirdə italyan dilində təhsil alan tələbələrə "Xilaskar ömrü" filmini təqdim etdik. Orada bizim assosiasiyanın prezidenti Cüzeppe Kanilya da çıxış edərək öz ürək sözlərini dedi.

Qarşıda böyük planlarımız var, assosiasiyanın fəaliyyətini daha da inkişaf etdirmək üçün sıralarımızı genişləndirdik və quruma ictimaiyyətlə əlqələr, media sahəsində yeni vitse-prezident təyin etdik. Bu, Azərbaycan Konfu Federasiyasının vitse-prezidenti, iş adamı və yaxın dostumuz Tural Alişanlıdır. Çox vətənpərvər və ölkəmizin təbliği naminə öz töhfələrini verməkdən qurur hissi keçirən bir insandır. Ümid edirəm ki, sıralarımızı genişləndirib daha böyük tədbirlərə nail olacağıq.

Məlumat üçün bildirim ki, bu il biz Azərbaycan xalçasını da İtaliya bazarına çıxarmağı planlaşdırırıq. Bilirsiniz ki, bu, dövlət başçısı İlham Əliyevin birbaşa nəzarətində olan prioritet bir məsələdir. Həm Azərbaycan brendi, həm də Azərbaycan mədəniyyətinin, tarixinin daşıyıcısı olaraq biz bunu İtaliya ictimaiyyətinə çatdırmaq istəyirik. Bununla bağlı Neapolda Azərbaycan xalçasının təqdimatını keçirməyi planlaşdırırıq. Həmçinin Pompey şəhərində milli dəyərlərimizi özündə birləşdirən Novruz bayramının təşkilində də çox maraqlıyıq. Bu məsələdə danışıqlarımız davam edir. Ümidvaram ki, buna da nail olacağıq. Təbii ki, bu özü də milli adət-ənənələrimizin təbliğinə xidmət edəcək.

- Məlum olduğu kimi, İtaliya-Azərbaycan münasibətləri siyasi, iqtisadi, həm də mədəni sahələrdə yüksələn xətlə inkişaf edir. Bunun bariz nümunələrindən biri kimi Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə İtaliya Senatında Azərbaycanın müstəqilliyinin 100 illiyinin yüksək səviyyədə keçirilməsini göstərmək olar. Sizin qurum bu əlaqələrin möhkəmlənməsinə nə kimi töhfələr verir?

- Biz bütün tədbirlərə dair tezislərimizi Prezidentimizin sərəncamlarından götürürük. Gözləmirik ki,

kimsə bizə tapşırıq versin. Biz özümüzü dövlət siyasətinin tərkib hissəsi kimi görürük. Düşünürəm ki, bunu imkanı olan hər bir azərbaycanlı etməlidir. Məsələn, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı cənab Prezidentin sərəncamından sonra biz də öz tədbirlərimizdə bunu önə çəkdik. Cümhuriyyət illərində 100 nəfərdən ibarət azərbaycanlı tələbə xaricdə təhsil almaq üçün Avropaya yola salınmışdı. O zamanlar da dost mövqeyində dayanan İtaliya ilk olaraq onlara pənah gətirən tələbələrə lazımi dəstəyi vermiş və müxtəlif Avropa ölkələrinə getmələri üçün viza təminatında köməklik göstərmişdi. Heç uzağa getməyək, bizim seleksiyaçı alim Əhməd Rəcəbli İtaliyada Peruca Ali Kral Eksperimental Aqrar İnstitutunun tələbəsi olmuşdu. Bu əlaqələri önə çəkməklə biz bütün bunların təsadüfi deyil, dərin tarixi köklərə bağlı olduğunu göstəririk.

Şərqşünaslıq Universitetində rəsmi görüşdən xatirə şəkli

Assosiasiyanın vitse-prezidentləri Elnur Camalxanov və Tural Alişanlı növbəti tədbirlərin müzakirəsində

- Bildiyim qədər assosiasiya öz işini həm Diasporla İş üzrə Dövlət Komitəsinin, həm də İtaliyadakı səfirliyimizin fəaliyyəti ilə uzlaşdıraraq həyata keçirir.

- Bəli, bizim Diasporla İş üzrə Dövlət Komitəsində görüşlərimiz də olub. Komitənin sədri Fuad Muradova və səfir Məmməd Əhmədzadəyə bizə göstərdikləri dəstəyə görə dərin minnətdarlığımızı bildiririk. Gördüyümüz işləri diaspor fəaliyyətinin bir istiqaməti kimi də dəyərləndirmək olar. Həmvətənlərimizin bir araya gətirilməsi, ölkəmizin təbliği və lobbiçilik fəaliyyətində konkret bir istiqamətə köklənmək üçün əlimizdən gələni edirik. İtaliyada yaşayan, təhsil alan soydaşlarımızla mütəmadi görüşürük. Bizim bu günə qədər gördüyümüz işlər də diaspor fəaliyyəti kimi qiymətləndirilib və yüksək dəyərləndirilib.

Seyid İmadəddin Nəsimi:

"Həqq idi, həqqi dedi, həqq söylədi"

Əbədiyyət günəşi

Bütün varlığı, ruhu, duyğuları ilə azərbaycanlı olan, azərbaycançılıq məfkurəsi ilə milli dövlətçilik tariximizin mühüm bir mərhələsinə imza atan Ulu öndər Heydər Əliyevi hər kəs həm də iki müqəddəs hissinə görə böyük ehtiramla xatırlayır. Onun biri və birincisi ana dilini dövlət dili elan etməsi, onun mənsub olduğu, özü kimi qədim-qayım xalqın adı ilə çağırılmasına nail olması, Konstitusiya hüququ verməsi, ikincisi isə milli-mənəvi dəyərlər tariximizi yaradan qüdrətli söz-sənət adamlarını himayə etməsi, onların adlarının əbədiləşdirilməsi istiqamətində cəsarətli addımlar atması idi. Ulu öndər hakimiyyətinin birinci mərhələsində 70-80-ci illərdə bunlara nail oldu. Şeyx Nizami Gəncəvi dövrünün poeziya dili olan fars dilində qələm çaldığına görə onu özününküləşdirmək istəyənlərə görk olsun deyə, şairi yerüstü və yeraltı dünyanın sultanına çevirdi. Bakının qala divarlarının önündə, Qız Qalasının ətəyində iki əzəmətli müqəddəslik ucaldı. Nizami Gəncəvinin möhtəşəm abidəsi və Nizami Gəncəvi adına Azərbaycan Əbədiyyatı Muzeyi sözə, eyni zamanda, dünyanı - yeri, göyü və insanı sözdən xəlq edən ulu Tanrıya ehtiramın əlaməti idi.

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz ey dünya, nədir dəyərin.

- nidası ilə orta çağların Şərq ədəbiyyatına azərbaycanlı sevdası gətirən ölməz Nizaminin "Xəmsə"sinin miniatürləri əsasında naxışlanan, yaddaş xalımıza çəkilən illüstrasiyalar, "Nizami" metrostansiyası yerüstü və yeraltı dünyanın, miflər səltənətinin sərdarı Oğuz oğlunun yol müqəddəsliyi idi. Ulu Tanrıdan başlayıb, Nizami dühasından keçən yol elə Tanrının özündə də bitirdi. Bu, Heydər Əliyev əzəməti, onun millət sevgisi, Nizami irsini mənimsəmək istəyənlərə isə tarix dərsi idi. Elə həmin 70-ci illərdə:

Ya Rəbb, bəlayi-eşq ilə qıl aşina məni!
Bir dəm bəlayi-eşqdən etmə cüda məni!

- nidası ilə ərəb səhralarına türk sevdası gətirən, ilahi eşq təşnəsi, Bayat boylu, Oğuz soylu Mövlana Məhəmməd Füzulinin abidəsi ucaldı. Əslində bu, Kərbəla müsibətini kədər poeziyasından, "Həqiqəti şüda"dan göyərdən, özü

Şərəf Cəlilli

isə İmam Hüseyn dərgahında Tanrının torpaq müqəddəsliyinə qovuşan Nizami Gəncəvi bulağından içib "Bəngü-badə"si ilə Səfəvilər dövlətinin qurucusu Şah İsmayıl Xətainin Turan sevgisini dilə gətirən Mövlana Məhəmməd Füzulinin milli kimliyinə ucaldılan abidə idi. O zamana qədər onu iraqlı bilənlər o gündən Dədə Qorqudun "Bayat boyundan bir ər qopdu" hikmətinə tapındı.

Həmin 70-ci illərdə təkcə universitetlər qurulub, elmi-tədris mərkəzləri yaradılmadı. Azərbaycanın Firidun bəy Köçərli, Mirzə Cəlil, Həsən bəy Zərbabi, Abdulla Şaiq, Mirzə Ələkbər Sabir, Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov, Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Səməd Vurğun, Hüseyn Cavid, Cəfər Cabbarlı kimi adlarını sadaladığımız onlarla şair və yazıçısının abidələri ucaldı, xatirə muzeylərinin təməli qoyuldu.

Turana qılıncdan daha kəskin,
ulu qüvvət
Yalnız mədəniyyət,
mədəniyyət, mədəniyyət!

- deyən Cavid Əfəndinin - o Cavid Əfəndinin ki, ailəsi, doğmaları TURAN və QURAN müqəddəsliyinə qurban getmiş, 37-ci ilin dəhşətli repressiyalarında milli mənlik və milli kimlik uğrunda mücadilədə başlarından keçmişdilər.

Hüseyn Cavidin nəşinin uzaq Sibir çöllərindən, Altay türklərinin şaman dualarının zaman-zaman, elə indi də hakim olduğu səhralardan vətənə gətirilməsi, Cavid məqbərə kompleksinin ucaldılması Ulu öndər Heydər Əliyevin mənəvi dəyərlər tarixi qarşısında ən böyük xidmətlərindən idi.

Bu, 650 il öncə Seyid İmadəddin Nəsiminin üzündə Tanrının təcəlla etdiyi insana sevgisindən örnəkdir. Ulu öndər bütün addımları ilə mənsub olduğu millətin, məmləkətin haqq səsi idi. Nəsimi Allahı insanda görüb, onu ilahiləşdirəndə haqqı deyir, kamil insanı haqdan bilirdi. Onun 600 illik yubileyi də ötən əsrin 70-ci illərinə təsadüf etmişdi. O dövr bizə kimləri, nələri bəxş etmədi? Daha doğrusu, kimləri bizə qaytarmadı? Mirzə İbrahimov, Üzeyir Hacıbəyov, Səməd Vurğun, İlyas Əfəndiyev, Rəsul Rza, Qara Qarayev, Fikrət Əmirov, Cahangir Cahangirov, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Arif Məlikov, Fikrət Əmirov, Tofiq Quliyev, Rəşid Behbudov, Zeynəb Xanlarova, Bəxtiyar Vahabzadə, İsa Hüseynov, Məmməd Araz, Xəlil Rza Ulutürk, Ədil İsgəndərov, Eldar Quliyev, Xəyyam Mirzəzadə, Anar, Rasim Balayev və adlarını sadalamadığımız fitri istedad sahiblərinin, onların mənsub olduğu millətin, məmləkətin haqqını Azərbaycanın o zamankı I katibi bu dahilərin elə onun haqqına girən, yurdunu bölən yağılardan aldı. Keçici bayraqları, orden və medalları sarayın baş köşəsinə gətirdi. Tanrının ən ali varlığında, yaradılışında elə onun özünü, üzünü görən, bu inamına, etiqadına görə ustadları Həllac Mənsur, Fəzlullah Nəimi kimi dar ağacına qaldırılan, dərisi soyulan, dünyanın dörd müqəddəs başlanğıcı kimi dörd yerə bölünən:

Pənbeyi-dağı-cünun içrə
nihandır bədənim,
Diri olduqca libasım budur,
ölsəm, kəfənim.

- nidası ilə göz-göz olan bədənini, cismini ruhu ilə birlikdə haqqa verən, haqqı dananların, özü-özünü inkar edənlərin üzünə durub al-qan içərisində üsyan edən Nəsimi deyir:

Zahidin bir barmağın kəssən,
dönüb həqdən qaçar,
Gör bu miskin aşiqi sərpa
soyarlar, ağrımaz.

Orta çağların istiqlal fədaisi, azadlıq carçısı kimi yaddaşına həkk edib məhəbbət və gözəllik nəğməkarı, insanın mənəvi zənginliyi, kamilliyi və əzəməti haqqında ən qüdrətli əsərlərin bəstəkarı, anadilli fəlsəfi poeziyanın bayraqdarı kimi qəbul edilən Seyid İmadəddin Nəsimi təkcə xurafata, dini ehkamlara qarşı çıxmamışdı. İnsana, insanlığa, dinlərə, millətlərə tolerant münasibət, mültikultural dəyərlərə hörmət onun ərzi-halında, pür kamalında, hürufilərin buyurduğu, özünün də söylədiyi kimi, mah camalında idi. Onun dilinə, dininə əl qoyan xilafət ordusuna qarşı düz 20 il mücadilə edən Babək Xürrəmi əsir aparılıb Samirədə dar ağacına qaldırılıb, qolları budananda: "40 il qul kimi yaşamaqdansa, bir gün azad yaşamaq yaxşıdır", - deyib "Azərbaycan, Azərbaycan, Azərbaycan!" nidası ilə millətinin, məmləkətinin azadlıq carçısına çevrildiyi kimi, dərisi soyulub rəngi saralan Seyid İmadəddin Nəsimi də qürur mənbəyinə, mənəviyyat simvoluna dönür. Dərisinin soyulmasına hökm verənlər, dərisi soyulan zaman xeyli qan itirdiyindən rəngi saralan şairə üz tutub: "Rəngin niyə saralır?" sualını verəndə Nəsimi: "Mən əbədiyyət üfüqlərində doğan eşq günəşiyəm, günəş batanda rəngi saralar", - deyə cavab verir...

NƏSİMİ İLİ

Ta uşaqlıqdan, ağlım təzə-təzə kəsəndən bu sözləri əzbər bilirdim. Təkcə mən yox, kəndimizdə hamı bilirdi - savadı olmasa da, kitab oxumasa da: suçu, çoban, fəhlə, kolxozçu, qoca, cavan da. Axı hamının bircə televiziya kanalı var idi - Azərbaycan Televiziyası. Burada "Dədə Qorqud", "Axırıncı aşırım", "Babək", "Dəli Kür", "Nəsimi" kimi milli koloriti, üsyankar ruhu, təəsübkeşlik hissi ilə bir dünya; sərhədləri bağlı, qolları buxovlu Azərbaycanın əbədi istiqlalına inamla, ümidlə dolu bir ümman var idi. Biz bunu 1989-cu ildə Topxanada qırılan bir armud ağacı - daha doğrusu, Yaddaş ağacı üçün ayağa qalxanda, Lenin meydanını Azadlıq meydanına çevirəndə, Leninin, Kirovun abidəsini aşıranda, 20 Yanvar şəhidlərini Təzə Pir Məscidində gözyaşı ilə yuyub al qanımızla kəfənləyib Xəzərin sahilindən çiyinlərimizdə deyil, ürəyimizin başında Şəhidlər Xiyabanına qaldıranda yaşadıq.

Azərbaycan əbədi istiqlala qovuşanda bildik ki, yuxarıda qeyd etdiyim qalın-qalın, qalaq-qalaq kitablara, təzkirələrə, cünklərə, bəyazlara bərabər filmlər məhz Ulu öndər Heydər Əliyevin diqtəsi, himayəsi ilə çəkilir, insanları yaddaşa qaytarır, qurtuluşa səsləyirmiş. Bu, bir azadlıq aşiqinin dastanı idi.

O, tarixlə müasirlik arasında körpüyə çevrildiyi kimi, "gəmidə oturub gəmiçi ilə dava edirdi". Bu davanı Babək Xürrəmi, Həllac Mənsur, Şihabəddin Yəhya Sührəvərdi, Xoca Nəsirəddin Tusi, Fəzlullah Nəimi, İmadəddin Nəsimi, Şeyx Cəmaləddin Əfqani, Şeyx Məhəmməd Xiyabani, Səttərxan, Seyid Cəfər Pişəvəri, Məhəmməd Əmin Rəsulzadə kimi qüdrətli fikir və düşüncə sahibləri yüz illər boyu aparmışdı. Canından can vermiş, "Azərbaycan, Azərbaycan, Azərbaycan!" demişdi. "Hər bir millətin mənsubiyyəti onun qürur mənbəyidir" nidası ilə ərəb, fars dillərinin hakimi-mütləq olduğu zamanlarda ana dilində ilk qəzəlləri yaradıb divan bağlayan, eyni missiyanı türk ədəbiyyatı tarixində də ləyaqətlə yerinə yetirən, Qazi Bürhanəddin, Cahanşah Həqiqi, Şah İsmayıl Xətai kimi bir əlində qılınc, birində qələm dövlətlər quran türk sərkərdələrinin ustadı olmaq, ana dilində yaratdıqları əsərlərin ilham mənbəyinə, Mövlana Məhəmməd Füzulinin, Xoca Yunus İmrənin, Xoca Əhməd Yəsəvinin pirinə çevrilən Seyid İmadəddin Nəsimiyə abidə ucaltmaq kimi şərəfli missiyanı yerinə yetirmək də Ulu öndər Heydər Əliyevin adına yazılmışdı.

Hakimiyyətinin ikinci mərhələsində Bakının ən möhtəşəm rayonlarından birinin onun adına verilməsi isə Ulu öndərin Nəsimi dühasına, Nəsimi sevdasına, eyni zamanda, Nəsiminin insan, insanlıq davasına sonsuz hörmət və ehtiramının əlaməti idi. Bineyi-qədimdən türkün sərkərdə xaqanları qılıncla fəth etdikləri sarayları qələmin və kəlamın qüdrəti ilə idarə etdikləri kimi, saraylarını sənətin, mədəniyyətin himayədarına çevirdilər. Oğuznamələr, "Kitabi-Dədə Qorqud" dastanı kimi möhtəşəm abidələrimiz bu könülaçan faktlarla zəngindir. Səcuqluların, Hülakülərin, Əmir Teymurun, Şirvanşah İbrahimin, Osmanlı sultanlarının, Qaraqoyunlu, Ağqoyunlu hökmdarlarının saraylarının tarixən sənətin, mədəniyyətin gülzarına çevrilməsi ilə Doğudan Batıya at çapıb, altundan saraylar yapıb murada çatan, "Ey Oğuz türk bəyləri! Kəndinə dön! Sən kəndinə dönəndə böyük olursan!" nidası ilə Böyük Çölün, Böyük Köçün dastanını yaradan türkün tarixi olmaqla yanaşı, Altaylardan Anadoluya, Türküstandan Çin səddinə, Odlar Yurdundan İpək Yoluna mədəniyyət daşıyan, köçə karvan, haqqa sarvan dünyanın nur bəlgələrindən idi Seyid İmadəddin Nəsimi. Şirvanşahlar Sarayının baş köşəsində yeri olsa da, başda olan insanın məhəbbət və mərhəmət dolu duyğularının tərcümanı olub söylədi:

Məndə sığar iki cahan,
mən bu cahana sığmazam.
Gövhəri la məkan mənəm,
kövnü məkana sığmazam.

Bu iki cahan sərvərinin, dür danəsinin, dünyalar, duyğular, sivilizasiyalar, mədəniyyətlər, dinlər düşüncəsində dialoqa gələn azadlıq aşiqinin, həqiqət elçisinin, hücrələrə, çərçivələrə sığmayan, məkansıza məkan olan laməkanın - bəşəri dəyərlər üçün xəlq olunmuş kamil insanın, daha doğrusu, haqqın bəlgəsinin dünyalara - yerə-göyə münasibəti idi. Bu səbəbdən də o, həqq idi, həqqi dedi, həqq söylədi. Həqq onun üzündə, düzü deyən dilində, qılıncdan kəsərli sözündə, dənizdə pəriləri, dərgahda mələkləri xatırladan səsində idi. Ona biət edənlər, kamalının hikmətinə, qələminin qüdrətinə, səsinin möcüzəsinə tapınıb arxasınca gedəndə: "Qorxdular haqq deməyə, döndülər insan dedilər", - deyib ölümü gözə alırdılar. Şirvanşah İbrahimin gözdəsi, Fəzlullah Nəiminin gözdə nuru, minlərlə, on minlərlə hürufinin ruhi-rəvanı Şamaxıdan - ata yurdundan qopub Bakıya, Təbrizə, Diyarbəkirə, Anadoluya, İraq-türkmən ellərinə, Ərəb səhralarına cismani ömrünün son dayanacağı Hələbə getdi. Ruhunun getdiyi yer isə aləmlərin sultanının dərgahı idi.

Ümumbəşəri dəyərlər sisteminə, orta çağlar ədəbiyyatına, söz sənətinə incilər bəxş edən, Azərbaycan poeziyasına öz dövrü üçün yeni, müasir bir üslub, deyim tərzi gətirən Seyid İmadəddin Nəsimi onu obrazlar qalereyası, rənglər dünyası, təbiət və məhəbbət lövhələri, fikir və düşüncəsinin vəhdətindən, harmoniyasından

yaranan ifadə vasitələri ilə zənginləşdirdi. Əlvanlığı, rəngarəngliyi, eyni zamanda, fəlsəfi məna tutumu ilə seçilən əsərləri ilə fəlsəfənin beşiyi olan Şərqi bir başqa biçimdə dünyaya təqdim etdi:

Üzünü məndən nihan etmək
dilərsən, etməgil!
Gözlərim yaşın rəvan
etmək dilərsən, etməgil!
Bərgi-nəsrin üzrə mişkin
zülfünü sən dağıdıb,
Aşiqi bixaniman etmək
dilərsən, etməgil!

Bu qəzəli ilə gözələ, gözəlliyə, eyni zamanda, gözəldə təcəlla edən Tanrıya sözdən çələng toxuyan Seyid İmadəddin Nəsiminin Şirvandan, Şamaxıdan gedişi kədərin bir tərəfdən Fəzlullah Nəimi üzü idisə, o biri yandan qüruru, etirazı idi:

İstəmirəm adımı çağıralar Xaqani,
Mən yoxsullar şairi
Xalqaniyəm, Xalqani!

Ulu Şirvan torpağı bineyi-qədimdən üsyanların və üsyankarların şəhəri idi. Şirvanın gərdəyi, günlüyü olan çalmalı dağlar Cavanşirlər, Xaqanilər görmüşdü. Sərkərdə xaqanların sarayına, bir də sözün xiridarlarının xanimanına dönmüşdü. Gedənləri dönməsə də, dözmüşdü. Xaqaninin qəsidələrində, Nəsiminin qəzəllərində qərib könlü vətənə sarı çırpınmışdı. Nəsiminin soyulan dərisindən gözünə qan dammışdı, ürəyi yaralanıb, qəlbi yanmışdı.

Üstündən 650 il keçib. Üzün bizdən nihan, gözümüzün yaşını rəvan, özünü bixaniman edən Seyid İmadəddin Nəsiminin nəsrin çiçəyini, qızılgülü xatırladan məzarı qəlbimizin xar, könlümüzün qubar yeridir.

Bu gün dünya bir ondan, bir də üstünə od ələnən Suriyadan, Hələbdən, İraq-türkmən ellərindən, Misir ehramlarından, Kərbəla musibətlərindən daha dəhşətli görünən Şərqdən danışır. Nəsiminin ilahiləşdirdiyi insan şərlə davadadır, cahil insanın əlindən haqqı xilas etmək istəyir. Günəşin doğduğu Şərqin – əl-Qəzalinin, əl-Kindinin, əl-Fərabinin, İbn Sinanın, İbn Rüşdün, Mövlana Məhəmməd Füzulinin nur alıb nur verdiyi, xeyirxahlığın, yaxşılığın, məhəbbətin və mərhəmətin ünvanı, "Min bir gecə nağılları"nın növrağı olan Şərq şərin, dəhşətin, zülmətin ünvanına çevirilib dardadı. Dünya yüz illər öncə olduğu kimi, bu gün də Metenin, Atillanın, Çingiz xanın, Osman Qazinin, Fateh Mehmetin, Sultan Bəyazidin, Sultan Səlimin, Qanuni Süleymanın, Əmir Teymurun, Şah İsmayıl Xətainin üstünə yeriyib. Yenə bir xaç qovğası, səlib yürüşü var. Sərvət davası, tarix savaşı, ilk törəyiş davası var. Nə dörd səma kitabını mələklərin qanadında yer üzünə endirən, düz 124 dəfə niqabını qaldırıb peyğəmbərləri xəlq edən Ulu Tanrıya, nə də kamil insanı Ulu Tanrıya tay tutan Həllac Mənsura, Fəzlullah Nəimiyə, Seyid İmadəddin Nəsimiyə məhəl qoyan var. İnsan sevgisinə, həqq eşqinə dərisi soyulan, sinəsinə dağ basılan, dörd yerə bölünüb tikə-parça edilən, məzarına da, yəni ki, bir parçası verilən Seyid İmadəddin Nəsiminin ruhu gileylə qoca qarıya bənzətdiyi dünyadan, biz də bir türk, müsəlman, azərbaycanlı olaraq onun qərib məzarından nigaranıq. Türbəsi zədələnən, məzarı hələ də Tanrı tərəfindən qorunan, doğmaları barıt qoxusuna oyanan Nəsiminin məzarını ziyarətə gedənlərə Nəsimi titulu verilir. Məkkəyə gedənlərə, Peyğəmbər əleyhissəlamı, Kəbəni ziyarət edənlərə Hacı, Məşhədə İmam Rza əleyhissəlamı ziyarətinə gedənlərə Məşədi, İmam Hüseyn ziyarətlərindən dönənlərə Kərbalayi deyə müqəddəs baxıldığı kimi, Nəsimi də yaddaşımızın müqəddəslik mənbəyi, qürur yeridir. O, bir haqq aşiqi, həqiqət elçisi, dilimizin tərcümanı, anadilli poeziyamızın bayraqdarı, əbədiyyət günəşidir. Odlar Yurdunun əbədiyyət günəşi, insanlıq, məhəbbət, mərhəmət, xeyirxahlıq və yaxşılıq üfüqlərinin sönməyən, heç zaman qürub etməyən ilahi nurudur Seyid İmadəddin Nəsimi. Onun 650 il öncə söylədikləri günümüzün gerçəyi olaraq qalır. Yenə dünyanın cahilləri kamil insanlara göz verir, işıq vermir. Müharibələr, sərvət davaları üzündən qan su yerinə axıdılır. Ölən də, öldürən də, ağladan, güldürən, sevindirən də, iblisə qoşulub qəh-qəhə çəkən də insandır.

Nəsiminin sevdiyi, ilahiləşdirdiyi insan isə hələ qalmaqda, artıb törə-

məkdədir. Avropa, Amerika Şərqin üstünə gəlir. İqtisadi potensialını intellekt kapitalına, Məhəmməd Hadinin "Yox millətimin imzası bu imzalar içində" kədərini "Var millətimin imzası bu imzalar içində" gerçəyinə çevirən Azərbaycanın üçrəngli, hilallı, ulduzlu bayrağı dünya dövlətlərinin özgürlüyünü tanıyan qurumların iqamətgahı önündə dalğalanır. Müasir Azərbaycanın memarı Ulu öndər Heydər Əliyevin adını daşıyan fondun, şəxsən onun prezidenti, ölkənin Birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə respublikamızda və dünyada möhtəşəm layihələr gerçəkləşir, məktəblər açılır, xristian məbədləri, Roma katakombaları, kilsə zəngləri, kilsələr, sinaqoqlar, məscidlərlə birlikdə tikilir, bərpa edilir, insanların ibadətinə verilir. Şərqə hücum çəkən cahillər şərqli məhəbbəti, mərhəməti ilə üz-üzə qalır. Avropanın ikili standartları isə Nəsiminin ata yurduna qarşı da davam edir. Xocalı faciəsinə, Qarabağ həqiqətlərinə, erməni-daşnaq hücumlarına göz yumulur. Həllac Mənsurun ilahi eşqindən, Nəiminin, Nəsiminin insan sevgisindən, Nizaminin əxilik fəlsəfəsindən, Ruminin, Caminin, Hafizin, Şihabəddin Yəhya Sührəvərdinin, Mahmud Şəbüstərinin, Füzulinin, Xəqaninin, Xoca Əhməd Yəsəvinin, Yunus İmrənin:

Könül Çələbin taxtı,
Çələb könülə baxdı,
Kim könül qırar isə,
İki cahan bədbaxdı.

- hikmətindən payımız çox olduğundan, oda, işığa, atəşə bağlılığımızdan:

Gövhərin keçməyən yerdə,
Satma, qardaş, kərəm eylə.
Ləl daşını çay daşına
Qatma, qardaş, kərəm eylə.

- deyir; Odlar Yurdu haqq aşiqlərinin yolu ilə gedir, varislik, sahiblik hissi ilə yaşayırıq. Ötən il başı bəlalar çəkən, cəngi-cidalara, səlib yürüşlərinə meydan olan, repressiyalar, müharibələr görən, polad kimi əyilsə də, sınmayan, ayaqda olan Azərbaycanda milli dövlətçilik tariximizin ən şanlı səhifələrinə şahidlik edən Xalq Cümhuriyyətinin 100 illiyi təntənə ilə qeyd olundu. Bakının işğaldan azad edilməsinin 100 illiyi şərəfinə hərbi parad keçirildi. Tarixin müxtəlif dönəmlərində Şərqin, türk dünyasının, Azərbaycanın haqq səsinə dönən, müsəlman mədəniyyətinin, İslamın himayədarı kimi missiyasını bu gün də ləyaqətlə yerinə yetirən Türkiyə Respublikasının Cümhur başqanı cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə birlikdə Ali Baş Komandan - sərkərdə xaqan olaraq əsgərlərimizə xeyir-dua verdi. Tarix təkrarlandı. Nuru Paşanın əsgərləri Cümhuriyyət ordusu ilə birlikdə Xəzərin sahilində qələbə marşı ilə addımladı. Bu, 1918-ci ildə Bakının işğaldan azad olunduğu günün səhəri Təzə Pir Məscidinin minbərinə qalxan Təzə Pirin axundu Şeyxülislam Ağa Əlizadə ilə Qafqaz İslam Ordusunun sərdarı Nuru Paşanın göz aydınlığına, sevinc müjdəsinə tay idi.

Ötən il Azərbaycan parlamentinin 100 illiyi də böyük coşqu ilə qeyd olundu. Əlimərdan bəy Topçubaşovun Versal sarayında vətən üçün çəkdiyi çilədən, özgürlük davasından ürəkdolusu danışıldı. O sırada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə Nəsimi festivalının keçirilməsi, festivalın Nəsiminin ata yurdu Şamaxıdan başlayıb Bakıda Heydər Əliyev Mərkəzində davam etməsi, Moskva Beynəlxalq Münasibətlər İnstitutunda təşkil olunan elmi simpoziumla bitməsi, tədbirə dünyanın Nəsimişünas alimlərinin və Seyid İmadəddin Nəsimi nəslindən olan doğmalarının gəlişi qeyd etdiyimiz varisliklə sahiblik hissinə nümunələrdir. Ölkə başçısı cənab İlham Əliyevin Nəsiminin 650 illik yubileyinin keçirilməsi, 2019-cu ilin "Nəsimi İli" elan olunması ilə bağlı sərəncamı isə həqq deyən, həqq söyləyən şairə, onun mənsub olduğu məmləkətə, ona ruhundan qida verən millətə ehtiramın əlamətidir. Bu, həm də bizi biz edən, bizdən edən, gərdəyi qəlbi dağlar, örpəyi ağ buludlar, süngüsü qeyrəti, sipəri cəsarəti, libası ləyaqəti, qüruru kəfəni olan, Xaqaninin əqidəsi, Nəsiminin insan, Hadinin vətən sevgisi kimi diri, dipdiri qalan, qılıncla qələmin vəhdəti, kəlamın qüdrəti ilə min illərdir ayaqda

olan, Tanrının Xızır, ruhunun hüzur yeri, odun, atəşin məskəni Odlar Yurdu Azərbaycana, milli dövlətçilik tariximizin altun səhifələrini yaradan, müdrikliyi, məğrurluğu ilə adı xaqanlıq tariximizə yazılan Şirvanşahlar dövlətini quranlara, yolunda can qoyanlara, gəncəli Cavad xanın qisasını Bakının qala divarları önündə alan Hüseynqulu xanın ruhuna ehtiramdır.

Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq "Nəsimi İli", yubiley çərçivəsində xeyli işlər görüləcək, layihələr gerçəkləşəcək. Seyid İmadəddin Nəsimi qanunların şah yox, şahların qanun olduğu zamanlarda baş əymədi. Saraylara əyilməyən qürurunu götürüb ruhunun dalınca getdi. Xəlifələrin, sultanların qanun olduğu Hələbdə tikə-parça edildi. Həqq dedi, həqq söylədi. Kamil insanda Tanrını gördü. Ona qıyan cahillər də, anlamayanlar da günahına girdi: məşhur tədqiqatçıları belə. Kimi onu Suriyadan, kimi Diyarbəkirdən, kimi Bağdaddan, kimi də Anadoludan bildi; Şamaxının ata yurdu, dədə-baba ocağı olduğunu bilə-bilə. Nə yaxşı ki, lal daşların sükutu pozmağı var. Şahı, Xəndanı olan Şamaxıda Nəsiminin Şıx Xəndan adlı qardaşının türbəsi bu gün də ziyarət yeri sayılır.

Bir zamanlar Ulu öndərin Nizami Gəncəvi, Mövlana Məhəmməd Füzuli, Xoca Nəsirəddin Tusi irsinə və şəxsiyyətinə bəslədiyi Xaqan münasibəti, onların kimliyinə, milli mənsubiyyətinə əl qoyanlara ən tutarlı cavab oldu. Prezident İlham Əliyevin Xaqan atasının azərbaycançılıq məfkurəsinə sədaqət hissi ilə Nəsimi adına imzaladığı sərəncamın da mahiyyətində bu durur. Bu, həm də Seyid İmadəddin Nəsimini özgə yerlərdə və ellərdə axtaranlara bir görkdür, Xaqan dərsidir! Prezident bununla bir daha sübut etdi ki, insanın hara gəldiyi, necə və nədən gəldiyi şərt deyil, onun haradan, hansı yaddaşdan gəldiyi əsasdır. Seyid İmaməddin Nəsimi özünün insan sevgisi, ilahi eşqi ilə sivilizasiyaların, mədəniyyətlərin, dinlərin dialoq məskəni, multikultural dəyərlərin, tolerantlıq dolu duyğuların ünvanı olan Odlar Yurdu Azərbaycan, ümumbəşəri dəyər, müasir dillə desək bir Azərbaycan brendidir!

Dəhşətlisi, kədərlisi isə odur ki, Şərq qan, Suriya, Hələb od içindədir. Daşı daş üstündə qoymurlar. Nəsimi məqbərəsindən, məzarından son görüntülərə baxdıqca yaramın qaysağı qopur. Laməkanıma, gül camalıma, pür kamalıma, insan sevdalıma üz tutub elə öz dili ilə pıçıldayıram: "Həsrətin dərdi ürəyimdən daşlar çıxardı".

Oğuz oğlu, Dədə Qorqud törəsi bir dəfə sevir. Elə bircə dəfə də Buta camından içir, yar yolunda canından keçir. Könül verdiyindən dönmür, sevdiyini unutmur, oduna alışıb yanır, Simurq quşuna dönüb atəşindən boylanır. Babək Xürrəmi, Həllac Mənsur, Şihabəddin Yəhya Sührəvərdi, Fəzlullah Nəimi, Seyid İmadəddin Nəsimi, Məhəmməd Əmin Rəsulzadə, Ulu öndər Heydər Əliyev kimi!

Yaxşı ki, var idin, varsan, var olacaqsan, Azərbaycan! Sən olmasan laməkanlarımın, iki cahana sığmayanlarımın, gözü yolda, könlü xəstə olanlarımın, nigaran ruhlarımın sahibi kim olar? Kim onların adını tutub şölən qurar?! Dünyanın gerçəyi elə buymuş:

Dövlət qalan,
qalan hər şey yalandır!

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ